www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 noyabr 2014-cü il Bazar ertəsi № 281 (5990) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda iki müəlliməni öldürüb qaçan sürücü yaxalandı

yazısı səh.2-də

**Gündəm**

### QAT-ın girovlara dəstək aksiyası böyüyür



Diləm Əsgərovun qardaşı oğlu da aclığa qoşuldu; Akif Nağı: "Reaksiyalara baxaraq sonrakı addımlarımızı müəyyənləşdirəcəyik..."

yazısı səh.3-də

### Müsavatçılara bələdiyyələrə namizəd olmağa imkan verilmir

yazısı səh.3-də

### Tofiq Yaqublu və İlqar Məmmədovun səhhəti ağırlaşıb

yazısı səh.3-də

### Kazimirovdan Qarabağa dair unikal "nizamlama" formulu

yazısı səh.11-də

### Binədə həbslərə gətirən aksiyadan sonra əhalinin problemləri dəyişməz qalıb

yazısı səh.14-də

*Ekspert:*

### "Ermənilərin qisas hədələri daxili auditoriyaya hesablanıb..."

yazısı səh.8-də

### Vilyam Hacıyev veteran futbolçunu həbs etdirmək istəyir

yazısı səh.12-də

*Sabiq MTN zabiti:*

### "Helikopteri vuran hərbçinin kimliyi məxfi saxlanmalı idi..."

yazısı səh.8-də

### Milli Strateji Düşüncə Mərkəzi ilk toplantısını Dirçəliş Gününə həsr edəcək

yazısı səh.4-də

### Arif Hacılıdan ona qarşı bəyanat verənlərə sülh çağırışı

yazısı səh.9-da

### Ukrayna saytları Azərbaycanın "rubl siyasəti"ndən yazıb

yazısı səh.3-də

### Ağdam məktəbində 3 direktor, 6 gözətçi işləyir...

yazısı səh.14-də

## "Xaləddin İsgəndərov icra hakimiyyətini ailə şirkətinə çevirib"

# BİNƏQƏDİNİN BAŞCISI HAQDA SENSASİON MƏLUMATLAR VƏ İDDİALAR

Qalmaqallı başçının barəsində redaksiyamıza elektron məktub daxil olub; **sitat:** "Bütün qara işləri qardaşı və bacısı oğlanlarının əli ilə gördürür", "Xaləddin müəllimin qardaşı oğlunu vergilər naziri ona görə işdən qovdu ki..."




yazısı səh.5-də

## Bayılda 10 minə yaxın sakin evsiz qala bilər

Ərazidə evləri söküləcək mülk sahiblərinə bildirişlər göndərilib; "Bu xəbərlər yayılandan sonra sakinlərə rüşvətlə evlərini sənədləşdirmək təklif olunur..."

yazısı səh.12-də



*Hikmət Hacızadə:*

### "...Gərək Amerikada doğulaydım"

yazısı səh.7-də



İmamverdi İsmayılov

### Deputatın polis oğlu barədə ilginc iddialar

yazısı səh.5-də



*Eldar Namazov:*

### "Azərbaycanı qarşıda iki gərgin il gözləyir..."

yazısı səh.6-da

## 17 noyabr 2014

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014




# Bakıda iki müəlliməni öldürüb qaçan sürücü yaxalandı

## Cinayət işinin istintaqı baş prokuror Zakir Qaralovun xüsusi nəzarətindədir...

**Baş Prokurorluq Bakıda iki müəllimin ölümü ilə nəticələnən yol qəzası ilə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya açıqlamasında bildirib ki, ilkin araşdırmalarla yol qəza hadisəsini törətməkdə şübhəli bilinən Cəmil Yaqubovun avtomobili sərxoş vəziyyətdə idarə etdiyi müəyyən edilib.**

Faktla bağlı Suraxanı Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263-1.3-cü (yol hərəkəti qaydalarını sərxoş vəziyyətdə pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (hadisə yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən, 1978-ci il təvəllüdlü Cəmil Yaqubov tutulub. İkinci piyada Məlahət Rəhimovanın xəstəxanada vəfat etməsi ilə əlaqədar cinayət işi həmin məcəllənin 263-1.4-cü (yol hərəkəti qaydalarını sərxoş vəziyyətdə pozma, ehtiyatsızlıqdan iki və ya daha artıq şəxsin ölümünə səbəb olduqda) maddəsinə tövsif edilib.

E. Sultanov həmçinin qeyd edib ki, cinayət işinin istintaqı baş prokuror Zakir Qaralovun xüsusi nəzarətindədir. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, məlum hadisə noyabrın 15-də axşam saatlarında Hövsan qəsəbəsində qeydə alınıb. "Mercedes" markalı minik maşını yolu keçən Gülnarə Canıyeva və Məlahət Rəhimovanı vurub. Nəticədə G. Canıyeva aldığı xəsarətdən hadisə yerində, M. Rəhimova isə xəstəxanada dünyasını dəyişib.

Qəza nəticəsində dünyasını dəyişən qadınların hər ikisi orta məktəb müəllimləsidir.



# "G-20" liderləri Putini təklədi

## **Rusiya prezidenti:** "Yuxum gəlir..."; Harperin "Ukraynadan rədd olun" çağırışı Rusiya prezidentinin "G-20" toplantısını yarımçıq tərk eləməsinə səbəb oldu...

**Rusiya prezidenti Valdimir Putin dünya liderlərinin Avstraliyanın Brisben şəhərində keçirilən "G-20" zirvəsini yarımçıq tərk edib. Qərb mediası yazır ki, Rusiya dövlət başçısının zirvə görüşünü yarıda qoymasının səbəbi Ukraynaya hərbi müdaxiləyə görə sərt tənqid edilməsi və dışlanmasıdır. Liderlərin Vladimir Putinə soyuq münasibəti noyabrın 16-da liderlərin səhər yeməyində də gözdən qaçmayıb - Rusiya dövlət başçısı qəhvəaltı masasında yalnız oturmalı olub.**

Uçağında Rusiya mediasına açıqlama verən Rusiya prezidenti zirvə görüşündən erkən ayrılmasını yuxusuzluğu ilə əlaqələndirib: "Yuxum gəlirdi, yatmaq istəyirdim. Buradan Vladivostoka 9 saat uçmalıyam. Oradan Moskvaya uçuş daha 9 saatdır. Hələ evə çatmalıyam. Sabah bazar ertəsidir, erkəndən işdə olmalıyam. Cəmi 4-5 saat yata biləcəm".

Putin səhər yeməyində tək oturmasını da fərqli yorumlayıb: "Liderlərin ortaq səhər yeməyinə də yuxusuzluğa görə gecikdim. Ancaq bizim maliyyə nazirimiz orada idi".

Yada salaq ki, Brisbendə keçirilən iki günlük zirvədə Putinin Ukrayna siyasətini ABŞ prezidenti Barak Obama, Almaniya kansleri Angela Merkel, Avstraliyanın baş naziri Toni Ebbott, Britaniya baş naziri Devid Kemeron sərt tənqid edib. Kanadanın baş naziri Stiven Harper isə daha konkret olub. Çıxışı zamanı üzünü Putinə tutan Harper ona "Ukraynadan rədd olun" deyib.

❑ Aygün MURADXANLI

# Azərbaycan genişmiqyaslı təlimlər keçirir

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə noyabrın 13-dən Hərbi Dəniz Qüvvələri tam heyətdə, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunlarının hissə və bölmələri, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin iştirakı ilə birgə əməliyyat-taktiki təlimləri keçirilir.**



Musavat.com-un MN-in saytına istinadən verdiyi məlumata görə, təlimin birinci mərhələsində Hərbi Dəniz Qüvvələrinin qüvvə və vasitələri tam döyüşə hazır vəziyyətə gətirilərək gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxıb və əsas baza məntəqəsinin mühafizə və müdafiəsinin təşkilini müvəffəqiyyətlə icra edib. Əlavə olaraq şəxsi heyət və silahlarla komplektləşdirmə tədbirləri də başa çatdırılıb.

İkinci mərhələdə Hərbi Dəniz Qüvvələrinin qərargahında Hərbi Hava Qüvvələri, Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsi və Fövqəladə Hallar Nazirliyi ilə qarşılıqlı əlaqədə dəniz sərhədlərinin, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində neft-qaz infrastrukturu obyektlərinin mühafizə və müdafiəsi üzrə əməliyyatların planlaşdırılması həyata keçirilib və Hərbi Dəniz Qüvvələrinin gəmi, hissə və bölmələrinə döyüş tapşırıqlarının çatdırılması yekunlaşdırılıb.

Üçüncü mərhələdə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterlərinin dəstəyi ilə düşmən gəmilərinin və terror-diversiya qruplarının məhv edilməsi üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər. Təlimlərə cəlb olunan bütün növ qüvvə və vasitələrdən döyüş atışları icra olunub.

Aktiv faza zamanı terrorçular tərəfindən ələ keçirilən bazanın məhv edilməsi, suüstü gəminin və heyət üzvlərinin azad edilməsi, boru kəmərinin monitorinqi, terrorçular tərəfindən ələ keçirilən neft özülünün azad edilməsi, Xəzər dənizinin əməliyyat zonasına daxil olan düşmən gəmilərinin məhv edilməsi, gəmilərin ordərə düzülərək hərəkəti, Böyük-Zirə adasının cənub reyd istiqamətində dənizlə keçidi, gəmilərin mühafizə olunmayan reyddə lövbərə durması və hərəkətdə universal müdafiəsinin təşkili üzrə tapşırıqlar hərbçilərimiz tərəfindən uğurla icra edilir.

Təlimlər noyabrın 17-dək davam edəcək.



# Broylerlə bağlı şok gerçək

**1957, 1978 və 2005-ci illər arasında yetişdirilən 3 toyuğun ağırlıqlarının həddindən artıq fərqli olması hər kəsi dəyişdirib. anspress-in məlumatına görə, geni dəyişdirilmiş bir toyuğun 2005-ci ildə 4 kiloqram ağırlıqda olduğu ortaya çıxıb. 1957-ci ildə isə bu, 905 qram olub.**

Kanadalı "Poultry Science" elm qurumunun apardığı araşdırma çərçivəsində 1957, 1978 və 2005-ci illərdə 3 fərqli toyuq yetişdirilib. Yetişdirilən toyuqlara əlavə heç bir hormon və ya qida verilməyib. Üçü də eyni yeməyi günün eyni zamanlarında yeyiblər.

1957-ci ildə yumurtadan yeni çıxan cücə toyuq olana qədər keçirdiyi müddətdə 905 qram ağırlığa çatıb. 1978-ci ildə eyni cücə toyuq olana qədər 1 kiloqram 808 qram çəki yığıb. 2005-ci ildə isə cücə toyuq olana qədər keçən müddətdə 4 kiloqram 202 qram ağırlığa çatıb.

Mütəxəssislərin fikrincə, bu illər ərzində toyuqların genlərini onların daha ağır olmaları istiqamətində dəyişdiriblər.

# Feldşer nazirdən kömək istəyir

**Hacıqabul rayon sakini, feldşer Fuad Mehdiyev redaksiyamıza məktub yollayıb. Məktub müəllifi yazır ki, 2009-cu ildə təhsilini başa vurduqdan sonra döyüş bölgəsinə göndərilib. Göranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə gizir rütbəsində həkim ferşel kimi xidmətə başlayıb:**

"5 il hərbi qulluqçularımızın sağlamlığının keşiyində dayandım. Şərəfli missiyamı yerinə yetirərək ordudan təxris olundum. Doğulduğum Hacıqabul rayonunda dövlətimiz tərəfindən yeni, ən müasir səviyyədə inşa olunmuş xəstəxanada təcili yardım stansiyasında vakant yer olduğu üçün orada işləmək qərarına gəldim. Bu ilin sentyabrın 3-də Səhiyyə Nazirliyinə məktub yazıb xahiş etmişəm ki, Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında təcili yardım stansiyasında işlə təmin olunum. O vaxtdan sənədlərim Kadrlar İdarəsindədir və eyni zamanda müvafiq ünvanlardan lazımı sorğular da alınıb. Qəzetiniz vasitəsi ilə nazir Oqtay Şirəliyevdən Azərbaycan gənci kimi, ordumuzun əsgərlərinə xidmət göstərən gizir feldşer kimi xahiş edirəm: mənim işlə təmin olunmağıma köməklik göstərsin".

Məktub müəllifi Ali Baş komandanın əmrinə əsasən hər zaman ordu sıralarına qayıtmağa hazır olduğunu da vurğulayır.

❑ E.HÜSEYNOV

# Bu gün hava yağmurlu olacaq

**Noyabrın 17-də Azərbaycan ərazisində hava şəraiti əsasən yağmurlu olacaq. Bakıda və Abşeron yarımadasında buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, fasilələrlə yağış yağacağı gözlənilir. Saniyədə 10-15 metr sürətlə şimal küləyi əsəcək, arabir 18-23 metrədək, gecə yarımadanın bəzi yerlərində 25-28 metrədək güclənəcək.**

Gecə və gündüz 8-10° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək olacaq, 764 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət 85-95 faiz edəcək.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# İcra nümayəndəsinin qohumu özünü asıb?

**Bakının Türkan qəsəbəsində intihar hadisəsi baş verib. Axar.az-a özəl mənbədən verilən xəbərdə iddia olunur ki, qəsəbə icra nümayəndəsi Hacı Rahil Babayevin qardaşı oğlu, 1976-cı il təvəllüdlü Həmid Rais oğlu Babayev özünü asıb.**

Mənbənin sözlərinə görə, H.Babayevin intiharına səbəb ailə münasibətlərində yaranmış gərginlik olub. İcra nümayəndəsinin qohumu ailəsində olan mübahisə səbəbindən intihara əl atıb. İddiaya görə, bu hadisə intihar kimi qeydə alınmayıb. H.Babayevin intiharı tibbi ekspertizada ürək tutmasından dünyasını dəyişmə kimi qeydə alınıb.

"Yeni Müsavat"a daxil olan məlumata görə isə bu məlumat ictimailəşəndən sonra Xəzər Rayon Prokurorluğu araşdırmalara başlayıb.

Mövzuya qayıdacağıq.

❑ E.HÜSEYNOV

# Şirvan sakini Kürdə boğulub

**Şirvan sakini balıq tutarkən Kürdə boğulub. APA-nın Mil-Muğan bürosuna Şirvan polis şöbəsindən verilən məlumata görə, Şirvan şəhəri, Ş. Şükürov küçəsi 13 ünvanında yaşayan, 1979-cu il təvəllüdlü Həsənov Şövqi Əbil oğlu noyabrın 15-də saat 17.00 radələrində Kür çayının Şirvan şəhərinin ərazisindən keçən hissəsində boğulub.**

Çayın sahilində tilovla balıq tutan Ş. Həsənov suya yıxılıb. Ş. Həsənovun meyiti Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin Şirvan məntəqəsinin əməkdaşları tərəfindən sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı Şirvan polis şöbəsində araşdırma aparılır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Qarabağ Azadlıq Təşkilatı (QAT) kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin talelərinə beynəlxalq təşkilatların biganəliyinə və Azərbaycan hakimiyyətinin fəaliyyətsizliyinə etiraz olaraq noyabrın 14-də başladıqları aclıq aksiyasını davam etdirirlər. Ancaq hələ ki heç bir beynəlxalq təşkilatlardan və hakimiyyət strukturlarından bu aksiyaya reaksiya yoxdur.**

# QAT-ın girovlara dəstək aksiyası böyüyür

## Dilqəm Əsgərovun qardaşı oğlu da aclığa qoşuldu; **Akif Nağı:** "Reaksiyalara baxaraq sonrakı addımlarımızı müəyyənləşdirəcəyik..."

QAT sədri Akif Nağı isə aksiyanı davam etdirəcəklərini bildirdi: "Hələ ki nə beynəlxalq təşkilatlardan, nə hakimiyyətdən heç bir reaksiya hiss etmirik. Görünür, istər beynəlxalq təşkilatlar, istərsə də hakimiyyət nümayəndələri istirahətlərindən qalmırlar. Bəlkə bizim aclıq aksiyamız şənbə-bazara təsadüf etdiyi üçün hələ ki reaksiya vermirlər. Biz mətbuat vasitəsilə bir daha BMT, ATƏT və Prezident Administrasiyasına müraciət edərək soruşmaq istəyirik ki, niyə heç bir hərəkət etmirsiniz?! Bizim aclıq aksiyamızın vaxtı qeyri-müəyyəndir. Məqsədimiz odur ki, beynəlxalq təşkilatlar və hakimiyyət girovlarımızın taleyinə daha ciddi yanaşsın. Biz reaksiyalara baxaraq sonrakı addımlarımızı müəyyənləşdirəcəyik".

Noyabrın 16-dan etibarən QAT sədrinin müavini İlqar Əli, QAT Şəki şöbəsinin sədri Elxan Rəhimli, girovluqda olan Dilqəm Əsgərovun qardaşı oğlu Mövlud Musayev aclıq aksiyasına qoşulub. QAT-ın Gəncə şöbəsi aclıq aksiyasına dəstək bəyanatı verib. Gün ərzində Vətən Müharibəsi Əlilləri Cəmiyyətinin sədri Firidun Məmmədov, müavini İbad Əhədov, Qarabağ qazisi Zərəngül Əliyeva və digərləri aclıq edənlərə baş çəkib, dəstək veriblər.

QAT-ın mətbuat xidmətinin xəbərinə görə, aclıq aksiyasına Şəkidə qoşulan Elxan Rəhimli bildirib: "Mən etiraz aksiyasına beynəlxalq təşkilatların və Azərbaycan hakimiyyətinin girovların taleyi ilə bağlı fəaliyyətsizliklərinə etiraz olaraq qoşuluram. Onlara orada erməni vəhşiləri işgəncələr, əziyyətlər verirlər. Mən aclıq etməklə onların çəkdikləri əziyyətlərin heç olmasa bir his-səsini yaşamaq istəyirəm".



Qarabağ qazisi, Vətən Müharibəsi Əlillər Cəmiyyətinin sədri Firidun Məmmədov aclıq edənlərə baş çəkərkən bildirib: "QAT-çılar həmişə Qarabağ məsələsində hamıdan öndə olublar. Sizə təşəkkür edirik. Allah fədakarlığınızın nəticəsini göstərsin".

Qeyd edək ki, QAT aclıq aksiyası ilə bağlı yaydığı bəyanatda aşağıdakı tələbləri irəli sürüb:

1. BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, Qırmızı Xaç Komitəsinin rəhbərləri azərbaycanlı girovlarla bağlı məsələni təcili müzakirəyə çıxarmalı, girovların Azərbaycana qaytarılması üçün təsirli addımlar atmalıdırlar.

2. ATƏT-in Minsk Qrupunun həmsədrləri 22 illik mənasız və nəticəsiz fəaliyyətdən sonra, heç olmasa indi bir iş görməli, məsələyə ciddi müdaxilə etməlidirlər.

3. İslam Əməkdaşlıq Təşkilatı azərbaycanlı girovlarla bağlı təcili müzakirələr keçirməli, təsirli tədbirlər görməli, quruma daxil olan ölkələrin işğalçı Ermənistanla bütün əlaqələri kəsməsinə dair qərar qəbul etməlidir.

4. Cəbhə xəttində vurulan helikopterdəki erməni meyitlərinin yalnız azərbaycanlı girovlar azad edildikdən sonra geri qaytarılmasına imkan verilə bilər.

5. Azərbaycan hakimiyyəti işğalçı Ermənistanla danışıqları dayandırmalı, girovların azad edilməsi üçün lokal hərbi əməliyyat keçirməli, sonra isə torpaqlarımızın azad edilməsi üçün genişmiqyaslı hərbi əməliyyatlara başlamalıdır.

Biz inanmaq istəyirik ki, beynəlxalq təşkilatların rəhbərlərində azacıq da olsa, vicdan, ədalət hissləri qalıbsa, Azərbaycan hakimiyyətinin vətən, torpaq, milli qürur hissi varsa, öz sağlamlığı ilə risk edərək aclıq aksiyası keçirən insanların tələblərinə diqqətlə yanaşacaq, işğalçı Ermənistanın yerində oturdulması, cəzalandırılması, haqq-ədalətin bərpa olunması üçün addım atacaqlar. Biz Qarabağsız dözə bilmirik, Qarabağsız yaşamaq istəmirik!"

❑ **Günel MANAFLI**



# Rza Zərrabgil milyonların adresini "unudub"

## Türkiyə Böyük Millət Məclisinin 17 dekabr Böyük Rüşvət Əməliyyatı ilə bağlı yaradılan xüsusi komissiyası İstanbuldan Ankaraya rüqzaqda gətirilən 2 milyon avro, 2 milyon dollar və 1,5 milyon lirənin yerini tapa bilmir...

**17 dekabr Böyük Rüşvət Əməliyyatından sonra istefa vermək məcburiyyətində qalan Türkiyənin keçmiş nazirləri Zafer Çağlayan, Muammer Güler, Egemen Bağış və Erdoğan Bayraktarla bağlı Türkiyə Böyük Millət Məclisində başladılan araşdırmalar dalana dirənib. Səbəb 17 dekabrın açar isimlərindən İran əsilli iş adamı Rza Zərdabın İstanbuldan Ankaraya gətirilən külli miqdarda pulunun hansı adresə verməsinin unudulmasıdır.**

"Hürriyet" yazır ki, Türkiyə parlamentinin məsələ ilə bağlı yaradılan xüsusi komissiyası 2 milyon avro, 2 milyon dollar, 1,5 milyon lirənin kimə verilməsini dəqiqləşdirə bilmir. Rza Zərrabın bu işi görən köməkçilərinin bir hissəsi artıq Türkiyədə deyil. Əsl adı Məhəmmədsadiq Rastgar Şişehgarkaneh olan kuryer Məhəmməd Sadiq İstanbul prokurorluğuna verdiyi ifadədə deyib ki, 2013-cü il avqustun 30-da Murat Özdişlə birlikdə Ankaraya gəlişinin və pulu hansı adreslərə təslim etməsinin təfərrüatlarını unudub.

Məhəmməd Sadiq pulu Ankaradakı Royal İş Mərkəzindəki ofisində Salik Kaan Çağlayana verməsi ilə bağlı iddiaya cavab olaraq deyib ki, getdikləri ünvan yadında deyil: "Həmin tarixdə Muradla yola çıxdıq. Pul rüqzaqda idi. Hava limanında X-ray cihazından keçərkən çantaları aşdılar. Pulun miqdarını söylədik. Polislər çantanı qapadıb geri verdilər. Ankarada pulu kimə verdiyimiz yadımda deyil. Nə nazir, nə də nazir oğlu olan bir adama pul verməmişik. Bizə konkret ad dedilər, biz də ona verdik. Mən nazirin oğlunu tanımıram. Ancaq polislər istintaq zamanı mənə bir şəkil göstərdilər, tanımadığım halda pulu ona verdiyimi yazmağa məcbur etmək istədilər. Mən bunu etmədim. 3 foto göstərdilər, heç birini tanımırdım. Ankaraya dəfələrlə pul aparmışam. Oradan isə İstanbula qızıl gətirmişəm. Qaynağı xaricdə olan paraların çoxunu biz əllə aparıb-gətirirdik. Çünki banklar xarici ölkə pulları ilə çox ehtiyatlı davranırlar, prosedur uzun çəkirdi. Müştərilər isə pulun tez çatdırılmasını istəyirdilər. Bəzən hətta turistlərlə də pul göndərdiyimiz olub. Çünki İrana embarqo qoyulduğundan banklar vasitəsilə İrandan pul çıxarmaq mümkün deyildi".

Yada salaq ki, AKP iqtidarının korrupsiya iddiaları ilə üzləşməsinə səbəb olan 17-25 dekabr əməliyyatı Türkiyə üzərindən külli miqdarda İran pullarının yuyulması faktlarını da üzə çıxarıb.

❑ **Aygün MURADXANLI**

# Müsavatçılara bələdiyyələrə namizəd olmağa imkan verilmir

## Partiya etiraz bəyanatı yaydı

**Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində namizədliyin irəli sürülməsi mərhələsində Dairə Seçki Komissiyası və hakimiyyət nümayəndələri tərəfindən süni əngəllər yaradılması haqqında bölgələrdən alınan məlumatlar artmadadır. Bu maneələr əhalinin bələdiyyə seçkilərinə olan inamsızlığının daha da güclənməsinə səbəb olur.**

Müsavat Partiyası yaranmış vəziyyətlə bağlı bəyanat yayıb. Bəyanatda Müsavat Partiyası Mingəçevir rayon təşkilatından verilən məlumat əsasında deyilir ki, Mingəçevir şəhər bələdiyyəsinə namizədliyi irəli sürülən üç Müsavat üzvünün namizədliyinin təsdiq edilməsi və onlara imza vərəqələrinin təqdim edilməsi 47 saylı Dairə Seçki Komissiyası tərəfindən süni şəkildə yubadılır. Eyni zamanda, partiya üzvlərinə bələdiyyə seçkilərində müşahidəçi kimi iştirak etmək məqsədilə təqdim edilən sənədlər DSK tərəfindən qəbul olunmur.

Müsavatın Zaqatala rayon təşkilatının üzvü Ramazan Muxtarlının isə Aşağı Tala kənd bələdiyyəsinə namizədliyinin irəli sürülməsinə yerli icra hakimiyyəti strukturları maneçilik törədir. Belə ki, yerli icra nümayəndəsi namizədliyin irəli sürülməsi üçün tələb olunan "yaşayış yerindən arayış" sənədini R.Muxtarlıya verməkdən yayınır. Səbəbsiz olaraq 3 gündür iş yerinə gəlmir.

Bəyanatda bildirilir ki, eyni əməl rayonun digər kənd icra nümayəndələri tərəfindən də namizəd olmaq istəyən sakinlərə qarşı törədilir.

Bəyanatın sonunda Müsavat Partiyası bu pozuntuların Seçki Məcəlləsinə zidd olduğunu qeyd edir və hakimiyyətin bələdiyyə seçkilərində müxalifətin iştirakına maneçilik yaratmaq niyyətinin nəticəsi kimi dəyərləndirir. Yol verilən bu qanun pozuntularının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq dərhal aradan qaldırılması tələb edilir.

❑ **E.SEYİDAĞA**



# İŞİD bu dəfə amerikalı müsəlmanın başını kəsdi

**İŞİD girov saxladığı daha bir ABŞ vətəndaşının - Piter Kessiqanın başını kəsib. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, İŞİD-in həmin edam səhnəsini əks etdirən video paylaşdığı bildirilir.**

Qeyd edək ki, terror qruplaşması bundan əvvəl də girovluğunda olan ABŞ vətəndaşları olan jurnalistlər - Cim Fouli və Stiven Sotlofun başını kəsib. Daha sonra isə İngiltərə vətəndaşı Devid Heynes eyni üsulla edam edilib.

Məlumata görə İŞİD-in bu dəfəki qurbanı 2013-cü ilin oktyabrın 1-də girov götürülüb. O, 2007-ci ildə İraqda hərbi xidmətdə olub. Piter Kessiqin ABŞ-ın İndiana ştatından olduğu bildirilir. Edam olunan şəxsin valideynləri isə söyləyib ki, övladları girovluda olarkən İslam dinini qəbul edib və özünə Əbdül Rəhman adını götürüb.

# Ukrayna saytları Azərbaycanın "rubl siyasəti"ndən yazıb

## Rublun alğı-satqısının böyük risk daşıması bir sıra ölkələrin Azərbaycan təcrübəsindən yararlanmasına səbəb ola bilər

**Azərbaycan valyutadəyişmə məntəqələri Rusiya rublunun alğı-satqısını dayandırıb. Ukraynanın unian.net saytı bu xəbəri başlığa çıxarıb. newsazerbaijan.ru saytına istinadən yayılan xəbərdə bildirilir ki, Azərbaycan banklarının bu qərarı Rusiya milli valyutasının saatbasaat ucuzlaşması ilə bağlıdır.**

Geosiyasi risklər və neftin qiymətinin ucuzlaşması fonunda Rusiya rublunun məzənnəsi kəskin düşür. Rusiya Milli Bankı noyabrın 5-də valyuta investisiyalarını ixtisara salandan sonra proses daha da sürətlənib. Rusiya valyuta bazarı Milli Bankın bu qərarını rublun bazardakı tələbata görə sərbəstləşdirilməsi kimi qəbul edib. Nəticədə 3 gün ard-arda Rusiya rublu tarixi eniş rekordlarını təzələyib.

Azərbaycanın tanınmış iqtisadçılarından Oqtay Haqverdiyev bildirib ki, Azərbaycan banklarının rubldan imtina qərarı çox təbiidir: "Tələbat olmadığı üçün qərar məntiqlidir. Rublun alqı-satqısından banklar nəinki qazanır, əksinə, itirir. İndi Azərbaycandan Rusiyaya gedənlərə pulları dollarda saxlamaq münasibdir. Çünki Rusiyada dollara tələbat Azərbaycanda olduğundan daha çoxdur".

İqtisadçının fikrincə, Azərbaycanda rublun alqı-satqısının dayandırılması rubl sabitləşənə qədər davam edəcək.

Unian.net daha sonra yazır ki, Azərbaycan banklarının bu qərarını digər ölkələr də tətbiq edə bilər.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



## Tofiq Yaqublu və İlqar Məmmədovun səhhəti ağırlaşıb

### Hər iki İsmayıllı məhbusunun ailəsi narahatdır; Saxarov mükafatı onların vəziyyətini pisləşdirib; Mirvari Qəhrəmanlı: "Bütün məsələlər sonda ölkə daxilində həll olunmalıdır..."

**Müsavat başqanının həbsdə olan müavini Tofiq Yaqublunun səhhətində ciddi problemlərin yaranması barədə xəbər vermişdik. Artıq günlər keçdikcə Müsavat funksionerinin vəziyyəti ağırlaşır. Buna səbəb asma xəstəliyindən əziyyət çəkən başqan müavininin uzun müddətli həbsdə qalmasıdır.**

13 saylı cəzaçəkmə Müəssisəsi belə xəstələrin həyatı üçün təhlükəli sayılır. Həmin müəssisə daş karxanaların əhatəsində yerləşdiyindən daim toz olur. Bu isə asma xəstəliyinin ağırlaşmasında əsas rol oynayır.

Tofiq Yaqublunun qızı Nigar Yaqublu musavat.com-a açıqlamasında noyabrın 16-da müəssisəyə getsə də, görüşə buraxılmadığını bildirib: "Bu gün (denən-red.) atamla görüşə getmişdik. İcazə verilmədi. Sadəcə, dedikləri dərmanları almışdım. Onları verdim. Səhhətinin nə yerdə olması ilə bağlı heç bir məlumatım hazırda yoxdur. Çox narahatam. Özü zəng etməsə, gələn həftənin bazar gününə qədər məlumatsız qalacağıq. Çünki növbəti görüş üzümüzə gələn bazardır".

Tofiq Yaqublu ilə bərabər İsmayıllı hadisələrinə görə həbs edilən REAL hərəkatının həmsədri İlqar Məmmədovun da səhhəti ağırlaşıb. Bu barədə onun yoldaşı Vəfa Məmmədova məlumat verdi: "Bir həftəyə yaxın müddətdir ki, İlqar bərk soyuqlayıb. Neçə gündür qızdırması düşmür. Dünən dərmanlar göndərdik. Bununla ikinci dəfədir ki, iynə-dərmanlar göndəririk. Amma səhhəti yaxşılaşmır. Sonuncu dəfə mənimlə iki gün öncə 5 dəqiqə halsız vəziyyətdə danışıb. Ondan sonra xəbərimiz yoxdur. Yəqin ki, vəziyyəti yaxşı olmadığı üçün zəng edə bilmir. Saxlanma şəraiti normaldır. Şikayətimiz yoxdur. Şəkidən Bakıya gətirildikdən sonra Şüvəlanda saxlanıldığı müddətdə İlqarın halı bir neçə gün pis oldu. Həm saxlanma şəraiti, həm də yemək baxımından. Ondan sonra zəiflədi və nəticədə xəstələndi".

Hüquq müdafiəçisi İntiqam Əliyevin vəkili Cavad Cavadov heç biri yeniliyin olmadığını bildirdi: "Son durumu İntiqam bəylə görüşəndən sonra biləcəm. Hələ ki, yenilik yoxdur. Gələn həftə görüşəcəyəm".

Qeyd edək ki, noyabrın 14-də Osloda 100 nəfərə yaxın azərbaycanlı siyasi məhbusa Saxarov mükafatının verilməsi onların işlərini nəinki yüngülləşdirib, hətta çətinləşməsinə səbəb olub. Belə ki, bu addım Azərbaycan hakimiyyəti tərəfindən sərt tənqid olunub.

Bununla bağlı İnsan Haqları üzrə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlının fikirlərini aldıq. Hüquq müdafiəçisi beynəlxalq aləmin bu mükafatı verməkdə məqsədinin məhbuslarımızın yanında olduqlarını nümayiş etdirmək olduğunu qeyd etdi: "Bunu ölkəmizə təsir vasitəsi kimi qiymətləndirə bilmərəm. Onu yaxşı qiymətləndirirəm ki, bu insanların yanında olduqlarını göstərdilər. Bu, mənəvi dəstəkdir. Bütün məsələlər sonda ölkə daxilində həll olunmalıdır. Ayrı-ayrı fərdlərin fikirləri ilə demək olmaz ki, hamı eyni cür fikirləşir. Mən müsbət düşünürəm. O məhbusların içərisində xəstələri var. İşçi Qrupunda bunların hamısı müzakirə olunub. Xəstə məhbusların taleyi bizi də çox narahat edir. Hər şeydən əvvəl onların içərisində həmkarlarım var. Düşünürəm ki, onların həbsi qanunsuzdur. Biz çalışırıq ki, ilk növbədə xəstə məhbusların məsələsini qaldıraq. Adlarını çəkmək düzgün deyil. Çünki cəmiyyətdə mübahisə yarada bilər. Amma səmimi olaraq deyirəm ki, xəstə və bütün siyasi məhbusların məsələsi qaldırılıb. Narahatçılıq yaradan yeganə amil odur ki, cəmiyyətə İşçi Qrupuna etimadsızlıq göstərmək kimi fikirlər aşılayırlar. Hətta deyirlər ki, xəstəliklərlə əlaqədar bu qrupa arayış da verilməsin. Çox istərdim ki, xəstəlik problemi olan bütün məhbuslarımız İşçi Qrupuna arayış təqdim etsinlər. Bu bizə də çox asan olar. Çünki əlimizdə sübut edəcək sənəd olar. Təəssüf ki, arayış təqdim edənlər azdır. Bütün bunlara baxmayaraq, biz sona qədər əlimizdən gələni edəcəyik".

❑ Cavanşir ABBASLI



# AŞ Nazirlər Komitəsinə sədrlik Azərbaycana nə verdi?

**Ötən həftə Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə (AŞNK) 6 aylıq sədrliyi başa çatdı. Ölkəmizin bu müddətdə fəaliyyəti isə birmənalı qarşılanmayıb. Azərbaycanın sədrliyi dövründə görülən işləri təqdir edən də, tənqid edən də var.**

**Azərbaycan Milli Strateji Tədqiqatlar Mərkəzinin sədri Natiq Miri "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkəmizin istər BMT Təhlükəsizlik Şurasına, istər Avropa Şurasının Nazirlər Komitəsinə müəyyən müddətə sədrlik etməsi dövlət adına tarixi hadisədir.**

Dövlətin beynəlxalq miqyasda daha ciddi şəkildə tanınmasına təsir göstərən mühüm faktordur. Bununla belə, bu cür beynəlxalq qurumlara sədrlik edən ölkənin həmin qurumların prinsiplərinə uyğun davranışlar sərgiləməsi vacibdir ki, həmin dövrdən ölkənin nüfuzunun artması üçün istifadə etmək mümkün olsun: "Ancaq Avropa Şurası Nazirlər Komitəsinə Azərbaycanın 6 ay sədrlik etdiyi dövr Azərbaycanın daxilində heç də o prinsiplərə cavab verməyən proseslərin gedişi ilə müşahidə olundu. Xarici işlər naziri Elmar Məmmədyarovun Avropa Şurası Nazirlər Komitəsinə sədrliyə başlayanda verdiyi vədlərə rəğmən Azərbaycan təəssüf ki, demokratiya və insan haqları yönündə konkret inkişafa nail ola bilmədi. Əksinə, bu sahələrdə bir qədər geriləmə müşahidə olundu. Azərbaycanın sözügedən quruma sədrlik etdiyi dövr bir sıra hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti nümayəndələrinin, siyasilərin, jurnalistlərin həbsləri ilə müşayiət olundu. Bu gün də bu proses davam etməkdədir. Bəlkə də Avropa Şurası təcrübəsində bir ilk idi ki, Nazirlər Komitəsinə sədrlik edən ölkənin daxilində məhz sədrliyi dönəmində belə proses vüsət almış oldu. Eyni zamanda bu hal onu da göstərdi ki, əslində Avropa Şurası ikili standartda fəaliyyət göstərən beynəlxalq qurumdur. Demokratiya və insan haqları məsələsində Avropa standartlarına uyğun olmayan bir ölkəyə göstərilən münasibət, digərinə göstərilən münasibətlə eyni deyil. Azərbaycanda demokratiya və insan haqları sahəsində vəziyyətin pisləşməsinin günahı müəyyən qədər də Avropa Şurasındadır".



**Natiq Miri:** "Azərbaycanın bu quruma sədrlik etdiyi dövr həbslərlə müşayiət olundu"



**Aydın Mirzəzadə:** "Bu fürsətdən lazımınca yararlandıq"



**Çingiz Qənizadə:** "Biz göstərdik ki, Azərbaycanın Avropaya deməyə sözü çoxdur"

Ekspert onu da dedi ki, AŞ Nazirlər Komitəsinə sədrliyin Avropa Birliyinin paytaxtı olan Belçikaya keçməsi sözügedən qurumun Azərbaycana münasibətində xüsusi dəyişikliyə gətirib çıxarmayacaq: "Sədrlik edən ölkə qurumun bütövlükdə xarici siyasətini müəyyənləşdirmir. Ona görə də Belçikanın sədarətdə olması Avropa Şurasının münasibətini dəyişməyəcək. Azərbaycana Avropa Birliyinin siyasəti artıq dəyişib. Son zamanlar təzyiq xarakterli davranışlar və bir sıra bəyanatlardan da bunu görmək mümkündür. Bu da təkcə Azərbaycana yönəlik siyasət deyil. Bu qlobal bir siyasətdir və Qərb dünyası tərəfindən qəbul edilmiş qərara uyğun həyata keçirilməkdədir. İlkin olaraq, avtoritar rejimlərin nüvəsi olan Rusiyanın zəiflədilməsi, əhəmiyyətsiz ölkəyə çevrilməsi prosesi gedir. Bu prosesdə dünya gücləri həmrəydir, o cümlədən Belçika həmrəydir. Rusiya zəiflədikcə, Azərbaycanın Avropaya inteqrasiyası daha da güclənəcək".

YAP-çı deputat Aydın Mirzəzadə isə milli.az açıqlamasında deyib ki, Azərbaycan AŞNK-də özünün ən yaxşı tərəflərini göstərə bildi və bununla da, dünyada qazandığı imicini bir qədər də yaxşılaşdırdı: "Bu fürsətdən lazımınca yararlanmalı idik və yararlandıq da. Göstərdik ki, Azərbaycan artıq oturuşmuş bir dövlətdir. Fəaliyyətimiz zamanı Avropa Şurası qarşısında duran ən mühüm məsələlərə toxunduq və onların həllinə öz töhfəmizi verdik. Nazirlər Komitəsinin sədri kimi, Azərbaycan cari məsələlərin həllində operativliyini və məsələyə yanaşmada yüksək professionallığı nümayiş etdirdi. Sədrliyimiz müddətində digər aktual problemlər də qaldırıldı. Qarşıda duran ən vacib məsələlər Avropanın təhlükəsizliyinin təmin olunması, insan hüquq və azadlıqlarının bütün Avropada bərqərar olması və s. idi. Bundan əlavə, Avropada və bütün dünyada aktual olan məsələlər müzakirə olundu. Azərbaycan vacib məsələləri gündəliyə sala bildi və onların həllinə öz töhfəsini verdi".

Deputatın fikrincə, Azərbaycan demokratik ölkə olduğuna və beynəlxalq prinsiplərə əməl etdiyinə görə, haqqında səsləndirilən mənfi fikirlərə tolerant yanaşır: "Ölkəmizin sədrliyi haqqında deyilən mənfi fikirləri normal qəbul edirəm. Demokratik dünyada yaşayırıq və Azərbaycan da onun bir parçasıdır. Kimlərinsə ölkəmizin fəaliyyətinə başqa bucaq altında baxmasını hamı sakit və normal qarşılamalıdır. Elə qurduğumuz dövlətin fəlsəfəsi də demokratiyadır. Nazirlər Komitəsinə sədrliyimiz dövründə də məhz bu dəyərlərə söykənmişik".

Deputat Çingiz Qənizadə də Azərbaycanın sədrliyinin uğurlu olduğunu deyib: "Nazirlər Komitəsinə sədrlikdən öncə, cənab prezident Avropa Şurasının yaz sessiyasında iştirak etdi və onun çıxışı Azərbaycanın yüksək təqdimatı rolunu oynadı. Biz göstərdik ki, Azərbaycanın Avropaya deməyə sözü çoxdur. Təəssüf ki, orada da ölkəmizə qarşı qərəzli davranışların və sualların verilməsinin şahidi olduq. Amma cənab prezident həmin suallara da layiqincə cavab verdi və kimlər üçünsə qaranlıq qalan məqamlara aydınlıq gətirdi. Hesab edirəm ki, deyilən tənqidlərin heç bir əsası yoxdur və ölkəmiz sədr olduğu müddətdə Avropa Şurasına lazım olduğu kimi rəhbərlik etdi. Hesab edirəm ki, ölkəmiz quruma rəhbərlik etmiş digər dövlətlərlə müqayisədə, onlardan daha yaxşı sədrlik etdi. Yəni, müqayisə aparanda görürük ki, ölkəmizin sədrliyi müddətində heç də əvvəlkilərin gördüyündən az işə qol qoyulmadı".

## Milli Strateji Düşüncə Mərkəzi Dirçəliş Günü ilə bağlı tədbir keçirəcək

### Pənah Hüseyn: "İclasın gedişində bir sıra qaydalar müəyyən olunacaq"



**Noyabrın 17-də Milli Strateji Düşüncə Mərkəzinin Diskussiya klubunun ilk tədbiri keçiriləcək. Toplantı saat 17-də başlayacaq. Tədbirin məhz Dirçəliş Günü keçirilməsi təsadüfi deyil.**

Toplantıda Azərbaycanın müasir tarixində çox önəmli yeri olan Meydan hərəkatının (17 noyabr-5 dekabr 1988-ci il) səbəbləri, nəticələri və mahiyyəti haqqında professor İsmayıl Musanın məruzə edəcəyi və müzakirələr aparılacağı gözlənilir.

Düşüncə Mərkəzinin üzvü Pənah Hüseyn tədbir barədə musavat.com-a açıqlamasında bunları deyib: "Tədbirdə professor İsmayıl Musayevin 17 noyabr-5 dekabr 1988-ci il mitinqlərinə aid məruzəsi olacaq. Bu, ilk toplantıdır. İclasın gedişində, yəqin ki, bir sıra qaydalar müəyyən olunacaq. Məruzədən sonra iştirakçıların İsmayıl müəllimə sualları gözlənilir. Nəzərə alaq ki, bu hadisə yaxın tariximizə aiddir. Hadisənin iştirakçıları var. Ola bilsin ki, bu hadisənin iştirakçılarının qısa rəyləri məruzə əsasında olsun. Təxminən tədbir bu cür nəzərdə tutulub. Mətbuata açıqdır. Yəni qapalı tədbir deyil".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 281(5990) 17 noyabr 2014

# Binəqədinin başçısı haqda sensasion məlumatlar və iddialar

**Ötən həftə Bakıda yağan yağışdan sonra paytaxtın bir neçə rayonunda biabırçı olaylar yaşandı. Yağış suları yollarda böyük gölməçələrə səbəb oldu, üstəlik kilometrlərlə uzanan tıxaclar yarandı. Belə halların yarandığı rayonlardan biri və bəlkə də birincisi Binəqədi idi. "Yeni Müsavat" yağışdan sonra Binəqədi rayonu ərazisində yaranmış bu biabırçılıq barədə geniş reportaj hazırladı; əhalinin üzləşdiyi durumu ictimailəşdirdi, rayonun küçələrində, dalanlarında, yaşayış massivlərindəki dəhşətli mənzərənin video-foto görüntülərini təqdim etdi.**




## "Xaləddin İsgəndərov icra hakimiyyətini ailə şirkətinə çevirib"

### Qalmaqallı başçının barəsində redaksiyamıza elektron məktub daxil olub; sitat: "Bütün qara işləri qardaşı və bacısı oğlanlarının əli ilə gördürür", "Xaləddin müəllimin qardaşı oğlunu vergilər naziri ona görə işdən qovdu ki..."

Bütün bunlardan nəticə çıxarmaq, neqativləri düzəltməyə çalışmaq, əyər-əskikləri yoluna qoymaq əvəzinə rayonun icra başçısı Xaləddin İsgəndərov və onun əlaltıları "Yeni Müsavat"a qarşı hücum və qaralama kampaniyasına başladılar. Bir neçə gün davamlı olaraq redaksiyamıza "zəhmətkeş" teleqramları göndərildi. Həmçinin redaksiyaya zəng vurub bizi hədələdilər. Teleqram və telefon zənglərində əsas xətt bundan ibarət idi ki, biz jurnalistlər X.İsgəndərovun Binəqədi rayonunda son illər gördüyü quruculuq-abadlıq işlərindən ya xəbərsizik, ya da bu işləri gözümüz götürmür. Guya qərəzli şəkildə Binəqədi rayonu və onun zəhmətkeş başçısı barədə düzgün olmayan məlumatlar yazırıq və s.

Əslində haqqında yazılanlarla razılaşmayan məmur bu barədə yazan qəzetə açıqlama, müsahibə verər, deyilənlərin doğru olmadığını faktlarla sübuta yetirməyə çalışar. Biz bunun üçün bir daha buradan müraciət edirik - hörmətli Xaləddin müəllim bizə müsahibə versin, nöqtəsinə-vergülünə toxunmadan onları dərc edək. Daha "zəhmətkeş" məktubları təşkil etdirib özünü gülünc vəziyyətə qoymasın...

"Zəhmətkeş" məktubu demişkən... Bizə Binəqədidən yenə məktub göndərilib. Amma bu dəfə Xaləddin müəllimin "cahanüşmul" fəaliyyətindən bəhs etmir məktubda. Əksinə, məktub Xaləddin İsgəndərovun Binəqədi RİH-də yaratdığı idarəetmədən (əgər buna idarəetmə demək mümkündürsə) söhbət açılır.

Məktubu bəzi redaktə və korrektə düzəlişləri ilə təqdim edirik.

Müəllif yazır ki, Binəqədinin hazırkı icra başçısı Xaləddin İsgəndərovun qardaşı oğlu Valeh İsgəndərov qeyri-rəsmi olaraq Binəqədi icra hakimiyyətində əsas vəzifələrdən birini tutur: "Bu vəzifənin nədən ibarət olduğunu sizə deyim. O, icra başçısının əsas pul yığanlarından biridir. Rayonda tikinti, torpaq alqı-satqısı, digər bütün qara işlər onun əli ilə həyata keçirilir. Valeh İsgəndərov icra hakimiyyətində rəsmi olaraq heç bir vəzifə daşımasa da, qeyri-rəsmi Xaləddin İsgəndərovun sağ əli, həm də bütün işləri gördürdüyü adamdır. Xaləddin İsgəndərovun iki qardası oğlu var. Valeh böyük qardaşının oğludur. Valeh İsgəndərov əvvəllər Vergilər Nazirliyində Vergi Cinayətlərinin Araşdırılması İdarəsində müstəntiq vəzifəsində çalışıb. Qohumluq əlaqələrinin sayəsində nazirlikdə mayor vəzifəsinə qədər yüksələ bilib. Daha sonra isə vergilər naziri Fazil Məmmədovun qəzəbinə tuş gələn Valeh İsgəndərov işdən qovulub, özü də töhmətlə. Bu işdə əmisi və nazirin qaynı Xaləddin İsgəndərov belə ona kömək edə bilməyib. Onun işdən azad olunmasına işinə məsuliyyətsiz yanaşması, vergi orqanları adından müəyyən işləri görməsi səbəb olub. Həmçinin, icra başçısının qardaşı oğlu içki, eyş-işrət məclislərində daha çox vaxt keçirirmiş. V.İsgəndərovun narkotik və psixotrop maddələrə aludəçiliyi də olub və bütün bunlar onun karyerasına son qoyub. Onun bu cür həyat tərzi əmisi Xaləddin İsgəndərovla münasibətlərini bir ara pisləşdirib".

Məktubda daha sonra yazılır: "Xaləddin İsgəndərovun yanında digər qohumu - bacısı oğlu Araz da işləyir. O, X.İsgəndərovun həm sürücüsüdür, həm də digər işlərlə məşğul olur. Xaləddin İsgəndərov bütün qeyri-qanuni işləri ən yaxın adamlarına gördürür ki, kənara informasiya çıxmasın. Onların hamisi icra hakimiyyətində qeyri-rəsmi şəkildə işləyir və Binəqədini öz müəssisələri kimi istifadə edirlər".

Məktubdakı məlumatlardan görünür ki, müəllif iç adamdır. Həm Xaləddin İsgəndərovu yaxşı tanıyır, həm də onun əməlləri barədə kifayət qədər məlumatlıdır. Bəlkə də bu məktubu redaksiyaya yollayan adam X.İsgəndərovun ən yaxın qohumlarındandır, kim bilir... Hazırda redaksiyada bir neçə bu tip məktublar var. Zamanı gəldikcə həmin məktublardakı məlumatları ictimailəşdirəcəyik.

Yazıda adları çəkilən bütün şəxslərin mövqeyini dərc etməyə hazırıq.

❑ **İnformasiya şöbəsi**

# Deputatın polis oğlu barədə ilginc iddialar

### Fırıldaqçı dəstə barədə DİN-ə və prokurorluğa müraciət hazırlanır...

**Maşın bazarı və digər salonlarda, küçələrdə satılan ikinci əl avtomobillərin sayğacının geri çəkilməsi faktları az deyil. Burada maşın alan şəxslər avtomobili satan tərəfindən aldadılır ki, guya satılan maşın az istismar edilib. Və beləliklə, maşını dəyərindən baha satmağa nail olurlar.**


İmamverdi İsmayılov


Eyyub Hüseynov

Çox maraqlıdır, bu dəfə aldadılan şəxs sıradan biri yox, alıcıların hüquqlarının müdafiəsi ilə məşğul olan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov olub. Onu aldadan isə deputat İmamverdi İsmayılovun oğlu İlkin İsmayılovdur.

Hadisə bu ilin sentyabrında baş verib. Bu barədə analitik.az-a açıqlama verən E.Hüseynov bildirib ki, rəhbərlik etdiyi təşkilata ictimai məqsədlər üçün avtomobil lazım olub: "Bakıdakı maşın bazarından 2-ci əl (işlənmiş) avtomobili aldıq. AİB üçün alınan KİA Sorento markalı avtomobilin buraxılış ili 2010-cu il, yürüşü 51000 km göstərilmişdi. Əvvəlki dövlət nömrə nişanı 90 FP 888 olan maşının öncəki sahibi Sumqayıt yol polisində çalışan İlkin İsmayılovdur. Avtomobili alan zaman göstərilən yürüşə uyğun olmaması bizim ekspertlərin diqqətini cəlb etmişdi. Amma satan adamın cidiliyinə inanıb maşını aldıq. Sonra isə mühərrikinin yağ "yeməsi" və sairə amillərə görə KİA servisin mərkəzi ofisinə müraciət etdik. Orda məlum oldu ki, 90 FP 888 nömrə nişanlı avtomobil 14.10.2013-cü ildə servisdə 105800 km yürüşlə qeydiyyatda olub və onun üzərində çoxsaylı detal dəyişmə işləri aparılıb. Bu barədə KİA servis AİB-ə kompuster açıqlaması təqdim etdi".

AİB sədri E.Hüseynov bundan sonra maşının ilkin sahibi, Milli Məclisin üzvü İmamverdi İsmayılovun oğlu, yol polisində çalışan İlkin İsmayılova zəng edib, vəziyyəti bildirmək istəsə də, deputat oğlu zənglərə cavab verməyib: "Uzun zənglərdən sonra telefona cavab verən xanım, İlkinə bizim telefon nömrəmizi verəcəyini vəd etsə də, İlkin İsmayılov bizimlə əlaqə saxlamadı. Bundan sonra bu avtomobili bizə tərifləyib satan makler Zahid Şirinovu axtardıq. "Namaz qılıram, Qurana and olsun ki, yürüş geri çəkilməyib" deyə and içən Zahid Şirinov özünün bundan xəbərsizliyini, işinin maşını satmaqdan ibarət olmasını söylədi. Biz ona danışıq yolu ilə avtomobilin geri qaytarılıb, pulunun təşkilata verilməsini bildirəndə isə, çıxış yolunu yenə də yalvarmaqda və and içməkdə gördü".

Eyyub Hüseynov onu da vurğulayıb ki, məsələnin ciddi olduğunu bilən İlkin İmamverdiyev, sonradan qurumun Sumqayıt nümayəndəliyinin sədrinin telefonu ilə Eyyub müəllimə zəng edərək, bu işlərdən xəbəri olmadığını deyib. Amma fakt faktlığında qalır ki, deputat oğlunun maşını üzərində əməliyyat aparılaraq, digər şəxsi aldatmaq yolu ilə dəyərindən baha qiymətə satılıb.

Onu da qeyd edək ki, Azad İstehlakçılar Birliyi aldadılma faktı ilə bağlı avtomobil alverçisi, deputatın polis oğlu, yürüşü geri çəkən avtomobil ustasının ifşa olunub, cəzalandırılması üçün daxili işlər naziri Ramil Usubova və baş prokuror Zakir Qaralova müraciət etməyə hazırlaşır. Eyni zamanda maşın bazarında mövcud olan belə fırıldaq əməllərə qarşı mübarizə aparmaq məqsədilə tədbirlər həyata keçirmək niyyətindədir.

# Nifrətin ifrat həddi



Xalid KAZIMLI

**Biz ermənilərə kütləvi şəkildə nifrət edirik. Onlar da bizə daha kütləvi şəkildə nifrət bəsləyirlər. Xırda-para, bir-iki faizlik istisnalar ola bilər. Məsələn, ola bilər ki, onların yüksək intellektli kəsimində bizə nifrət edənlər olmasın. Eyni zamanda mümkündür və yüz faiz belədir ki, bizdə də ermənilərə nifrətlə yanaşmayanlar var.**

Ancaq istisnalar ümumi qaydanı dəyişmir. Qonşu xalqla bizim hazırkı münasibətimiz dəruni nifrət üzərində bərqərardır və bunun köklü səbəbləri var: müharibə, torpaq davası, hərbi cinayətlər, işğal, haqsız iddialar, qırğınlar və sair.

Yəni prinsipcə, bu iki xalqın münasibəti indikindən yaxşı ola bilməz. Çünki müharibə başa çatmayıb, münaqişə tənzimlənməyib, düşmənçiliyin vurduğu yaralar qaysaqlamayıb.

İki dövlət arasında başlanmış və bir neçə il davam etmiş qanlı müharibədə atəşkəs sazişinin imzalanmasından keçən bu 20 ildə dostluğa, sülhə doğru nəinki bir addım yaxınlaşma yoxdur, hətta qarşılıqlı nifrət müharibənin ən qızğın çağında olduğundan artıqdır.

Bizim üçün uzaq Avstraliyada, Çilidə, Kanadada doğulmuş erməni millətinə mənsub olan istənilən fərdlə "DQR"-in hərbi birləşməsinin giziri arasında heç bir fərq yoxdur. Hesab edirik ki, əlmizə düşdüyü təqdirdə onların hər ikisi cəzalandırılmalıdır. Nəyə görə? Sadəcə, ona görə ki, bu adam ermənidir. Bəlkə o erməni heç başqa ölkədə doğulub-böyüdüyünə görə ana dilində danışa da bilmir, milli kimliyini tamamilə unudub, dəxli yoxdur, o unudubsa da, biz unutmamışıq, soyadındakı "yan" şəkilçisi kifayətdir ki, adamı tutub yandıraq.

Ermənilər də bizə qarşı elədir. Hətta daha betərdirlər. Onlar uzaq tarixdə baş verənlərin qisas hissi ilə yaşayırlar, biz yaxın tarixdə ermənilər tərəfindən başımıza gətirilənlərin revanşını almaq istəyirik.

Təxminən 10-12 il öncə vüsət götürmüş, bir neçə il öncəyədək davam etmiş "xalq diplomatiyası" təşəbbüsü ona görə iflasa uğradı ki, hər iki xalq bir-birinə bəslədiyi dərin nifrət hissini yenə bilmədilər. Bu işə böyük dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar qarışmışdı, hər iki dövlətin rəhbərləri "xalq diplomatiyası"na razılıq vermişdilər, ziyalılardan, yüksək ranqlı məmurlardan ibarət nümayəndə heyətləri qarşılıqlı səfərlər də etmişdilər... Amma alınmadı. Dostluğu süni şəkildə bərpa etmək mümkün olmadı.

Sübut olundu ki, yuxarıdan təzyiqlə dostluq bərqərar oluna bilməz və düşmənçilik davam edəcək.

Bu gün ermənilərlə bizim aramızdakı münasibət tam bir boykot havasındadır. Biz ermənilərin qatıldığı hansısa tədbirdə iştirak etmək istəmirik, ölkəmizdə düzənlənən hansısa beynəlxalq məclisdə də onların olmamasını arzu edirik. Hansısa restoranda erməni musiqisi çalınırsa, durub etirazımızı bildiririk. Məsələn, bu günlərdə "Mado" türk restoranında erməni mahnısı səsləndirilib və müştərilər buna etiraz bildirərək restoran adminstrasiyasından mahnının dayandırılmasını və repertuartdan kənarlaşdırılmasını tələb ediblər.

Bu, artıq nifrətin ifrat həddidir. Sabah hansısa bir Hollivud filmində erməni aktyor rol alsa, nə edəcəyik, o filmə baxmaqdan imtina edəcəyikmi? Onda gərək "Eurovision"da Ermənistan təmsilçisinin çıxışı zamanı da kütləvi şəkildə televizorları söndürək.

Bu günlərdə bir erməni ziyalısı yazıçı Günel Mövluda müsahibəsi zamanı deyib ki, azərbaycanlılar, siz də artıq ermənilər kimi olmusunuz.

Çox dəqiq müşahidədir. Biz düşmənə kütləvi nifrət məsələsində artıq ermənilərlə tən olarıq. Neçə ildir ki, "Dinsizin öhdəsindən imansız gələr" kəlamınn hikmətiylə hərəkət edirik və Allah tərəfi bu effekt verir. Ermənilər artıq daşın qayaya rast gəldiyini hiss edirlər.

Bu cür hərəkətlər etmək üçün bizdə əsaslar da var: 20 faiz ərazimiz işğaldadır, qaçqın-köçkünlərimizin sayı isə artıq yuvarlaqlaşdırmasaq da, 1 milyondur, erməni gəncləri Şuşada, Zəngilanda şəkil çəkdirib sosial şəbəkədə təhrikçi paylaşmalar edirlər və s.

Cəbhə xəttində vurulan helikopter vaqiəsi qarşılıqlı nifrəti daha da alovlandırıb. Baxın, həlak olan pilotlardan birinin üç oğlu ilə birlikdə şəkli yayılıb. Bu, erməni yox, istənilən başqa bir millətin oğlu olsa, biz də ona acıyardıq. Amma o, düşməndir, acımırıq, sevinirik. O bir rus pilotu, biz isə ukraynalı olsaydıq, bir düşmənimizin azalmasına görə yenə sevinərdik.

Müharibə budur: o, insanların mərhəmət hissini öldürür, nifrətini şiddətləndirir, milyonlarla insanın həyatını puç edir.

Qarabağda müharibə salanlara dönə-dönə lənətlər olsun!

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



# Kəlbəcər girovlarını qaytarmaq şansı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Hələ ki, Ağdam səmasında vurulan vertolyot olayından ciddi hadisə yoxdur bizim üçün. Ancaq bu hadisədən sonra biz əvvəlkindən onqat ayıq olmalıyıq. Unutmayaq ki, düşmən ötən illər boyu bizə çox acılar yaşadıb, Qərbi Azərbaycan müsibətləri, Qarabağda baş verənlər, Xocalı soyqırımı, daha nələr...**

Düz 23 il əvvəl 20 noyabrda Qarakənd yaxınlığında Mİ-8 vertolyotunu vurdular, Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər - Milli Məclisin deputatı, dövlət xadimləri, hökumət nümayəndələri, jurnalistlər, hərbçilər həlak oldu. 1992-ci ilin 28 yanvarında Ağdam-Şuşa mülki vertolyotunun vurulmasını, əksəriyyəti qadın və uşaq olan 41 nəfərin, 3 ekipaj üzvünün həlak olmasını unutmamışıq.

Erməni politoloq Levon Şirinyan "Azərbaycanı cəzalandırmaq üçün bu ölkənin kommunikasiyalarına zərbə endirilsin" deyib. Düşmən hər cür şərəfsizliyə əl ata bilər. Unutmayaq ki, Bakı 30 mindən çox erməninin yaşadığı şəhərdir. 1994-cü ilin 19 martında və 3 iyulunda Bakı metropolitenində törədilən teraktlar da faktdır. 1992-ci ilin 8 yanvarında "Krasnovodsk-Bakı" sərnişin bərəsini partladan, 25 nəfərin ölümünə, 88 nəfərin yaralanmasına bais olan da erməni terrorçuları idi. Azərbaycan adına nə varsa, bu günlər daha möhkəm qorunmalıdır.

Ermənistan tərəf Azərbaycan tərəfindən vurulan helikopterin üç pilotunun cəsədlərinin qaytarılması məsələsində vasitəçi qismində çıxış etmək üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinə müraciət edib. Separatçıların "müdafiə ordusunun" komandiri Akopyan deyib ki, helikopter cəbhə xətti yaxınlığında vurulduğuna görə, Ermənistan tərəfi cəsədləri götürə bilmir.

Torpağıma bomba yağdıran şərəfsizlərin cəsədlərinə dəf olunmaq haram edilməlidir. Məncə, Azərbaycan tərəfi bu dəfə ürəyinə daş bağlamalı, heç bir humanizm-filan nağıllarına məhəl qoymamalıdır. Söhbət beynəlxalq konvensiyalardan gedirsə, birinci buna Ermənistan əməl etsin. Azərbaycan Xocalı aeroportu ilə bağlı təxribatlara start veriləndə bəyan etmişdi ki, hava məkanına qanunsuz daxil olan obyektlər dərhal məhv ediləcək. Artıq siftə var, məhv edilib. Bu prinsipiallığın davamı da gəlməlidir. Bu arada erməni mediası "silahsız" dedikləri vertolyotun Ağdam xarabalıqlarına mərmi yağdırdığı videokadrları yaymaqla əslində faydamıza işlədi.

Ali Baş Komandanın məhz bu hadisənin ardınca cəbhə bölgəsinə səfər edərək silahlı qüvvələrimizin bundan sonra da düşmənin hər hansı bir təxribatına layiqli cavab veriləcəyini bəyan etməsi tam yerinə düşdü. Rəsmi Bakı beynəlxalq təşkilatların çağırışlarının qarşısında doğru arqumentlə çıxış edir: "Erməni vertolyotunun Ağdam üzərində nə işi vardı ki, vurulsun?!" Hücum diplomatiyası davam etdirilməlidir. Eyni zamanda vertolyotun qalıqlarına baxış keçirmək istəyən ATƏT-in şəxsi nümayəndəsi Anji Kasprşikə sual edilməlidir: "Cənab Kasprşik, nədən ötən 4 ayda bir dəfə də olsun Xankəndindəki Kəlbəcər girovlarına baş çəkmək ağlına gəlmədiyi halda, indi erməni terrorçularının cəsədlərinə baxmaq istəyirsən?!"

Həmçinin bu məsələdə vasitəçi olan Beynəlxalq Qızıl Xaç Komitəsinin cəsədlərin götürülməsinə imkan yaradılması barədə xahişinə "YOX" deyilməlidir. Cəsədlər bir şərtlə götürülə bilər: Xankəndində qanunsuz "mühakimə" edilən Dilqəm Əsgərov və Şahbaz Quliyev qaytarılan gün!!! Biz Kəlbəcərdə qətlə yetirilən cəbrayıllı qardaşımız Həsən Həsənovun meyitinin aylarla düşmən tapdağında qaldığını unutmamışıq. Elə isə cəsədləri qaytarmağa tələsməyək. Qoy beynəlxalq təşkilatlar 2 vətəndaşımızı bizə qaytarsın, əvəzində cəsədlərini götürsünlər...

Akif Nağı və Qarabağ Azadlıq Təşkilatı girovlarla bağlı beynəlxalq təşkilatları hərəkətə gətirmək üçün aclıq aksiyasına başlayıb. Eşq olsun, girovlarımızın qaytarılması üçün bütün mümkün vasitələrdən istifadə etməliyik. Ancaq inanmıram ki, bizim ac-susuz qalmağımız tut arağına öyrəncəli həmsədrləri təsirləndirəcək. Erməninin burnu qanayanda dərhal reaksiya verən Amerika və Avropa Xankəndində girov saxlanılanların taleyinə biganə qalıb.

Vurulan vertolyot bizim girovları qaytarmaq üçün şansımızdır. Azərbaycan cəsədlərin götürülməsinə imkan verməsə, erməni ictimaiyyəti də günahsız Kəlbəcər girovlarını qaytarmaq üçün Sərkisyana təzyiq edəcək. Üstəlik də, erməninin ən böyük dayağının başı özünə qarışıb, heç vertolyot olayına da reaksiya verə bilmədi, rus ayısını "qış yuxusu" basıb. Şansımızı dəyərləndirək!

---

**"Yaxın 2 il Azərbaycan üçün yetərincə ağır olacaq". Bu sözləri Minval.az saytına müsahibəsində politoloq Eldar Namazov deyib.**

# "Azərbaycanı qarşıda iki gərgin il gözləyir..."

## Eldar Namazov Qarabağ məsələsində status-kvonun dəyişdirilməsinin zamanı çatdığını deyir

Azərbaycanın ən böyük problemi olan ərazilərin işğal edilməsi məsələsindən danışan E.Namazov deyib ki, konfliktin mərhələli nizamlanmasından başqa çözüm yoxdur: "İllər sonra biz yenidən bu gerçəyə qayıdırıq. İki il öncə məndən Azərbaycan üçün ən böyük təhlükə nədir deyə soruşanda mən Qarabağ konfliktini, ərazi işğalının davam etməsini, hərbi əməliyyatların yenidən başlamasını göstərirdim. Digər təhlükələr ikinci dərəcəli kimi görünürdü".

Yaxın coğrafiyadakı proseslər haqqında danışan Eldar Namazov deyib ki, postsovet məkanındakı ölkələr içərisində ən ağır durumda olanı Ukraynadır: "Həm çətinliyinə, həm də miqyasına görə bu gün Ukraynada çox böyük problemlər var. Ukraynadakı böhran dünyanın iqtisadi sisteminə də təsir edir. Rusiyanın iqtisadi imkanlarının zəiflədilməsi üçün neftin qiymətlərinin aşağı salınması əsas gəlirlər neft və qazdan olan bir sıra ölkələrin, o sıradan Azərbaycanın iqtisadi gələcəyini təhlükə altında qoyur. Azərbaycanın neft-qaz gəlirlərindən asılılığı Rusiya və İranın asılılığından daha çoxdur. Azərbaycandakı duruma İranın neft-qaz bazarına daxil olması da ciddi təsir edə bilər. Bu halda neftin qiymətləri bir qədər də aşağı düşə bilər. O da nəzərə alınmalıdır ki, İranın qaz ehtiyatlarını satmaq istədiyi Avropa Birliyi ilə birbaşa sərhədləri yoxdur. Əgər İran öz ehtiyatlarını Avropa bazarlarına çıxarmaq üçün Ermənistandan tranzit ölkə kimi yararlanmağa başlasa, bunun Azərbaycana da təsiri olacaq".



Eldar Namazov

Eldar Namazovun sözlərinə görə, yaxın 2 il Azərbaycan üçün beynəlxalq miqyasda tazrazlığı qoruyub saxlamaq üçün gərgin dönəm olacaq: "Risklər və təhlükələr davamlı olaraq çoxalmaqdadır. Azərbaycan eyni zamanda 3-4 xarici təhlükə ilə üz-üzə qala bilər. Belə durumlarda təslimçilik mövqeyi tutmaq yox, hansı riskləri adlamağın, hansıların azaldılmasının mümkünlüyü haqqında düşünmək gərəkdir. Bütün hallarda qarşıdakı 2 il son dərəcə gərgin keçəcək. Xüsusən Qarabağ məsələsində. Buna qədər heç vaxt prinsiplər paketinə Qarabağın statusunun müəyyən edilməsi mexanizmi olaraq referendumun saxlanması prinsipi qəbul edilməmişdi. Ancaq bu dəfə Azərbaycan buna razılıq verib. Madrid prinsipləri üzrə danışıqlar prosesi gec-tez dirənəcək. Dirəniş nöqtəsi isə referendumun nə zaman keçirilməsi məsələsi olacaq. Bu sualın cavabı isə hələ də yoxdur. Azərbaycanlıların Ermənistandan deportasiya edilməsi ideyası hər iki ölkədə eyni vaxtda referendum keçirilməsi ilə bağlı idi. Akademik Saxarovun yanaşmasını hər iki tərəf eyni cür qarşılamışdı. Ancaq Saxarov bu ideyanı İrəvanda səsləndirəndən 10 gün sonra azərbaycanlıların Ermənistandan total deportasiyası başlandı. Bu onun üçün idi ki, Kreml referenduma icazə versə, azərbaycanlılar Ermənistanda referenduma qatıla bilməsinlər. 1997-ci ildə Heydər Əliyevlə Levon Ter-Petrosyan münaqişənin mərhələli nizamlanmasına razılıq vermişdilər. Hətta Azərbaycan müxalifəti də bu variantla razı idi. Ancaq Ermənistanda buna görə dövlət çevrilişi oldu. İndi üstündən 17 il keçəndən sonra biz yenidən həmin gerçəyə qayıdırıq ki, bu konfliktin mərhələli nizamlanmadan başqa yolu yoxdur. 3 yol var - savaş, münaqişənin dondurulması, ya da mərhələli nizamlanma. Dördüncü yol yoxdur. Azərbaycanın bu sənədi imzalamasının bir məqsədi var - biz status-kvonun bundan artıq saxlanmasını istəmirik. İndi durum o qədər həssasdır ki, tərəflərdən birinin istənilən ehtiyatsızlığı hərbi əməliyyatların bərpasına səbəb ola bilər".

Politoloq deyir ki, münaqişənin nizamlanmasında məğlub tərəf kimi Azərbaycan daha çox maraqlıdır: "20 illik danışıqlarda heç bir irəliləyiş yoxdur. Bunu normal qəbul etmək mümkün deyil. Rusiyanın regiondakı duruma Ermənistan vasitəsilə təsir etmək imkanları və rıçaqları yetərincədir. Oktyabrın 27-də Azərbaycan və Ermənistan dövlət başçılarının Paris görüşündə Minsk qrupu həmsədrləri status-kvonun dəyişdirilməsinin vacibliyini açıq dedilər, sülh sazişi üzərində işləməyə çağırış etdilər. İrəvandan fərqli olaraq Azərbaycan bu çağırışı dəstəkləyir. Ermənistanın bu çağırışı dəstəkləməməsini Paris görüşündən 10 gün sonra işğal edilən Azərbaycan torpaqlarında hərbi təlimlər başlaması sübut edir. Bu təlimlər Azərbaycana güc nümayişi, eyni zamanda, provokasiya idi. İkinci provokasiya isə hərbi helikopterlərin Azərbaycan hava məkanına çıxarılması oldu. İndi Ermənistan helikopterin qalıqlarına da yaxınlaşa bilmir".

❑ Hazırladı: Aygün MURADXANLI

---

# Amerikadan helikopter hadisəsinə maraqlı reaksiya

## Elxan Mehdiyev: "Azərbaycan bircə dəfə Ağdamda keçirilən hərbi paradlara hərbi müdaxilə etsəydi..."

**Hazırda ABŞ-ın Missuri ştatının Kansas şəhərində olan konfliktoloq Elxan Mehdiyev Ermənistan hərbi vertolyotunun noyabrın 12-də Ağdam səmasında məhv edilməsi faktını "Yeni Müsavat"a şərh edib. E.Mehdiyevin sözlərinə görə, videokadrlar göstərir ki, bu, sadəcə, ön postda olan əsgərlərin özlərinin verdiyi qərardır:**

"İlkin Muradov öz görməli işini görüb. Ancaq kənardan baxanda həm XİN, həm də Müdafiə Nazirliyi (MN) İlkin kimi sərrast nöqtəyə yox, daha çox boşa atırlar. MN mətbuat katibi lakonik surətdə dövlətin 3 cümləlik mövqeyini bildirmək əvəzinə, ürəyindən keçən söhbətləri edir. Avqust ayındakı bərbad durum yenə təkrarlanır. XİN-də yeni mətbuat katibi əvvəlkindən çox irəlidə olsa da, yenə bəyanatlarda pərakəndəlik hökm sürür. Hər iki nazirliyin açıqlamaları sanki suçluluq qavrayışı üzərində qurulub..."

E.Mehdiyev hesab edir ki, "bəlkə də bu məkan uçuşa bağlıdır" ifadəsi yüz izahata dəyər: "Məncə, Rusiyadakı səfir P.Bülbüloğlunun dəyərləndirmələri həm XİN, həm də MN-dən dəfələrlə üstündür". Konfliktoloqa görə, erməni tərəf inanılmaz dərəcədə acıqlıdır: "Ona görə acıqlıdır ki, ilk dəfədir ki, onun işğal zonasında keçirdiyi təlimlərə, paradlara müdaxilə edilib. Çünki heç vaxt Azərbaycan tərəfdən heç bir təhlükə hiss etməyib. İşğal etdiyi torpaqları özününkü sayır. Vurulan vertolyotu da öz ərazisində vurulan sayır. Bu baxımdan onlar qisas üçün planlar hazırlayıb və bu daha çox Azərbaycanın təyyarəsini vurmaq və ya posta hücum edib çoxlu sayda əsgər öldürmək planları üzərindədir. Onlar psixoloji üstünlüyü əldən vermək istəmirlər. Azərbaycan ordusunun sayıqlığı birə-yüz artmalıdır".

E.Mehdiyevin qənaətincə, erməni tərəfinin bu cür özünü aparması cəzasızlıqdan irəli gəlir: "Xankəndində keçirilən



Elxan Mehdiyev

ən müasir silahların nümayiş etdirildiyi paradlar, işğal ərazisində keçirilən təlimlər və Azərbaycanı mənəvi cəhətdən çökdürmək üçün Ağdamda keçirilən hərbi paradlara əgər Azərbaycan bir dəfə hərbi müdaxilə etsəydi və ya oradakı hərbi cinayətkarları bir-bir dənləsəydi, bu halla, əlbəttə, üzləşməzdik və erməni, işğal ərazisində heç bir təlim keçirməzdi. Digər tərəfdən, bu məsələləri Minsk Qrupu həmsədrlərinin gündəliyinə salsaydı, bu hallar və məskunlaşma siyasəti olmazdı. Aeroport məsələsində tutulan mövqe burada niyə tutulmur?"

Beynəlxalq birliyin reaksiyasına gəldikdə, E.Mehdiyev bunları bildirdi: "Ən alçaq hərəkət edən yenə Minsk Qrupu həmsədrləridir. Onların bəyanatları yenə naqis və təxribat xarakterlidir. İstər ABŞ Dövlət Departamenti, yaxud Avropa Birliyinin institutları olsun, hamısı status-kvonu qəbul edərək hərəkət edir və ermənilərə toxunmayan bir dili əks etdirir. Bu dil bir İsrail-Fələstin və son illər də Ermənistan-Azərbaycan münaqişəsinə tətbiq olunur. Ona görə də Azərbaycan özünün siyasətini suçlu kimi yox, əksinə, hücum formasında qurmalıdır. Görünən odur ki, sanki Azərbaycanın dili, ağzı yoxdur. Torpaqları işğal edilib, on minlərlə insanı öldürülüb, yüz minlərlə insanları 20 ildir evlərindən qovulub, evləri yandırılıb, indi də düşmən oranı özününküləşdirib və oranı təlim meydanına çevirib, Azərbaycan əsgəri təlim keçən vertolyotu vurub və beynəlxalq birlik bunu da etməməyə çağırırsa, demək Azərbaycanı təslim olmağa çağırır. Bu birliyə apardığı sülh prosesində kim dinc yolla torpaqların azad olmasına inanar? İnanan varsa, o adam ölünün dirilməsinə inanır..."

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



# "...Gərək Amerikada doğulaydım"

## Hikmət Hacızadə: "7-8 nəfər evdə yığışdıq, yedik-içdik, sağlıq dedik, çaldıq, oxuduq, oynadıq, bu, kifayətdir, nə yubiley?"



**"Baxış bucağı"**

**Nikbinliyi ilə ölkədəki azsaylı tanınmışlardan biri olan, hətta ən çətin situasiyalarda belə "qəm yeməyin, mənəvi qələbə bizimdir" deyib düşərgəyə təskinlik verən Hikmət Hacızadə ömrünün 60-nı adladı. Azərbaycanın milli azadlıq hərəkatının nümayəndələrindən, Xalq Cəbhəsini yaradanlardan biri, Elçibəy hakimiyyəti dönəmində Rusiyadakı səfirimiz olan Hikmət bəyin ümidsizliyi o həddə çatdı ki, bu günlərdə sensasion qərar verərək qarşı duran tərəflər arasında barışa nail ola bilmədiyindən Müsavat Partiyasında fəaliyyətini dondurduğunu bəyan etdi. Yubiley söhbətində onunla çox məsələlərdən danışdıq. Zarafata dedi ki, 12 noyabrda düşmən vertolyotunun əsgərlər tərəfindən vurulması ilə onun yubileyi arasında "əlaqə" var: "Məncə, bu, mənim yubileyimə hədiyyə idi". Elə ordumuzun hədiyyəsi ilə başladıq yubiley müsahibəsinə:**

- Bu hadisə mənimçün çox da gözlənilməz olmadı. Çünki təmas xəttində daim insidentlər olur. Gah kimsə minaya düşür, gah mülki şəxslər vurulur, yaxud kəşfiyyat qrupu hərəkətə keçir. Bu dəfə də vertolyot gəldi, bizimkilər vurdular. Sadəcə ermənilərin vertolyotları onsuz da az idi, onun da birini vurduq. Beynəlxalq səviyyədə Azərbaycana təzyiq-filan gözləmirəm.

Sülh çağırışları gəldi və səngidi. Beynəlxalq aləm Ukrayna ilə məşğuldur, hər tərəfdən 5 min adam qırılıb, tanklar ora-bura şütüyür. Bir vertolyota görə kim tərpənəcək? Qərbin bura girişməyə gücü yoxdur. Ona görə də uzaqdan bəyanat göndərirlər. Moskvanın da taleyi Ukraynada həll olunur, ora daha diqqətli fikir vermək lazımdır.

***- Demək Rusiyanın Ukraynada dalana dirənməsi Azərbaycanın birmənalı faydasınadır?***

- Bəli, qoy başı qarışsın orda. Hələ Rusiyanın sabahı bilinmir. Sabah bəlkə Rusiya çökəcək, onda bu, bizim üçün çox faydalı olacaq. Biz Ermənistandan üç dəfə güclüyük, onda bizim həm danışıqlarda, həm hərbdə imkanlarımız xeyli artıq olacaq.

Hələ ki rusun başı qarışmayıb, gücü var. Ermənistandakı Rusiya bazalarında əsgəri var və onlar yetərlidir. Amma elə an gələ bilər ki, Rusiya dağılmağa başlayacaq. Necə ki, 90-cı illərdə bu proses başlamışdı. Həmin proses təkrarlana bilər.

***- Erməni tərəf Azərbaycanın kommunikasiyalarına zərbə ilə hədələyir. Buna cəsarət edə bilərlər?***

- Bu, çox çətin sualdır. Hansısa terror aktına əl ata bilərlər. Amma bu, artıq situasiyanın kəskin dərəcədə dəyişməsi demək olar. Əgər erməni bizim kommunikasiyaları partladacaqsa, Azərbaycan da elə-belə durmayacaq, kəşfiyyatlımız hərəkətə keçəcək, bizim də uçaqlarımız var, gedib Ermənistanın şəhərlərini bombalayacağıq. Ümid edirəm ki, Ermənistan rəhbərliyi ona getməyəcək. Amma hazır olmaq lazımdır, kommunikasiyalara nəzarət gücləndirilməlidir. Ermənilər qisasa əl ata bilərlər.

***- Vertolyot hadisəsi dünyanın diqqətini Qarabağ məsələsinin həllinə yönəldəcəkmi?***

- Başa düşmək lazımdır ki, bu, bizim ürəyimizdə böyük hadisədir. Amma dünyada böyük hadisə deyil. Hamımızın ürəyimizdə Azərbaycan mərkəzçiliyi var. Bizə elə gəlir ki, dünyada nə baş verirsə, bizə görə baş verir. Amma elə deyil, bir vertolyot hələ heç nə demək deyil. Bir vertolyotla müharibə olmur. (gülür)

***- Ölkənin siyasi gündəmi barədə fikirlərinizi bilmək istərdim. Müxalifət təmsilçilərinin müraciətinə Əli Həsənovun reaksiyası oldu və hakimiyyətin dialoqa hazır olduğu vurğulandı. Bu mövqeni yeni mərhələnin başlanğıcı saymaq olarmı?***

- Hələ ki, bir şey görünmür. Qoy heç olmasa ilk görüş olsun. Bundan əvvəl də belə şeylər eşitmişik. Hansısa tərəf dialoqa çağırıb, sonra ya dialoq yaddan çıxıb, ya boşuna oturublar. Kimsə elə düzüb-qoşub ki, müxalifətdən başqa hansısa qondarma partiyalar da gəlsin, ondan sonra bir şey alınmayıb.

Belə məsələlərdə təcrübəmiz var da. Amma mən dialoq təklifini dəstəkləyirəm, baş tutsa, çox yaxşı olar.

***- Dialoq üçün hansı mövzunu təklif edərdiniz?***

- Əsas problem seçki komissiyaları, seçki qanunvericiliyidir. Hökumət hansısa xoş məram göstərməlidir, onun siyasi iradəsində nəsə dəyişməlidir. Yoxsa əvvəlcədən Prezident Administrasiyasında bütün siyahılar hazırlanır, sonra da o siyahılarla bağlı seçkinin axşamı elan eşidirik ki, filankəs uduzdu. Bizdə azad seçici qalmayıb, bütün əhalini onluqlara, yüzlüklərə bölüklərə bölürlər. Əsgər kimi yerindən qaldırıb aparırlar məntəqəyə, qaytarırlar geri. Seçicinin qəlbi uğrunda mübarizə də mümkün deyil, çünki seçici yoxdur. Azərbaycan insanı o yüksək idarə səviyyəsinə gətirilib - robot olub, on-on, yüz-yüz siyahıya düşüb. Xüsusilə rayonlarda. Əgər bu sahədə dəyişiklik olacaqsa, onda nəsə etmək olar. Yoxsa sonra "dialoq istəyirdilər, onu da keçirtdik" demək nəyə gərəkdir?

***- Amma dialoq məsələsi bu gün sanki bütöv cəmiyyətin bəlasına çevrilib. Hətta partiyaiçi dialoq da baş tutmur. Necə ki, siz uzun müddətdir Müsavat daxilində buna nail olmaq istəyirsiniz, alınmır...***

- O da düzdür, vəziyyət yaxşı deyil. Cəmiyyət bu günə düşüb, ümumiyyətlə, leş olmuşuq...

***- Deyəsən, siz moratorium, dialoq çağırışlarınızın nəticə verməməsindən sonra əllərinizi qaldırıb təslim oldunuz.***

- Yox, mən mübarizəni davam edirəm. İstəyirəm ki, hansısa ağıllı bir yol tapaq. Mən davam edirəm. Düzdür, hələ ki, alınmır, amma axıra qədər durmuşam.

***- Müsavatdakı fəaliyyətinizi dondurduğunuz bu günlərdə özünüzü necə hiss edirsiniz?***

- Bu barədə danışmaq istəmirəm. Belə söhbətləri qəzetdə eləmək yaxşı deyil. Partiyaiçi məsələ olduğu üçün mən bu barədə danışmaq istəmirəm. İkincisi də, mən bəyanatımda fəaliyyətimi nəyə görə dondurduğumu göstərmişəm. O məsələlər həll olunsa, mən fəaliyyətimi bərpa edəcəyəm. Amma danışmağım mənim sülh missiyama mane olacaq.

***- Siz uğura ümid edirsiniz?***

- Bəli, mən ümid edirəm və davam edəcəyəm.

***- Sizin kimi düşünənlər çoxdurmu?***

- Saymamışam, amma var elə adamlar.

***- Bir statusunuzu oxudum, yazmışdınız ki, bir-birinizi söyməkdənsə, söyüşləri mənim inboksuma yazın. Yazan oldumu?***

- Oldu, yazmışdılar. Bir ara sakitləşmişdilər. Sonra kimsə ya bəyanat verdi, ya yığıncaq keçirtdilər və söydülər, hər şey yenidən başladı.

***- Bəzi söz-söhbətlərə baxmayaraq 60 yaşınızla bağlı Müsavatın başqanı səviyyəsində yaxşı bir təbrik aldınız...***

- Çox sağ olsunlar. Mən təşəkkür edirəm.

***- Bəs yubiley tədbirləri?***

- Nə yubiley? Evdə yaxın dostlarım, qohumlarımla 7-8 nəfər yığışdıq, yedik-içdik, sağlıq dedik, çaldıq, oxuduq, oynadıq, kifayətdir. Dünyada yubiley deyilən bir tədbir yoxdur. Mən təmtəraq sevən deyiləm.

***- Bu yaşda xəyallar aləminə səyahətiniz, düşüncələrə daldığınız oldumu?***

- Bəli, bəli. Bu, mənim üçün kövrəldici bir an oldu. Ömrüm, həyat yolum hamısı gözümün qabağına gəldi. Bu həyatda mənim o qədər gözəl və faciəli anlarım oldu ki...Seçə də bilmirəm. Hamısı gəldi gözümün qabağına. Məktəb illərim, mən çox yaxşı bir məktəbdə - 134-də oxumuşam. Tələbəlik, aspirantura illərim, 20 Yanvar, bizim hakimiyyətə gəlməyimiz, ordan getməyimiz, mənim işim...hamısını xatırlayıram. Çox gözəl anlar idi. Mən çox gözəl insanlarla tanış oldum, buna görə fəxr edirəm. Ancaq ağrılı məsələlər də oldu. Oğlumu tutdular, 1,5 il özümüzə yer tapa bilmirdik. Nəsə, mübarizə ilə keçdi. Fiziki və psixoloji cəhətdən olduqca çətin idi mənim üçün. Ancaq durmuşam, görək sabah necə olur.

***- Oğlunuz Adnanı evləndirmək fikriniz yoxdur?***

- Adnan özü evlənsin, mən neyləyim, gedim indi ona qız tapım?

## "Adnan özü evlənsin, mən neyləyim, gedim indi ona qız tapım?"



Ümumən deyə bilərəm ki, ziyalı adam üçün evlənmək çox çətin şeydir. Sıradan bir adamın 18-20 yaşı olanda gedib qız tapırlar, onu görür və sonra deyir "ey həyat, sən nə qəribəsən". Mehribancasına axıra qədər yaşayırlar, heç bir Dostoyevski oxumamış, gözəl ailə qururlar. Amma ziyalı adamda nədənsə hansısa mexanizm pozulur, başlayır özünə ideal bir partnyor seçməyə. İdeal partnyor seçə bilmir, cürbəcür nöqsanlar axtarıb tapır...Yəni çox çətin məsələdir.

***- Deyəsən, başınıza gəlib...***

- Şəxsən mənim başıma gəlib. Nəinki mən, istənilən ziyalıdan soruşsan, bu seçim məsələsində çox böyük əzablar çəkdiyini danışacaq. Ancaq elə adamlar da var ki, gedib qız tapıb, evlənib və çox xoşbəxt də yaşayırlar. Sən özün meydana çıxanda isə böyük stresslərlə üzləşirsən. Məsələn, sən 20-30 yaşına qədər kitablar oxuyursan və kinolara baxırsan. Sənin qadın obrazın minimum Amerikanın kino ulduzuna bənzəyir. İstəyirsən ki, sənin də belə gözəl-göyçək və gözəl danışan adaxlın olsun. O isə yoxdur. Ona görə axtarırsan, axtarırsan, axırda deyirsən əşi, yoxdur, gəl bunu götürək. (gülür) Ümumiyyətlə, o, böyük mövzudur.

***- Hikmət bəy, sizin düşüncələrinizdə xeyli fərqli məqamlar var. Heç düşünmürsünüzmü ki, gərək Amerikada doğulaydınız?***

- Həmişə onu düşünürəm. Nəinki mən, Azərbaycanın böyük bir hissəsi düşünür ki, gərək Amerikada doğulaydım, niyə burda doğuldum, niyə vaxtında getmədim, indi qocayam... Taleyimiz budur da, nə edək?

***- 60-dan sonrakı zamanı necə yaşamaq niyyətindəsiniz?***

- Əsas cansağlığıdır. 60 yaşında adamın problemi odur ki, onun beyni, ürəyi qocalmır, amma bədəni qocalır. Ona elə gəlir ki, həmin aspirantdır, amma əslində elə deyil, dördüncü mərtəbəyə qalxmaq artıq çətindir. Ürəyində isə bunu hiss etmir. Yalnız ürəyi ağrıyanda hiss edir ki, yox, onluq deyil. Futbol oynayanda ikinci hissəyə çıxa bilmir.

***- Demək olarmı ki, siyasətdən tədricən uzaqlaşmaq xətti götürübsünüz?***

- Niyə ki? Mən elə xətt götürməmişəm. Sadəcə bizdə siyasət yoxdur, ölüb. Bizdə insan haqları mübarizəsi, dissidentlik qalıb, mənəvi mübarizə qalıb, maarifləndirmə qalıb. Mən o mənada aktivəm, sadəcə iclaslara getmirəm, çünki mənasız sayıram. Lakin mən cəmiyyətin xeyrinə xeyli güc sərf edirəm, ömrümün yarısı ordadır.

***- 2015-ci il parlament seçkilərində iddiaçı olacaqsınız?***

- Heç nə dəyişməsə, iştirak etməyəcəyəm. Keçən dəfə də iştirak etmədim. Gördüm ki, heç nə dəyişmir, niyə özümü öldürüm. Həmin komissiyalar, həmin siyahılar...Sonuncu dəfə mən Şəkidən namizəd oldum. Mənə bir dairə vermişdilər, 29 kənd vardı, hansı ki, heç maşın da getmirdi. Məhz ora getməyə ona görə razılaşdım ki, gedib babamın evini görüm. Mənim babam İncə kəndindəndir. Getdim, gəzdim, yazıq xalqın vəziyyətini gördüm, vuruşduq, siyahıda olan qutudan çıxdı, mən qaldım.

O zaman mən ümidsiz getmişdim, sadəcə babamın evini görməyə. İndi artıq görmüşəm, şəkillərini də çəkdim, daha niyə özümü öldürüm?

***- Baba yurdunu görmək üçün mütləq seçki lazım idi?***

- Ora getmək çətindir. Həm də bizlərdən orda heç kəs qalmayıb, hamı köçüb. Ancaq mənim ata-babamı tanıyan veteranlar var idi, 5-6-sı gəlmişdi, məni qucaqlayırdılar. Həm də ora çox uzaqdır, heç maşın da getmir.

***- Sonda Müsavatdan soruşum. Müsavat başqanı Arif Hacılı deyib ki, qapım açıqdır, istəyən gəlsin, oturaq, danışaq. Niyə görüşmürsünüz?***

- Mən görüşmüşəm və sülh haqqında danışmışıq. Tutar, tutar, tutmaz da mən öz borcumu yerinə yetirmişəm. Belə...

❑ **Elşad PAŞASOY**



# Şənlik mahnısı

Zamin HACI
zaminhaci@gmail.com

**Dünyanın ən şən şəhərlərini müəyyən eləmək üçün sorğu olub, birinci yeri guya Almaniyanın Berlin şəhəri tutubdur. Halbuki, biz AzTV reportajlarından bilirik ki, Almaniya dağılır, Berlin də içəridən çökür, hətta bu yaxınlarda şəhərin içindən keçən hasarın sökülməsinin 25-ci ildönümünü qeyd etdilər. Normal, şən yaşayan şəhər də içindəki hasarın sökülməsini qeyd edərdimi? Xəstədir bunlar. Hamısı ermənipərəstdir.**

Şən şəhərlər arasında Bakımızın adına heç rast gəlinmir, ancaq ilahi ədalət deyir Bakı dünyanın ən şən şəhəridir. Hətta ölkənin ən ağır vaxtlarında Bakımız öz əyləncələrindən, kefindən qalmamışdır, elə düz də etmişdir. Dünya beş gündür onsuz da, dərd çəkməyə dəyərmi? Bayaq hasar misalını nahaq yerə yazmadım, Bakımızın içindən çoxlu sayda çalın-çarpaz hasarlar keçir. Biz onları sökmürük, niyə sökək? Şən yaşayırıq onsuz da. Camaat hambal tutub bu hasarların üzərindən adaxlıbazlığa gedir.

Bakımızın şən olması çoxlu sayda nəğmələrdə də əksini tapmışdır. Gəlin onlardan birini əziz oxucularla birgə oxuyaq:

"Sən ana Xəzərimin sahilində,
Şən Bakı, şöhrətin var el dilində.
Hər axşam işıqlar yanır,
Ürəyim səni anır
Harda olsan anam-gözüm, Bakı
Ey cavan Bakı.
Mehriban Bakı.
Bax necə göy Xəzərin ləpələri
Hər səhər sahilinə nur çiləyir.
Ey şirin nəğməli şəhər,
Bəxtəvər nəşəli şəhər,
Sən şəhərlər gözəlisən Bakı".

Gördüyünüz kimi, bu mahnıda Bakının şən şəhər olması birbaşa vurğulanır, buna görə də cənab prezidentə dərin minnətdarlığımızı bildiririk. Çünki hal-hazırda Bakı bulvarı dünya bulvarları arasında uzunluğuna görə birinci də olmasa, eşitdiyimə görə ikinci yerdədir. Düzdür, mahnının axırındakı "nəşəli şəhər" ifadəsinin bir az pis yozulması mümkündür, ancaq nəyə lazımdır? Xəbis niyyətli insanlar onsuz da hər şeydə qara-qura axtarırlar. Hamısını tutub zindana salsan da yenə narazılıq edirlər. Bilmirsən ta bunlara nə lazımdır. Naşükürlər... Hökumət yeyib doyub, camaat isə ac qalıb ölmür. Belə paradokslar vardır. Mövlanə Cəlaləddin Ruminin bu mövzudakı gözəl aforizmini də yazaq, uca millətimiz daha şən olsun: "Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir!".

Oxuculardan bəzisi müəllifi sərsəmlikdə qınaya bilər, ancaq heç bir haqqınız yoxdur. Səyavuş və Fəzail 20 ildir sizin deputatdır, mənim yox. Mən ümumiyyətlə buralı deyiləm, bilmirəm göydəki Aydır, yoxsa Günəş. Noyabrın 19-21-i arası Bakıda elə bir təşkilatın iclası keçiriləcək ki, bu xəbəri oxuyan sərsəmləyər, gəl gör o iclasda oturasan... Beynəlxalq Antikorrupsiya Akademiyasının Assambleyası Bakıda keçiriləcək! İclaslara xaricdən nazirlər, məmurlar, qonaqlar çağırılıb.

Əlbəttə, Bakıda elm yoxdur, ancaq biz onun festivalını qayırdıq, bu mənada korrupsiya reytinqlərində həmişə pis yer tutan ölkəmizdə belə tədbirlər də olar. Misal üçün, iki-üç gün qabaq açıqlanan Qlobal Rüşvət İndeksinə görə Azərbaycan dünya dövlətləri arasında 140-cı yerdədir; qonşularımız Gürcüstan - 11-ci yerdə, Ermənistan isə 87-cidir - bunun qısa mənası odur ki, Azərbaycanda rüşvətsiz biznes qurmaq imkanları Gürcüstandan təxminən 14 dəfə azdır. Biz rüşvət ala-ala antirüşvət akademiyası qurmağımızı da elə şən yaşayışımızın bir isbatı kimi qəbul etməliyik. Düşmənlərin gözü çıxsın! Şən olmalıyıq hər zaman. Bir üzümüz ağlayanda, o biri üzümüz gülməlidir. Bu ikiüzlülük deyil, səmimi həyat tərzidir. Artistlik eləmək nəyə lazım? Guya biz indi burda şivən qoparıb rüşvətə nifrət elədiyimizi yazsaq, buna inanan neçə nəfər olacaq? Neçə nəfərimiz hansısa fırıq işini aşırtmaq üçün rüşvət verib, ya da verməyə hazırlaşır?

Yazını isə yenə başqa bir şən nəğmə ilə bitirirəm:

"Sən, ey doğma Bakımız,
Döyünən ürək,
Gəlmişik qucağına
Oynayaq, gülək.
Gəlin, dostlar, gəlin,
Yan-yana düzəlin".

---

**Noyabrın 12-də cəbhə xəttində Ermənistan ordusuna məxsus Mİ-24 hərbi vertolyotunun vurulmasından sonra yaranmış gərginlik davam edir. Əvvəlcə erməni tərəfi vertolyotun silahsız olduğunu iddia etsə də, qondarma "DQR-in müdafiə naziri" Movses Akopyan vertolyotun Azərbaycan ordusu mövqelərinin 20 metrliyində vurulduğunu etiraf edib.**



# "Ermənilərin qisas hədələri daxili auditoriyaya hesablanıb"

## Arzu Nağıyev: "Düşmən kəmərlərlə bağlı hər hansı addım ata bilməz..."

Bir sıra ciddi ekspertlər "vertolyot olayını" ermənilərin təxribatı hesab edir. Bildirilir ki, Ermənistan ordusu döyüş vertolyotunun Azərbaycan səngərlərinin 20 metrliyində manevr etməsi açıq-aşkar provokasiyadır, çünki istənilən halda bu qədər yaxın məsafədə hərəkət edən düşmən texnikasının Azərbaycan hərbçiləri tərəfindən vurulacağı gözlənilərdir.

Bu baxımdan təhlilçilərə görə, Ermənistan rəhbərliyinin Azərbaycan səngərləri üzərindən vertolyot uçurması qabaqcadan planlaşdırılıb. Hesab edilir ki, bununla da Ermənistan rəhbərliyi son zamanlar Azərbaycanın diplomatik cəbhədə fəallaşması, danışıqlar prosesinin aktiv mərhələyə keçməsi fonunda İrəvanı zəif mövqedən çıxarmağa çalışıb.

Azərbaycan hökuməti isə vertolyot uçuşuna sərt reaksiya verməklə güzəşt etməyə hazırlaşmadığını və hətta müharibəyə hazır olduğunu nümayiş etdirib. Bu vəziyyət isə indiki halda Bakının mövqelərini gücləndirir. Üstəlik, Ermənistan gözlədiyi beynəlxalq reaksiyanı əldə edə bilməyib - baxmayaraq ki, hazırda bir sıra erməni siyasətçiləri və ekspertlər Azərbaycana cavab verilməsi çağırışları edirlər.

Məsələn, Ermənistan parlamentinin vitse-spikeri Ermine Naqdalyan Azərbaycanın cavab atəşi alacağını deyib. Levon Şirinyan adlı politoloq isə Azərbaycanın kommunikasiyalarına zərbə endirilməsini təklif edib. Sitat: "Erməni hərbçiləri önləyici tədbirlər görməli, düşmənin təxribatını gözləməli deyillər. Azərbaycan tərəfinin hərəkətlərinə adekvat cavab kimi bu ölkənin kommunikasiya xətlərinə zərbələr də endirilə bilər".

Yada salaq ki, ötən illərdə Ermənistan xüsusi xidmət orqanlarının Azərbaycana qarşı terror və təxribatları olub. Bu mənada Ermənistanın Azərbaycandan qisas almaq üçün bu cür çağırışları ciddiyə alınmaya bilməz. Bəs bu qəbildən təhdidlər nə qədər ciddi qarşılanmalıdır?

Mövzunu "Yeni Müsavat"a şərh edən siyasi şərhçi, "Trend" Agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, ermənilərin Azərbaycana qarşı təxribatlara əl atması mümkündür. Ancaq onun fikrincə, ermənilər neft kəmərlərinə hücum etməyə cəsarət etməz: "Ermənistan vertolyotu Azərbaycan ərazisində hücum taktikası seçdiyi zaman vurulub. Hətta beynəlxalq qurumlar da bunu qəbul edir və ona görə də Azərbaycana yönəlik hansısa qınaq olmadı. Ermənilərin qisas çağırışları sadəcə publikaya hesablanıb. Ermənilərin cavab hədələri daha əvvəl də olub. Azərbaycanın neft kəmərləri dünyanın diqqətindədir, Qərb ölkələrinin təhlükəsizlik təminatı altındadır. Heç bir vaxt ermənilər kəmərlərlə bağlı hansısa addım ata bilməzlər. Onlar buna cəsarət edə bilməzlər. Ancaq başqa istiqamətlərdə təxribatlar mümkündür".


Arzu Nağıyev

Arzu Nağıyev deyir ki, erməni siyasətçi və ekspertlərinin qisas çağırışları daha çox daxili auditoriyanı sakitləşdirməyə hesablanıb: "Bunlar daha çox ictimai rəyi sakitləşdirməyə hesablanmış bəyanatlardır. Hazırda Ermənistanda ictimai rəy aşağı səviyyədədir. Azərbaycanda ruh yüksəkliyi olduğu kimi, Ermənistanda əhali arasında ruh yüksəkliyinin azalması müşahidə olunur. Ermənilər bilir ki, vertolyotun vurulması olayının birbaşa cavabdehi Bako Saakyanla Serj Sarkisyandır. Bunlar isə öz nüfuzlarını gün-gündən itirirlər. Buna görə də Ermənistan rəhbərliyi tərəfindən Azərbaycana yönəlik hədə, təhdid mesajları verilir. Müxtəlif cavab zərbələri, neft kəmərlərinin vurulması, Azərbaycana qarşı terror-təxribat, su anbarlarının vurulması və sair kimi həssas, təşviş yarada biləcək təhdidlər yağdırırlar. Ancaq indiki halda Ermənistanın Azərbaycana qarşı bu qəbildən təxribatlar həyata keçirəcəyinə risk edəcəyinə inanmıram".

Təhdidlərin yaratdığı təhlükəyə gəlincə, A.Nağıyev deyir ki, Azərbaycanın müvafiq qurumları ermənilərdən hər zaman təhlükə gözləyir və buna uyğun işini qurub: "Digər tərəfdən, Azərbaycan artıq 23 ildən çoxdur Ermənistanla müharibə şəraitindədir və bu dövrdə Ermənistandan dəfələrlə Azərbaycana qarşı terror cəhdləri olub. Yəni istənilən təxribatı Azərbaycan tərəfi hər zaman gözləyib və buna qarşı qabaqlayıcı tədbirlər görüb. Ötən müddətdə Ermənistandan terror-təxribat təhlükəsi hər zaman mövcud olub. Azərbaycan güc qurumları da buna uyğun fəaliyyətlərini qurublar. Bu baxımdan erməni hədələri yeni deyil və daha çox Ermənistan daxilinə hesablanıb".

❑ Kənan RÖVŞƏNOĞLU

---

# Sabiq MTN zabitindən vertolyot xəbərdarlığı

## "Helikopteri vuran hərbçimizin kimliyi məxfi saxlanmalı idi"

**Ötən həftə Ağdam ərazisində erməni helikopterini vuran müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olan manqa komandirinin özünün və ailəsinin video və fotoları telekanallarda, mediada, sosial şəbəkələrdə yayıldı. Müdafiə Nazirliyi ictimai ajiotajın getdikcə artdığını görərək qəhrəmanlıq göstərən hərbçimizin fotolarının yayılmaması çağırışını etdi.**

Nazirlik bəyan etdi ki, həmin şəxsin foto və videolarının sosial şəbəkələr və müxtəlif yolla yayılması düzgün deyil.

Lakin nazirlikdən bunun qarşısını almaqla bağlı hər hansı tədbirin görüləcəyi ilə bağlı heç bir məlumat verilməyib.

Bir sıra tanınmış ekspertlər də sosial şəbəkələrdə ictimaiyyətə, mediaya müraciət edərək bildirdilər ki, erməni helikopterinin kimin tərəfindən vurulması əslində hərbi sirr məsələsidir. Hər kəs bunu nəzərə alsın və hərbçimizin düşmən kəşfiyyatının hədəfinə düşməsinə kömək rolunu oynayan addımlar atmasın.

Keçmiş MTN zabiti Ərəstun Oruclu da hesab edir ki, düşmən helikopterini vuran hərbçimizin fotolarının nümayişi, onun doğulduğu və valideynlərinin, qohumlarının yaşadığı kəndin efirdə göstərilməsi yanlışdır. Nəzərə almaq lazımdır ki, Ermənistan işğalçı olmaqla yanaşı terrorçuluğu da həyata keçirən, bunu dəfələrlə sübuta yetirən dövlətdir: "Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan helikopterini zərərsizləşdirən hərbçimizin kimliyini ictimaiyyətə açıqlamaqla düşmənlə qarşı-qarşıya dayanmış və düşmənin qəzəbini qazanmış hərbçinin adını ictimailəşdirmiş oldu. Bu, yanlış idi. Ola bilər ki, nazirliyin bu barədə başqa təlimatları var və başqa cür yanaşması var. Amma faktiki olaraq gördük ki, telekanallarda, sosial şəbəkədə, saytlarda hərbçimizin şəkillərinin göstərilməsi, onun yaxınlarının göstərilməsi, kəndlərinin göstərilməsi məhz Müdafiə Nazirliyinin ad açıqlamasından sonra baş verdi. İnsanlar düşündü ki, Müdafiə Nazirliyi ad açıqladısa, deməli, olar. Mən hesab edirəm ki, belə vəziyyətlərdə məxfilik qorunmalıdır. Hərbçiyə nazirlik, dövlət təltiflər, mükafatlar verə bilər, amma bunu nümayişkaranə şəkildə etməyə ehtiyac yoxdur. Ona görə ki, məxfiliyin pozulması düşmən tərəfin işinə yaraya bilər. Bundan sonrakı dövrdə analoji vəziyyətlərdə yaxşı olar ki, məxfilik saxlansın. Düşmən kəşfiyyatının istifadə edə biləcəyi materiallar, informasiyalar qətiyyən ictimailəşdirilməlidir. Hərbi uğur şou predmeti olmamalıdır".


Ərəstun Oruclu

Ə.Oruclu onu da vurğuladı ki, Azərbaycanla Ermənistanın münasibətlərinin daha da gərginləşməsini istəyən kənar qüvvələr də öz məkrli planlarını həyata keçirmək üçün ictimailəşdirilən material və informasiyalardan yararlana bilərlər.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014

# Arif Hacılıdan ona qarşı bəyanat verənlərə "sülh" çağırışı

## Narazıların isə piket keçirməməsi partiyadaxili münasibətlərin düzəlməyə doğru getdiyi təəssüratını yaradır

**Müsavat Partiyasının başqanı Arif Hacılı hakimiyyət-müxalifət mübarizəsi və rəhbərlik etdiyi partiya daxilində baş verən ziddiyyətlərin səbəbləri ilə bağlı öz facebook profilində status paylaşıb. O qeyd edib: "Hakimiyyətin sərəncamında olan məhdudiyyətsiz resurslar hesabına bu gün Azərbaycanın demokratik inkişafı uğrunda mübarizə aparan qüvvələrlə irtica arasında mübarizənin bir xətti də müxalifətin içindən keçir. Lakin müxalifət partiyaları daxili mübarizələrə, bir-birilə, öz daxillərində vuruşmağa məhkum edilib.**



Arif Hacılı

Son zamanlar bu prosesə hakimiyyətin nəzarəti altında olan televiziya kanalları da daxil olmaqla, əlavə resursların cəlb edilməsinin səbəbləri çox sadədir. Müsavatın qurultaydan parçalanmış yox, əksinə, güclənərək çıxması, bizim təşkilat və müxalifət daxilində sabitlik yaratmaq, buradakı mübarizə xəttini ləğv etmək cəhdlərimiz hakimiyyətin ssenarisini pozur".

Hafta.az-a açıqlamasında isə A.Hacılı deyib ki, partiyada heç kimlə qovğa açmaq niyyətində deyil, üzərinə "müharibə" ilə gələn müsavatçıları da sülhlə qarşılayacaq: "Napoleonun məşhur deyimini mən belə dəyişdirirəm: "Müharibə" istəyənlər onu almayacaqlar". Öz tərəfimdən körpüləri yandırmamışam. Kimin mənə nə sözü varsa, gəlsin, görüşsün, sözünü desin, iradını bildirsin. Açıq qapını sındırmağa nə ehtiyac var?! Qubad İbadoğluna 3 dəfə, özü də müəyyən saatda yox, gün ərzində görüşməyi təklif etmişəm. Bir dəfə xaricdə, iki dəfə isə daha vacib işləri olduğu üçün gələ bilməyib".

Müsavat başqanı ötən həftə partiya rəhbərliyinə etiraz bəyanatı imzalayan 18 nəfərin bəziləri ilə görüşdüyünü, bəzilərini şəxsən görüşə dəvət etdiyini deyib. O deyib ki, siyahıda olanların bəziləri isə hətta Divanın qərarı ilə görüşə dəvət edilsələr də görüşməkdən rəsmi imtina eləyiblər: "Siyahıda fədakar partiya üzvləri ilə yanaşı, Müsavatda aylarla, hətta illərlə görünməyən, indi bu siyahıda adlarının qarşısında qeyd etdikləri vəzifələrə aid funksiyaları uzun müddət yerinə yetirməyənlərin də adları var. Onların illərlə cəmiyyətdə baş verən dəhşətlərə susqunluqla yanaşdıqları halda, indi yox yerdən problem uydurub, qətiyyətlə üzərimizə gəlmələrinin motivləri mənə məlum deyil. Bununla belə onlarla da görüşüb mövqelərini dinləməyə hazıram. Bir dəfə də demişəm, yenə təkrar edirəm. Mənim mühafizəçilərim və normalaşdırılmış qəbul saatlarım yoxdur. Sözünüz varsa, gəlin sözünüzü deyin. Bizimlə televiziya kanalları, bəyanatlar vasitəsilə danışmayın".

Xatırladaq ki, nizamnamə pozuntusuna yol verdikləri üçün partiyadan çıxarılan bir neçə nəfər noyabrın 15-də Müsavat Partiyasının qərargahı qarşısında etiraz piketi keçirəcəklərini bəyan etmişdilər. Ancaq piket keçirilmədi. Sosial şəbəkədə də piket söhbətinin yığışdırıldığı müşahidə olunur. Ehtimal etmək olar ki, artıq proses müəyyən qədər yumşalmaqdadır, narazılar atılan sərt addımların, sərt açıqlamaların, piket keçirmək kimi davranışların Müsavat Partiyasının dayaqlarına zərbə vurduğunun fərqinə varmaqdadırlar. Əgər belədirsə, Müsavatdaxili gərginliyin tədricən aradan qalxacağını söyləmək mümkündür.

❑ **E.SEYİDAĞA**

---

**Bu gün Dirçəliş günüdür. 1988-ci ilin 17 noyabrında o vaxtkı Lenin meydanına yığışan xalq özünün nəyə qadir olduğunu göstərə bildi. Lenin meydanı Azadlıq meydanına çevrildi. Xalq azadlığını əldə edib, əsarətdən qurtula bildi.**

**Azər RƏŞİDOĞLU**



# Zindandakı "dirçəliş"

Lakin bu gün Dirçəliş günü qeyri-iş günü kimi bayram edilmir. Bu günün yaranmasında müstəsna xidməti olan Nemət Pənahlı da indi həbsdədir. Vaxtilə meydana yığışan bir milyon etirazçı da artıq meydanlarda yoxdur. Rus imperiyasının sındıra bilmədiyi xalqı mövcud hakimiyyət diz çökdürdü.

Bu 26 ildə ölkədə çox nəsnə dəyişdi. Çoxlarının siması açıldı. Artıq mitinq aşiqlərini də müstəqillikdən daha çox hansısa super gücün yanında olmaq daha çox maraqlandırır. Artıq protest elektoratı Azadlıq meydanı deyil, "Avromeydan" yaratmaq barədə düşünür.

Bu 26 ildə aparılan siyasət cəmiyyəti o dərəcədə taqətsiz hala salıb ki, artıq böyük ideallar uğrunda mübarizə də cəlbedici görünmür. Yaranmış vəziyyətdə cəmiyyətin azadlığı uğrunda savaşa qalxacağına ümid bəsləmək də sadəlövhlük olardı. Bu baş verənlər 1988-ci ilin 17 noyabrından xeyli fərqlənir. Bu baş verənlər "Topxana harayı" təsirindən daha çox hansısa layihəyə bənzəyir. Görünən budur ki, Qərb və Rusiya qarşıdurması yeni müstəviyə transfer etməkdədir.

ABŞ Yaxın Şərqdə inqilablara nail ola bildi, lakin həmin bölgədə tam əks proseslər başlamaqdadır və sonluq Rusiyanın uğura daha çox yaxın olduğunu deməyə əsas verir. Ən azı Moskva taktiki gedişlərdə üstünlük əldə etməkdədir.

Ukraynada baş verənlər isə Vaşinqtonun MDB məkanını yenidən inqilablara meydan eləmək layihəsindən xəbər verir. Görünən budur ki, son nəticədə Rusiyanın özündə Avropaya inteqrasiya tələbləri ilə "rəngli inqilab" baş verə bilər. Qərb Rusiyanı öz evində vurmaq istəyir və bu baxımdan, MDB məkanından demokratik inqilabların baş verməsi ehtimalı heç də az deyil.

Yaranmış vəziyyətdə daha bir sual meydana çıxır - Qərb Azərbaycanı Avropanın bir hissəsi kimi qəbul edilməmi? Görünən budur ki, Ukraynaya, Moldovaya, və yaxud xristian Gürcüstana ayrılan diqqət müsəlman Azərbaycana ayrılmır. Azərbaycanın bir neft ölkəsi olaraq qalmasında elə Qərbin özü maraqlıdır.

Buna baxmayaraq, Avropaya inteqrasiya mövcud avtoritar idarəçiliyə qarşı islahatlar zərfinin təqdim olunmasıdır. Azərbaycan Rusiyanın mənəvi və fiziki müstəmləkəçiliyindən xilas olmalıdır. Bu baxımdan, "Avromeydan"a hər an ehtiyac yarana bilər. "Avromeydan" ilk baxışdan Qərbə inteqrasiyanı xarakterizə edirsə, sonrakı mərhələdə tamamilə fərqli şüarların səsləndiriləcəyi bir sahəyə çevrilə bilər.



Odur ki, protest elektoratının mövcudluğu, "Avromeydan"ın olması son dərəcə mühümdür. Hər baxımdan, bizi gözləyən böyük proseslərin dalğasında boğulmamaq üçün indidən buna hazır olmalıyıq. Əks təqdirdə, ölkəni gözləyəcək yeganə perspektiv xaos ola bilər. Xaos isə sabitlikdən daha eybəcər sifətə malikdir.

26 il öncə ilk dəfə idi ki, 1 milyon insan bir yerə yığışıraq etiraz edirdi. Lakin xaos olmadı. Xalq liderlərinin və mübarizənin səmimiliyinə inandı. Elə bu inam nəticəsində də qalib gəldi. Səmimiyyət və inam qarşısında isə heç bir qüvvə dayana bilməz. Rus imperiyası da dayana bilmədi.

Dirçəliş gününü tarixə yazan bir şəxsin zindanda olması bu günə xəyanətdir. Bu gün Dirçəliş gününün bəhrəsini görənlərin böyük qismi 26 il öncə bu hərəkatı boğmaq üçün əllərindən gələni edirdilər. O zaman olduğu kimi, elə indi də həmin simalar iş başındadırlar. Siyasətin çirkin simasını sübuta yetirən amillərdən biri də elə budur.

Bu 26 ildə çox nəsnədən məhrum olduq. Çox şanslar itirdik. İtirilmiş zamanı geri qaytarmaq mümkün deyil. Lakin ən azından Nemət Pənahlını azad etməyə çağıra bilərdik. Dirçəliş gününə hörmət olaraq bu gün, heç olmasa yalnız 1 gün, yalnız bir şüar səsləndirə bilərdik - Nemət Pənahlıya azadlıq!

---

# Azərbaycandan ki köçməyəcəksən...



**Hüseynbala SƏLİMOV**

**Amma köçənlər də var. Özü də fikir verməşik ki, onlar təzyiqlərin pik nöqtəsini seçirlər. Həm də o adamlar köçür ki, onların hakimiyyətlə bəlkə də minimal problemləri var...**

Olsun. Hamı taleyini özü qurmaq istəyir. Əslində bizi də bu ölkədə qalmağa heç kim məcbur etmir. Özümüz bu ölkədə qalmaqda qərarlıyıq. Həm yaş daha əvvəlki yaş deyil, nə də xaric əvvəlki kimi cazibədar görünmür...

Ona görə də qalmağına qalırıq, amma biganə də deyilik. Hər şey bizdə qıcıq yaradır. Həqiqəti dilə gətirməyən, qulağı doğru sözə tuşlanmayan, səhərdən axşama qədər bizim üstümüzə yalan ələyən telekanalların əlindən bezmişik...

O gün fikir verirəm, bir görün, nə deyirlər? Deyirlər ki, adam kişi olar, metroda, avtobusda durub özündən yaşlıya, qadına yer verər... Baxıram və nə etmək lazım gəldiyini yəqinləşdirə bilmirəm...

Bir görün, bizdə kişilik meyarı nə hesab edilir! Demirəm ki, metroda, avtobusda özünüzü yuxuluğa vurun. Yox, belə də demirəm. Durun və yer verin. Amma bu, kişilik üçün çox kiçik işdir. Buna görə adama kişi demək bir qədər şitlikdir...

Baxın. Seçkidə səsimizin arxasında dayana bilmirik. Biz birinə səs veririk, qutudan tamam başqa biri çıxır. Məmurun, polisin qarşısında dilimiz topuq vurur. İşdə, çöldə, bəziləri isə hətta evdə yaltaqlanmağı normal hal hesab edir.

Başqa cür necə ola bilər? Necə deyərlər, işinin xatirinə erməniyə dayı de...

Bax, bizim mənəvi, ictimai durumumuz budur. Bütün bunlardan sonra metroda, avtobusda durub kiməsə yer verməklə kişi olmaq olarmı? Bəli, belə "kişi"lərdən çox görmüşük. Onlar ömürləri boyu kişiyə layiq bir addım atmırlar, amma yaxşı toy məclisi, yas məclisi keçirirlər. Adamlar da ona baxıb deyir ki, filankəs kişi adamdır, gör, oğluna necə toy elədi, atasına necə ehsan verdi!..

Amma heç kim deməyəcək ki, bəs bu adam ömrü boyu düşündüyünü deməyə cəsarət etməyib, heç vaxt müdirin bir sözünü iki eləməyib...

Amma kimə deyirsən bunları? Pulun, sərvətin mənbəyi bizim cəmiyyəti heç bir vaxt maraqlandırmayıb. "Pulun qoxusu olmur!" zərb-məsəli sanki bizim cəmiyyət üçün deyilib...

Heç kimi maraqlandırmır ki, sən necə qazanırsan, haradan qazanırsan. Pulun varsa, hörmətin də var...

Bəli, bu ölkə belədir. Heç kim heç vaxt bu ölkənin insanlarını sevməyib. Onun meşəsini, dağını, çölünü seviblər. Amma insanını sevməyiblər...

Təkcə sovetlər dövründə ədəbiyyat insana sevgi aşılamağa çalışıb. O da canlı insan olmayıb, abstrakt bir varlıq olub. Bəli, biz sovet insanını sevməyə çalışmışıq. O insanı ki, o, bizim aramızda heç vaxt olmayıb...

Sovetlərdən əvvəlki dövrdə molla nəsrəddinçilər az qala tipik azərbaycanlıya nifrət aşılayırdı. Demirəm ki, onlar tamam haqsız idi. Özünüz baxın. Yüz ildən sonra biz beləyiksə, bir görün, o vaxt necə olmuşuq!..

İndi də bizim insanlarda seviləsi bir şey yoxdur. Hətta "Əli və Nino" da bizə özümüzü sevdirə bilmir. Biz o əsərin qəhrəmanlarını sevirik. Bəlkə də hamımız ona təəssüf edirik ki, kaş Əli Ninoya qulaq asıb Avropa ölkələrindən birinə gedəydi...

Ona görə ki, çoxumuz belə edərdik. Hazıra nazir olmaq bizim xislətimizdədir. Yalnız orada, Avropada biz dönüb adam ola bilirik. Daha doğrusu, bizi adam olmağa məcbur edirlər...

Burada isə hər şey tərsinədir. Ən maraqlısı da bilirsiniz nədir? Hamı bunları görür, hamı deyinir, hamı gileylənir, amma heç kim özü dönüb adam olmaq istəmir. O mənada ki, özünə qarşı adama olan münasibət tələb etmir. Məni ən çox özümdən şıxaran bilirsiniz nədir?

Hamı deyir ki, biz düzələn deyilik və bunu elə deyirlər ki, dərhal hiss edirsən ki, heç kim bizim düzəlməyimizi istəmir, hamı bir gündən qorxur- qorxurlar ki, birdən möcüzə olar və biz düzələrik, dəyişərik, onda indki oyun qaydaları dəyişər, daha hamı biri-birini aldatmaz...

Bax, biz o gündən qorxuruq. Məcnun deyirdi ki, ya Rəbb, bəlayi-eşqlə qıl aşina məni! Bizim insanlar isə deyir ki, ya Rəbb, bizi dəyişmə, bizə belə daha asandır, imkan ver, biri-birimizi aldadaq, biri-birimizə badalaq gələk...

Bəli, bugünün Azərbaycanı elə budur. Amma nə edəsən ki? Azərbaycandan köçüb gedəsi deyilsən ki...

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014

**Çoxlarının bu gün ekrandan, radiodan və qəzetlərdən, universitet auditoriyasından yaxşı tanıdığı, təmkinli səsi ilə aram-aram danışan, fikirlərində sanki redaktə edirmiş kimi düşüncələrini bölüşən bir alicənab ziyalı insan olan Qulu Məhərrəmlini lap uşaqlıqdan tanıyıram. O, mənim üçün bu həyatda ən çox dəyər verdiyim bir şəxsiyyətdir. Onun hər bir uğurunu öz qələbəm kimi qəbul etmişəm.**





# Çağdaş Azərbaycan jurnalistikasının flaqmanı haqqında dost sözü





İllərin zamanın axarında necə sürətlə ötüb keçdiyinin indi-indi fərqinə varıram. Bu gün çox dəyər verdiyim insanın yaşının 60-ı haqlamasını heç cürə sindirə bilmirəm. Çünki uşaqlıq illərimdən tanıdığım və həmişə mənə böyük qardaş olmuş Qulu Məhərrəmli ilə aramızda olan səmimi münasibət və hörmət, eləcə də doğmalıqda elə bil ki, Şuşadakı illərimizdə qalmışıq...

**Şuşalı illərimiz**

Şuşam, onu Ana kimi sevənlərin qəlbində nostalgiyadan çox, yüksək mədəniyyəti, gözəl ab-havası və mənzərəsi, mehriban insanları və yüksək yumor hissi ilə yaddaşlarda qalıb... Azərbaycanın başqa bölgələrini deyə bilmərəm, ancaq Şuşada uşaqlıq illərini yaşamış insanların düşüncəsi, baxışları, həyat fəlsəfəsi tamamilə fərqlidir. Şuşa bizim üçün sadəcə dünyanın və Azərbaycanımızın ən füsunkar guşəsi deyil, buranın havası, mühiti hər şeyə zəriflıklə yanaşma tərzini erkən yaşlarımızdan ürəyimizə, duyğularımıza həkk edib. Şuşada böyüyən hər bir insan yüksək mədəniyyətli, xeyirxah və səmimi insan olmaqla yanası, ağayana olar.

Şuşada üc internat məktəbi var idi. İkisi Azərbaycan, biri isə erməni dilində təhsil verərdi. Əsasən Qarabağın hər yerindən imkansız və ya çoxuşaqlı ailələrin övladları burada təhsil alırdılar. Mən və məndən böyük iki qardaşım, həmcinin, bu gün Azərbaycan jurnalistikasının ünlü isimlərindən biri olan Qulu Məhərrəmli və iki qardaşı ilə birlikdə orada böyüdük. Biz qardaşlar burada bir-birimizə qaynayıb-qarışıb doğmalaşmışdıq. Bu doğmalığı və səmimiyyəti Şuşa mühiti bütün ruhu ilə bizi ağuşuna almış bir ana kimi öyrədirdi. İnsan olmaq, azərbaycanlı kimi böyüməyi Şuşada mənimsəyirdik.

Onu da xatırlatmaq istəyirəm ki, bu gün özlərini zəngəzurlu sayıb Azərbaycan xalqından ayıranların hamısı qarabağlıdır. Buna şübhə edənlər Qarabağın tarixini bir də diqqətlə oxusunlar. Sovet imperiyası Ermənistanın ərazisini böyütmək üçün, Qarabağın Zəngəzur qəzasının yuxarı hissəsini Ermənistana birləşdirməklə bu iki adın arasında fərqli baxışların formalaşması siyasətini aparıb. Məhz rus imperiyası millətimizi beləcə bölgələrə parçalayaraq, milli süurumuza zərbə vurmuş və bizi millət kimi formalasmağa imkan verməmişdi. Qarabağı isə ermənilərə vermək üçün Azərbaycanda Qarabağa və qarabağlılara düşmən münasibəti formalaşdırmışdı. Yəni heç bir məntiqə uyğun olmayan "ancaq qarabağlılar gedib Qarabağı xilas etsin" fikri aşılamışdı.

Şuşanın hər qarışı bizim üçün bir cənnət guşəsi oldugu kimi, bizə təlim, təhsil və tərbiyə verən müəllimlərimiz də bizim üçün Tanrının yerdə müqəddəs insanları idi. Şuşada müəllimlərimiz bizə doğma valideynlərimiz qədər əziz və mehriban olardılar. İndi də bizə təlim-tərbiyə vermiş Aysəba, Gözəl, Mənzər, Roza, Klara müəllimələri məhəbbətlə xatırlayırıq. Bizim ədəbiyyat müəllimimiz, Şuşada Kəllə Sabir kimi tanınan Sabir Zeynalovun mənə olan atalıq qayğısını ölənə kimi unutmaram. Özümüzü ailə durumumuza görə imkansızlar sırasında saysaq da, hamımız Şuşa mühitində mənən zəngin idik və bu mühitdən heç zaman doymadıq. Dözümlü və iradəli olmaq, tərbiyəli həyat tərzi, ağayana davranış, dünyanı dərk etmək sanki Şuşanın bir parçası idi. Buranın hər qarışında Nəvvabın, Üzeyir Hacıbəylinin, Əbdürrəhim Bəy Haqverdiyevin, Nəcəf Bəy Vəzirovun, Yusif Vəzir Çəmənzəminlinin ruhu şəhərin üstündə ilişib qalmışdı. Şuşa milləti, xalqı və Vətəni sevməyi bizə öyrətdi. Bu ruhun aurasında yaşamaq və böyümək mənə görə dünyanın ən ulu müqəddəslərinin şəfqətidir. Sevgi ilə yoğrulmuş şəfqəti.

**Qarabağımızın ruhunu Bakıya daşıdıq**

Qulu Məhərrəmli məndən dörd-beş yaş böyük olmasına baxmayaraq, sonralar Bakıda tez-tez görüşürdük. Elə Şuşada olduğu kimi. Qulu bəy Bakı Dövlət Universitetini, mən də İncəsənət İnstitutunu bitirdik. Harada çalışmağımız bizim üçün heç bir önəm daşımadı. Biz elə Şuşadakı kimi münasibətlərimizi daim mehriban və səmimi şəkildə saxladıq. İndi ötən illərimizi xatırladıqca, Qulu Məhərrəmli ilə daha çox öyünürəm. Biz həyatda nələri qazandıqsa, hamısını alın tərimizlə əldə etdik. Onun necə zəhmətkeş olduğunu çoxları hələ də bilmir. Azərbaycanda ilk dəfə 1989-cu ildə "Radiodramaturgiya dili" mövzusunda namizədlik, 2004-cü ildə "Televiziya dili" haqqında doktorluq dissertasiyasını müdafiə edib. Bununla yanaşı, Televiziya və Radio jurnalistikası üzrə professordur. Düz 29 il AzTV-də müxtəlif vəzifələrdə çalışıb. Bu illər ərzində efirdə, mətbuatda öz sözü və fikri ilə imzasını möhür kimi təsdiq edib. Bu gün Azərbaycanın dövlət müstəqilliyində əməyi olan insanların siyahısında onun da adını qürurla çəkmək olar. Çünki, sadəcə, vətəndaş deyil, həm də çalışdığı sahədə çoxlarının qorxub səsini çıxarmadığı bir dönəmdə Qulu bəy özünəməxsus üslubda hər zaman açıq şəkildə sözünü deməyi bacarıb. Onun düşüncələrinin çəkisini və yükünü duymaq üçün Qarabağın və Şuşamızın agayana sözünü ifadə etmək, ritorikasının poetik məzmununu və xarakterini bilmək lazımdır.



**Hollandiyadan Azərbaycana salam**

Tale elə gətirdi ki, hələ Sovetlər Birliyi dağılmamışdan öncə Avropaya mühacirət etmək məcburiyyətində qaldım. Qulu Məhərrəmli ilə əlaqələrimiz və münasibətlərimiz uşaqlıq illərində olduğu kimi qaldı. Hətta deyərdim ki, daha da genişləndi, möhkəmləndi. Qarabağla bağlı həqiqətlərin Avropada tanıdılmasında onun sayəsində çox işlər gördük. Səssiz-səmirsiz. Kimsənin xəbəri olmadı ki, bu nəhəng işin arxasında duranlardan biri də Qulu Məhərrəmlidir. Tarixin adsız qəhrəmanları kimi ötən illər ərzində bu gərgin işi həyata keçirdi. Dünyanın 60-dan çox ölkəsində olan Qulu Məhərrəmli səbirlə və təmkinlə hər yerdə Qarabağ həqiqətlərini tanıtmaq kimi çox çətin və məsuliyyətli iş görüb.

Azərbaycan diplomatlarının görmədiyi işi o, təkbaşına həyata keçirib. Hər zaman bunu arzulamışıq ki, Azərbaycandan Avropaya gələn ziyalılar, millət vəkilləri, məmurlar təmsil olunduğu dövlətin maraqlarına söykənən ən kiçik bir iş görsünlər. Bunu qətiyyətlə deyə bilərəm ki, biz belə şeylərin çox az şahidi olduq. Bir çoxları Avropaya gəlib öz şəxsi maraqları çərçivəsində hərəkət etdilər. Milli diaspor adına bizləri birləşdirmək əvəzinə, ayrımçılıq xəstəliyinin toxumlarını əkmək istəyənlərin sayı daha çox oldu. Qulu Məhərrəmli isə bütün dərdlərimizə dərman olmaq üçün o müqəddəs missiyanı öz üzərinə götürərək hamını toparlamaq bacarığını məharətlə ortaya qoyub. Buna görə də, ona milli diasporumuzun arasında daha çox böyük sayğı var, nəinki iriçəkili, titullu məmurlara.

**Alın təri ilə qazanılan alim adı**

Qulu Məhərrəmlinin Azərbaycan jurnalistikasının inkişafı yolundakı xidmətlərini görmək istəyənlər onun əsərlərinin siyahısına baxsalar, bütün həqiqətlərin bir daha canlı şahidi ola bilərlər. O, "Radiodramaturgiya dili", "Televiziya haqqında etüdlər", "Televiziya və radio tamaşaları", "Televiziya nitqi və ədəbi tələffüz", "Radio dalğalarında", "Ekran və ədəbi dil", "Audiovizual nitq", "Televiziya dili. Spesifika: funksiya və struktur", "Kino, televiziya, radio terminləri. "İzahlı lüğət", "İctimai televiziya: tarix, gerçəklik və prinsiplər", "Kütləvi kommunikasiya və dil", "Televiziya jurnalistikasının əsasları", "Azərbaycan efiri: Tarix və müasirlik", "Radio dərsləri. Tarix, nəzəriyyə, təcrübə", "Jurnalistikanın əsasları", "Mediada işlənən alınma sözlər", "Radio jurnalistikası", "Radio jurnalistikası: təməl biliklər", "Zamanın rəngləri" kimi çox ciddi və fundamental elmi əsərlərin müəllifidir. Bu əsərlər sadəcə jurnalist peşəsi üçün deyil, ümumilikdə ekran və efir siyasətimizin doktrinası sayılır. Bu əsərlər Qulu Məhərrəmlinin uzun illər əldə etdiyi zəngin təcrübə, dərin mütaliə və yorulmaq bilmədən apardığı araşdırmaları sayəsində ərsəyə gəlib. Bu əsərləri bilmədən müasir jurnalistikamızın inkişafı haqda düşünmək mümkün deyil.

Çünki ekran-efirin linqvistik sistemini tanımadan və onu araşdırmadan, teleradio dilinin funksional və struktur təhlili də mümkün deyil. Bu gün mətbuat azadlığı uğrunda peşəkarcasına mübarizə aparan mütəxəssislərin siyahısında Qulu Məhərrəmlinin adı fəxrlə çəkilir. Onun "Vətəndaş mediasının dəyişən paradiqmaları" və "Yeni medianın humanitar aspektləri" konsepti həm də virtual medianın inkişafı üçün vacib şərtlərdən biri sayılır. Çünki virtual aləmin, yəni internetin inkişafı bu gün çox sürətlə irəli getməkdədir. Bununla yanaşı virtual aləmdə peşəkarcasına davranmaq, etika qaydalarını bilmək də çox vacibdir. Virtual aləmdən "babam mənə kor deyib, gəl-gedənə vur deyib" prinsi ilə istifadə edilməz. İnternet aləmi yüksək mədəniyyətli, diskussiya bacarığı olan intellekt deməkdir. Bu gün dünyanın harasında jurnalistika ilə bağlı toplantılar keçirilirsə, Azərbaycanı təmsil edənlərin sırasında Qulu Məhərrəmlinin də səsini bu yüksək tribunalardan eşitmək hamı üçün xoş olsa da, mənim üçün bu ikiqat bayram deməkdir. Jurnalistikada adi reportyor kimi fəaliyyətə başlayan Qulu Məhərrəmli indi Azərbaycan mediasının flaqmanına çevirilib. Bu da talenin ona nəsib etdiyi uğurlardan biridir.

**Ömrün uzun yolu**

Qulu Məhərrəmli 20-yə yaxın sənədli televiziya filminin ssenari müəllifi kimi hər zaman yaddaşlarda qalacaq. Ekran drmaturgiyasının psixoloji özəllikləri əsasında çəkilmiş bu filmlər beynəlxalq festivallarda nümayiş etdirilib və mükafatlar da qazanıb. Onun "Azərbaycan dünya meridianlarında", "Azərbaycan qaçqınları", "Qobustan", "Okean üzərindən körpü", "Müstəqil Azərbaycan", "Terrorla üz-üzə", "Alman Yunus", "Antropoloji sənəd", "Məyusluq", "Üç dəniz əfsanəsi", "Azərbaycana namus və sevgi ilə", "Dəvətnamə" və başqa filmlərini buna örnək göstərmək olar. Qulu Məhərrəmli 30 ilə yaxındır ki, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində müəllim kimi də fəaliyyət göstərir. O təkcə bilik və qabiliyyəti ilə deyil, yüksək mədəniyyəti və namuslu davranışı ilə də həmişə örnək olub.

Faktiki olaraq, müasir jurnalistika sahəsində çalışan ən güclü və obyektiv qələm əhlinin əksəriyyətinin müəllimi olub. Onun tələbələrinin də etiraf etidiyi kimi jurnalistikanın ekran dilini məhz Qulu müəllimdən öyrənirlər. O, başqaları kimi xəsis deyil. Çünki təkcə öz kitablarını deyil, başqa müəlliflərin də dərs vəsaitlərini öyrənməyi tələbələrindən tələb edir.

Bu gün Azərbaycan jurnalistikasını ağsaqqalına çevrilmiş Qulu Məhərrəmlinin 60 yaşa çatmasını heç cürə özümə sindirə bilmirəm.

Ancaq bunun özü də bir həqiqətdir ki, artıq illərin üstündən zamanın öz təsiri yel kimi ötüb keçir. Mən hər dəfə onu yada salanda və ya görüşəndə Şuşalı illərimizdən savayı heç nəyi düşünmürəm. Sanki keçmişimizdə necə var idik, beləcə bütün həyatımızı yaşayırıq. Şuşada həyat və mühit bizim üçün tamamilə fərqli idi. Ona görə ki, doğrudan da ötən illər ərzində biz heç dəyişməmişik. Sadəcə zamanın özü dəyişib...

**❑ Elman Mustafazadə, Avropa "Azərbaycanın Dostları" Cəmiyyətinin sədri**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



## "Düşmən layiqli cavabını həmişə alacaq"

Revanş hissi ilə alışıb-yanan ermənilər ən ağlasığmaz hədələr səsləndirməkdədirlər; vertolyot olayı Qərb mətbuatının diqqətindən düşmür...

**Noyabrın 12-də Azərbaycan səmasında işğalçı erməni vertolyotu vurulandan sonra düşmən tərəfi hələ də özünə gələ bilməyib və hədələr yağdırmaqda davam edir. Prezidentlərin Paris görüşündən dərhal sonra başlanan bu təxribatçı təlimlərin təbliğati effektini heçə endirən insidenti təcavüzkar heç cür Azərbaycana bağışlaya bilmir.**

Revanş yanğısı ilə yaşayan düşmən ən ağlasığmaz və Ermənistanın ola-qalan dövlətçiliyini məhvə aparacaq sərsəm təkliflər belə səslənməkdədir. Məsələn, Levon Şirinyan ad-soyadlı politoloq təklif edir ki, "Azərbaycanı cəzalandırmaq üçün bu ölkənin kommunikasiyalarına zərbə endirilsin". Təbii ki, kommunikasiya deyəndə strateji neft-qaz kəmərləri də anlaşılır.

İşğalçı qüvvələrin hələ də vurulan vertolyota yaxınlaşa bilməməsindən hiddətlənən Şirinyan deyib: "Erməni hərbçiləri önləyici tədbirlər görməli, düşmənin təxribatını gözləməli deyillər. Azərbaycan tərəfinin hərəkətlərinə adekvat cavab kimi bu ölkənin kommunikasiya xətlərinə zərbələr də endirilə bilər". Erməni ekspert son hadisələrdə Türkiyənin "əlinin olduğuna" da əmin olduğuna və insidenti avqust olaylarına görə revanş cəhdi hesab etdiyini də söyləyib.

Şübhə yox ki, Azərbaycan ordusu düşmənin düşdüyü vəziyyəti bilir və ikiqat sayıqlıq içindədir. Hədələrə gəlincə, onlara cavab kimi Azərbaycan prezident İlham Əliyev ötən şənbə Şəmkirdəki çıxışı zaman işlətdiyi bir cümləni yada salmaq yetər. "Mən əminəm ki, silahlı qüvvələrimiz bundan sonra da düşmənin təxribatlarına layiqli cavab verəcək".

***

Baş vermiş hadisə Qərb mətbuatının da diqqət mərkəzindədir. Məsələn, İtaliyanın "La Stampa" nəşri Azərbaycanın hava məkanını pozan erməni helikopterinin hərbçilərimiz tərəfindən vurulmasını şərh edərək yazıb (publika.az): "Ukrayna hadisələri Qafqazda Qarabağ münaqişəsinin alovlanması ehtimalını unutdurub. Hərçənd Ermənistan ordusunun qondarma "Dağlıq Qarabağ Respublikası"nın adına çıxdığı hərbi helikopteri Azərbaycan səmalarında uçurtması və qarşı tərəfin onu vurması unudulmuş postsovet müharibəsinin yenidən qızışa biləcəyi ehtimalını gücləndirir".

Nəşr 1988-ci ildə ermənilərin azərbaycanlıları doğma yurdlarından çıxarması və ərazi iddiaları nəticəsində başlanan Qarabağ münaqişəsinin SSRİ-nin "xalqlar dostluğu" mifini dağıtdığını yazıb: "25 il əvvəl başlanan münaqişə dondurulmuş vəziyyətdə qalır. Ermənistan qondarma "DQR" yaradıb. BMT qətnamələrini yerinə yetirmir. Helikopter olayı hadisələrə bir daha nəzər salmağa məcbur edir. Ermənistan təyyarələrini Azərbaycan səmasında uçurtmaqla nə demək istəyirdi? Yerli ekspertlərə görə, Paris görüşündən sonra 40 minlik erməni ordusunun Dağlıq Qarabağda hərbi təlimlərə başlaması Bakıya qarşı əzələ nümayişi idi. Məqsəd həm də növbəti təxribata start vermək olub. Bakı helikopteri vurduğunu inkar etmir. Çünki bu ərazilər beynəlxalq hüquqda, dünyanın ən ali orqanı BMT tərəfindən Azərbaycan torpaqları hesab olunur. Belə olan təqdirdə, Bakı nə üçün helikopteri vurduğunu inkar etməlidir?"

Məqalədə daha sonra deyilir: "Erməni tərəfi isə Azərbaycanı adekvat cavab verməkdə hədələyir. Dünya gücləri tərəfləri sakit olmağa çağırır. Lakin bu toqquşma növbəti müharibənin qığılcımı ola bilər. Bəzi şərhçilərə görə, Qafqazda unudulmuş münaqişə Ukrayna müharibəsinin əks-sədası ola bilər. Xüsusilə, Bakı və İrəvan qarşıdurmasında Ermənistanı dəstəkləyən Moskvanın addımları buna zəmin yarada bilər. Ötən ay Ermənistanın Avrasiya İttifaqına qoşulması haqqında qərarın qəbulu İrəvanı Rusiyaya daha çox yaxınlaşdırdı".




# Kazimirovdan Qarabağa dair unikal "nizamlama" formulu

Rusiyalı ermənipərəst eks-vasitəçi Böyük Britaniya krallığı ilə unitar Azərbaycanı "səhv salıb"; sabiq uğursuz diplomat, görəsən, Rusiya daxilində zorla saxlanılan xalqlara da öz müqəddəratını təyinetmə haqqı tanıya, Putinə analoji təklif verə bilərmi?..

**1992-96-cı illərdə Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya prezidenti adından vasitəçilik eləmiş, özü də çox uğursuz bir vasitəçilik eləmiş Vladimir Kazimirov yenə qızıl xırdalayıb. Daha dəqiq desək, özünə növbəti dəfə müdriklik görkəmi verən sabiq diplomat Rusiya mətbuatına müsahibəsində guya Qarabağ ixtilafının ədalətli həll yolunu göstərib. Nəymiş o yol, görəsən?**




Öncə keçmiş diplomat "Qarabağ ixtilafını bütünlüklə siyasi müstəviyə keçirmək lazım olduğunu" söyləyib və bildirib ki, "müəyyən qüvvələr var ki, regionda hərbi aktivliyin dəstəklənməsində maraqlıdır". Ardınca deyib: "Münaqişə tərəfləri isə hər halda iki yox, üçdür - Dağlıq Qarabağı yetərincə müstəqil qüvvə kimi bir sıra məsələlərdə nəzərə almaq lazım gəlir".

Bəs regionun çoxillik və üzücü konfliktinin həllini yaxınlaşdırmaq üçün öncə nələr edilməlidir?

Kazimirov, təbii ki, suala cavab olaraq münaqişənin davam eləməsində Rusiyanın destruktiv roluna toxunmayıb, amma əvəzində Qafqazın yaxın tarixini belə özünəməxsus şəkidə saxtalaşdırmaqdan çəkinməyərək və ermənilərin işğalçılığına açıq şəkildə haqq qazandıraraq suala belə cavab verib: "Qafqaz Bürosunun (Bolşeviklər Partiyası nəzərdə tutulur - red.) Dağlıq Qarabağa dair qərarının necə ortaya çıxması barədə tarixçə hamının yadındadır, yəqin ki: əvvəlcə - iyulun 4-də qərar edildi ki, bölgə Ermənistanın tərkibinə daxil edilsin, bir gün sonra - iyulun 5-də qərar verildi ki, Azərbaycanın tərkibində saxlanılsın".

Kazimirova görə, məqsədəuyğun olardı ki, problem "referendum yolu ilə, yəni siyasi vasitələrlə" həllini tapsın: "Təsadüfi deyil ki, Azərbaycanın 1995-ci ildə qəbul edilən konstitusiyasında belə bir müddəa əksini tapıb ki, referendum yalnız ümumrespublika miqyasında keçirilə bilər. İndi mən sual edirəm: yaxşı, bəs beynəlxalq praktika bu xüsusda nə deyir? Bir çox illər öncə Kvebekin müstəqilliyi məsələsi gündəmdə idi. O zaman məgər təkcə Kvebek əhalisi səs verdi, yoxsa bütün Kanada? Əlbəttə ki, yalnız Kvebek. Şotlandiyanın müstəqilliyi məsələsində də yalnız Şotlandiya səs verdi, bütün Böyük Britaniya yox. Bəs Kataloniya?.."

Sözsüz ki, bu gün də qatı ermənipərəst mövqe ilə seçilən və cibində təkcə daşnak bileti çatmayam Kazimirovdan hansısa ləyaqətli, normal məntiqə sığan mövqe gözləməyə dəymir. Bu cür açıqlama ilə isə o, sadəcə, rəngləri qəsdən qarışdırır. Guya xəbəri yoxdu ki, Azərbaycan Böyük Britaniya krallığı və ya Kanada federasiyası deyil, unitar dövlətdir. Və bu üzdən də Dağlıq Qarabağda müstəqillik referendumu keçirilə bilməz. Necə ki, unitar İspaniya da Kataloniyaya, unitar Ukrayna Krıma bu hüququ tanımır və beynəlxalq birlik də bunu normal qarşılayır.

Sadalananları o, əlbəttə ki, bilir. Sadəcə, ermənilərə xoş gəlmək üçün və konyak dostluğundan doğan vəfa borcunu yerinə yetirərək belə danışmağa məhkumdur. Krımın ilhaqına haqq qazandıranlardan ayrı nə gözləmək olar ki. Ancaq lap tutaq ki, erməni xalqı daha bir dəfə öz müqəddəratını təyinetmə haqqına sahibdir. Bəs, ötən əsrin 90-cı illərinədək Ermənistanda kompakt şəkildə yaşamış, lakin zorla öz yurd yerlərindən qovulmuş 200 minlik azərbaycanlı toplumu necə olsun? Onların tarixi türk torpaqlarında təşəkkül tapmış Ermənistan adlı qondarma dövlətdə öz müqəddəratını təyinetmə hüququ yoxdumu? Bəlkə Kazimirov onları eyni xalqın parçası saymır?

Bu yerdə yada salaq ki, hətta vaxtilə arvadı erməni olmuş (Yelena Bonner-Alixanyan) hüquq müdafiəçisi Andrey Saxarov Qarabağ probleminin həlli üçün ədalət naminə heç olmasa, Ermənistanda kompakt yaşayan azərbaycanlı toplum və Dağlıq Qarabağ əhalisi arasında simmetrik referendum keçirməyi təklif eləmişdi. Yəni faktiki, ərazi mübadiləsi variantını irəli sürmüşdü...

Və yaxud nə əcəb Kazimirov öz müqəddəratını təyinetmə haqqını Rusiya tərkibində zorla saxlanılan və dövləti olmayan xalqlara, çeçenlərə tanımır? Eyni təklifi o, Putin qarşısında qaldıra bilərmi?

Bu sualların hamısı ritorikdir. Amma Kazimirovun da, onun kimi erməni təcavüzkarlarına arxa-dayaq olub himilik edənlərə bir sual da var: necə olur ki, qədim türk sözü ilə ("Qarabağ") adlandırılan və hələ də dünyada bu cür tanınan (erməni özü də bu addan istifadə edir!) bir bölgə qəfildən aborigen ermənilərin vətəninə döndü və onlara müqəddəratı təyinetmə haqqı tanındı? Bu da növbəti ritorik sual.

Başqa bir absurd isə Ermənistanın özünün Dağlıq Qarabağı "müstəqil dövlət" kimi tanımağa cəsarət etməməsidir. Əslində məntiqlidir. Bu, o anlama gəlir ki, ermənilər Qarabağ məsələsinin öz müqəddəratını təyinetmə kimi mifik haqdan yox, Azərbaycana qarşı ərazi iddiasından doğan işğal problemi olduğunun, dünyanın da bunu məhz bu cür anladığının fərqindədir.

Lakin Azərbaycan bir ovuc erməni vətəndaşına heç vaxt bu haqqı tanımayacaq, tanıya bilməz. Təkcə ona görə yox ki, mövcud konstitusiya buna imkan vermir və belə bir "referendum" üçün konstitusiyaya xalqın icazəsi ilə dəyişiklik edilməlidir. Həm də o səbəbə ki, o halda ölkə ərazisindəki başqa etnik azlıqlara da eyni hüquq tanınmalıdır ki, bu da Azərbaycan dövlətçiliyinin sonu olar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014



# Dinc yanaşı yaşamaq haqqı

Kənan RÖVŞƏNOĞLU

**Dünən tolerantlıq günü idi. 1995-ci ildən etibarən hər il noyabrın 16-sı "Beynəlxalq Tolerantlıq Günü" kimi qeyd olunur. Hazırda bəşəriyyətin ən böyük problemlərindən biri olduğu üçün bu mövzuya diqqət getdikcə artır.**

Oksford lüğətində dözümlülük (tolerance) sözünün 3 mənası verilib: 1) Ehtiyac və ya ağrıya dözmə hərəkəti və ya təcrübəsi; nəyəsə dözmə qabiliyyəti və ya gücü.

2) Nəyəsə icazə vermə hərəkəti. 3) Başqalarının fikirlərinə qarşı liberal mövqe tutma və ya bir şeyi etiraz etmədən qəbul etmə, təmkinlik.

Hazırda bəşəriyyət məhz fərqli dəyərlərə hörmətlə yanaşma problemini yaşayır. Tarix boyu milli, etnik, dini-məzhəbi fərqlilik xalqlar arasında böyük savaşların əsas səbəbi olub. İnsanlar onlar kimi olmayan, fərqli etiqadlı "özgə"lərlə heç də hər zaman, yumşaq desək, mehriban olmayıb. Amma indi bu vəziyyət ən dramatik həddinə çatıb. Dünyanın bütün nöqtələrində dözümlülük problemləri olsa da, ən dəhşətli vəziyyət Azərbaycanın da yerləşdiyi regiona yaxın bölgədə, Yaxın Şərqdədir. Bu gün İraq və Suriyada minlərlə insan məhz milli və dini fərqliliyin qurbanlarına çevrilib.

Belə görünür, hazırda daha çox müsəlmanların tolerantlıq dəyərlərini öyrənməyə ehtiyacları var. Çünki bir neçə irqçi hücumlar və ya "gəlmələrə" nifrət elementləri Yaxın Şərqdəki qətliamlarla müqayisədə "xoş zarafat" kimi görünə bilər. Bu məsələdə yenə də ənənəvi məsələ meydana çıxır. Qeyri-tolerantlıq İslam dini ilə bağlıdır, yoxsa müsəlmanlarla? İslam dini düşmənləri Qurandakı bir neçə ayəyə istinad edərək "özündən olmayanalara" qarşı sərt münasibətin müsəlmanların müqəddəs kitabından gəldiyini iddia edir. Ancaq buna qarşı əks-arqument də var. Bu ayələr adətən kontekstdən çıxarılır və ya səhv yozulur. Çünki Quranda dəfələrlə inanc məsələsində məcburiyyət olmadığı açıq şəkildə qeyd olunur. "Dində məcburiyyət (zorakılıq) yoxdur". (Quran-Kərim, Bəqərə 256.) "...Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Lakin bu (müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın (bir-birinizlə yarışın). Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!" ("Maidə" surəsi, 48). "Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!" (Tövbə surəsi 6-cı ayə).

Nümunələr çoxdur. Cəlaləddin Rumi, Şəms Təbrizi, Seyid Yəhya Bakuvi və daha neçə İslam mütəfəkkirləri Qurana istinadən dostluq, qardaşlıq, birgəyaşayışın simvollarına çevriliblər. Deməli, məsələ Quranda və ya İslamda deyil, müsəlmanların dinə münasibətlərindədir. Min ildən artıqdır birgə yaşayan İraq müsəlmanlarının bu gün bir-birlərini və ya yenə də min illərdir o torpaqlarda yaşayan yezidiləri, xristianları, assuriləri milli, dini fərqliliyə görə öldürürsə, deməli məsələ dində deyil, yanlış izahda, yönləndirmədədir.

Təəssüf ki, dini zəmində nifrət, düşmənçilik çağırışları Azərbaycanda da eşidilməyə başlayıb. Halbuki min illər boyu Azərbaycan insanı yanaşı yaşayıb, fərqli dinin, məzhəbin nümayəndələri eyni şəhəri, eyni kəndi, eyni küçəni bölüşüblər. Ancaq son illərdə həm mediada, həm sosial şəbəkələrdə edilən çağırışlar, xəbərlər göstərir ki, müsəlman dünyasına hakim olan tendensiya bizi də əhatə edə bilər.

Azərbaycan üçün bu tendensiya qeyri-ənənəvidir və görünən odur ki, "ixrac" olunur. Azərbaycan hökuməti dini dözümsüzlüyü, radikalizmi və terror təhdidi yaradan qrupları inzibati metodlarla aradan qaldırmağa çalışır. Ancaq bu, o qədər də yetərli və təsiri vasitə deyil. Təcrübə göstərir ki, tolerantlıq mühiti yaradılması üçün güclü dövlət nəzarəti ilə yanaşı ciddi maarifçilik olmalıdır. Əgər insanlara İslamın həqiqi üzü tanıdırılmasa, kimsə çıxıb əksini təqdim etməyə çalışacaq. Buna qarşı əsas mübarizə metodu sağlam dini maarifçilik, həqiqi dini dəyərlərin təbliği olmalıdır. Bu prosesdə "dövlətin güclü üzünü göstərmək" sonuncu vasitədir, buna qədər dini qurumlar, media, təhsil sistemində ciddi işlər görülməlidir.

Səmavi dinlər birgəyaşayışa, qardaşlığa vurğu edirlər, ancaq zamanın ortaya çıxardığı əsas sual məhz fərqli dəyərlərin birgə yaşaması, hər kəsin fərqli dəyərlərə hörmətlə yanaşma mədəniyyətinin formalaşmasıdır. İslamda böyük məktəb, elmi mərkəzlərin əsasını qoymuş İmam Cəfər Sadiq (ə) buyurur ki, "Allaha doğru yol insanların sayları qədərdi". Müsəlmanlar (eləcə də digər dinlərin nümayəndələri) birgəyaşayışa alışmağa məhkumdurlar, çünki əksi çox dəhşətlidir.

# Bayılda 10 minə yaxın sakin evsiz qala bilər

## Ərazidə evləri sökülləcək mülk sahiblərinə bildirişlər göndərilib; "Bu xəbərlər yayılandan sonra sakinlərə rüşvətlə evlərini sənədləşdirmək təklif olunur"

**Bir müddət öncə Bakının Səbayel rayonu ərazisində söküntü işlərinin aparılacağı barədə xəbər yayılmışdı. Belə ki, Bayılda - "20-ci sahə" deyilən ərazidə plana düşən evlərin tamamilə söküləcəyi, sənədsiz evlərə görə isə sakinlərə kompensasiya ödənilməyəcəyi bildirilirdi. Bu isə10 minə yaxın insanın evsiz qalması deməkdir.**

Artıq Arif İsmayılov, Salyan Döngəsi II, Yüzbaşı Mürsəlov, İbrahim Məmmədov, Lütfin Babayev, Şahlar Allahverdiyev, Aydın Məmmədov və digər küçələrin sökülməsinə hazırlıq gedir. Ərazidə olarkən sakinlər də yayılan xəbərləri təsdiqlədilər.

Məsələnin mahiyyəti odur ki, ARDNŞ yerli sakinləri məhkəməyə verərək, bütün prosesləri udub. İşin müəmmalı tərəflərindən biri odur ki, məhkəməyə müraciət ünvanlayan ARDNŞ olsa da, sakinlərə bildirişlər Səbayel Rayon İcra Hakimiyyətindən göndərilir. Evləri plana düşən sakinlərin, demək olar ki, əksəriyyəti bildirişləri alıb.

Sakinlərlə söhbətimiz zamanı məlum oldu ki, ərazidə söküntü işlərinə Avropa Oyunlarının ölkəmizdə keçirilməsi ilə bağlı qərar veriləndən əvvəl başlanılıbmış. Lakin bir qədər sonra işlər müvəqqəti olaraq təxirə salınıb.

Evinin sökülməsi gününü gözləyən ağsaqqal Namiq Hüseynov 7 nəfər ailə üzvü ilə birlikdə küçələrdə qalacağını söylədi: "5 ilə yaxındır ki, bu ərazidə yaşayıram. İndiyə qədər müntəzəm olaraq, qaz, işıq və su pulu ödəmişik. Dəfələrlə evimizi sənədləşdirmək üçün aidiyyəti orqanlara müraciət etmişik. Lakin hər müraciətimizdə işimizi yubatdılar. Sanki bugünkü proseslərə hazırlıq işləri görürmüşlər. 7 nəfər ailə üzvümüzü oğlumla birlikdə güc-bəla ilə dolandırırıq. Başqa yerdə ev tikməyə imkanımız yoxdur. İndi küçədə qalmalıyıq? 3 minə yaxın evin sökülməsi planlaşdırılır. Bu 10 minə yaxın sakinin evsiz-eşiksiz qalması deməkdir.





Bunlar nə düşünür, hələ də mənə çatmır. Zamanı gözləyirik. Yəqin ki, bu qədər də ədalətsizlik olmaz".

Onu da qeyd edək ki, plana düşən ərazilərdə qanuni sənədləri olan evlər də az deyil. Amma bunlara baxmayaraq, bu sakinlərə də kompensasiya ilə bağlı heç nə deyilməyib.

Adının çəkilməsini istəməyən taksi sürücüsü isə inanılmaz faktlar açıqladı: "Mən inanmıram ki, bu qədər sakinin evi birdən-birə sökülsün. Sadəcə məqsəd rüşvət yığmaqdır. Bir fakt qeyd edim ki, bu xəbərlər yayılandan sonra tanıdığım insanlar var ki, külli miqdarda pul verərək, evini sənədləşdirib. Bu ərazidə yaşayanların əksəriyyəti məcburi köçkün, şəhid ailələri və müharibə veteranlarıdır. Yəni evlərinin sənədi yoxdur. Məqsəd bu ailələrdən pul yığmaqdır. Kiçik bir ərazidə söküntü işləri aparılıb. Burada məqsəd digərlərinə qorxu yaratmaqdır. Evlərinin sənədləri olmayan sakinlərə icradan gizli olaraq müraciətlər edilir ki, gəlin evinizi sənədləşdirək. Çünki gələcəkdə bu ərazidə söküntü işləri aparılsa, sənədi olan evlərə kompensasiya ödəniləlidir. Bu baxımdan məcbur qalan sənədsiz evlərin sakinləri rüşvət müqabilində yaşayış yerlərini qanuniləşdirirlər".

Onu da bildirək ki, ərazidə aparılan söküntü işlərinin bəzilərinin müqabilində mülk sahiblərinə kvadratı 1500 manatdan kompensasiya ödənilib. Bu isə həmin ərazidə Şahmat Sarayının tikintisi ilə əlaqədar olub.

Hazırda söküntü işləri adları çəkilən ərazilərdən olan Salyan Döngəsi II-də aparılır. Ərazinin ucqar yerlərində evlərin sökülməsi prosesi başa çatdırılıb.

Sakinlər bir maraqlı fakt da açıqladılar ki, evlərin sökülməsi onların öz hesablarına həyata keçiriləcək. Bu tələb aidiyyəti orqanlar tərəfindən onların qarşısına qoyulub.

"Torpaq sahəmi bələdiyyəyə pul verərək almışam. Ev tikmək üçün də pul ödəmişəm. Bildiriş gələndən sonra İcra Hakimiyyətinə müraciət etdim. Mənə dedilər ki, bələdiyyədən şikayət et. Bələdiyyə də bunların qoruduğu qurum deyilmi? "Səndən sənə şikayətim var"-buna deyərlər. Əgər illərdir yaşadığımız ərazi qanunsuz idisə, nə üçün küçə adı verirdilər? Burada söhbət bir nəfərin yox, minlərlə insanın taleyindən gedir. Dövlət başçısına müraciət edirik, bizə kömək edin" - deyə Xədicə adlı sakin bildirdi.

Sonda onu xatırladaq ki, ərazidəki evlərin sökülməsinə səbəb kimi, qəsəbənin abadlaşdırılması, iri layihələrin həyata keçirilməsi və Milli Parkın həmin ərazıyədək uzadılması planı göstərilir.

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

# Vilyam Hacıyev veteran futbolçunu həbs etdirmək istəyir

## İcra başçısı Maşallah Əhmədova olan borcunu qaytarmaq əvəzinə, onu təhdid edir

**İmişlinin icra başçısı Vilyam Hacıyev "Neftçi"nin sabiq futbolçusu Maşallah Əhmədova 2 milyon manat borcunu ödəməmək üçün onu həbs etdirmək istəyir. "Yeni Müsavat"a daxil olan məlumata görə, V.Hacıyev bundan ötrü müvafiq tapşırıqlar verib. İcra başçısı sabiq futbolçunu ələduzluqda ittiham etdirməklə neytrallaşdırmağa çalışır.**

"Qafqazinfo"nun məlumatına görə, M.Əhmədov idmandan ayrıldıqdan sonra özünə kiçik bir MMC qurub. Daha sonra isə tanışları və illərdən bəri qazandığı dostları sayəsində onu böyütməyə başlayıb. Və nəhayət, rayonlarda həyata keçirilən abadlıq və quruculuq işlərinə qoşulub. Keçirilən tenderlərdən bir neçəsinin qalibi olub. M.Əhmədovla Vilyam Hacıyevin yolları ilk dəfə Göygöl (keçmiş Xanlar) rayonunda kəsişib. Həmin vaxt sözügedən rayonun icra başçısı olan Hacıyev məşhur futbolçunu bəzi tikinti işlərinə cəlb edib. Dövlət büdcəsindən bu məqsədlə ayrılmış vəsaitin bir qismini verərək, yerdə qalanını da ödəyəcəyini vəd edib.



Vilyam Hacıyev



Maşallah Əhmədov

Amma bu anlaşmadan qısa müddət sonra Hacıyev Samux rayonuna icra başçısı göndərilib. Və Maşallah Əhmədov bu rayonda da tikinti işləri üzrə tenderlərə qatılıb. Orda da bir xeyli işlər görüb və bunun üçün ayrılmış pulların bir qismini ala bilib. Yerdə qalan vəsaiti isə öz cibindən xərcləməli olub. Xəbərdə iddia edilir ki, Samuxda icra başçısı ilə tanınmış futbolçu arasında narazılıq yaransa da, birinci prosesi uzatmaqla onu sakitləşdirməyə nail olub. İmişli rayonunda görülən işlərə də cəlb edilən Maşallah Əhmədov isə tamamilə müflis vəziyyətinə düşüb. Hətta onun aldığı borcları qaytara bilmədiyi də verilən məlumatlar sırasında var. Məlumata görə, İmişli rayonu da daxil olmaqla, digər rayonlarda görülən işlərə görə Vilayam Hacıyevin M.Əhmədova olan ümumi borcu təqribən 2 milyon manat civarındadır. Dəfələrlə tərəflər arasında bununla bağlı söhbət olsa da, icra başçısı pulları qaytaracağı vədi ilə onu inandırmağa nail olub. Amma sonuncu dəfə bu dialoq qarşıdurma ilə nəticələnib və məşhur futbolçu pulunu almayacağı barədə xəbərdar edilib. Bundan sonra Əhmədov bu ilin əvvəllərində İmişli rayon İcra Hakimiyyətinin binası önündə özünü yandırmağa belə cəhd edib. Məlumatlarda iddia olunur ki, həmin vaxt icra hakimiyyətinin qarşısında olan bir neçə nəfər onun özünə qəsd etməsinin qarşısını alıblar. Lakin bu addım da onun pullarını almasına yardımçı olmayıb. Əksinə, Vilyam Hacıyevin yaranmış vəziyyəti yuxarılardan gizlətdiyi deyilir.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014

# Bakı Prokurorluğunda yazılan məktub Hacıbala Abutalıbova yetişmədi

## Veronika Tarbayeva: "Nizami Quliyev kimdir ki, onu bu qədər himayə edən var?!"

**Bakı sakini Veronika Tarbayeva köşkünü oğurlayan Nizami Quliyevin həbsini tələb edir. Onun sözlərinə görə, bir müddət əvvəl Bakı şəhər prokuroru Əziz Seyidov onu qəbul edib: "Qəzetiniz vasitəsi ilə baş prokurorun 1-ci müavini Rüstəm Usubova müraciətimdən sonra Əziz müəllim məni qəbul etdi. Dinləyib dedi ki, rus millətinin nümayəndəsi olduğuma görə mənə kömək etmək istəyir.**



Hacıbala Abutalıbov

Prokurorun istəyi ilə onun adına başıma gələnlərlə bağlı ərizə yazdım. Dedi ki, Hacıbala Abutalıbovla danışıb mənim köşkümün qaytarılmasına çalışacaq ki, işsiz qalmayım".

V.Tarbayeva bildirib ki, Ə.Seyidovun qəbulunda olandan sonra bir neçə dəfə Bakı Şəhər Prokurorluğunda olub: "Məni işlə Əziz müəllimin məşğul olduğunu deyirdilər. Onun qəbulunda olandan 20 gün sonra Nizami rayon Sosial Müdafiə Mərkəzindən mənə zəng etdilər. Dedilər ki, Nizami Rayon Prokurorluğundan Aqşin Ziyadov Mərkəzə məktub göndərib. Ora gedəndə qəribə bir vəziyyətlə üzləşdim. Məlum oldu ki, mənim Əziz Seyidova yazdığım məktubu Nizami Rayon Prokurorluğu Mərkəzə göndərib. Mərkəzdəkilər də, mən də bunun səbəbini anlamadım. Əgər məktubumu göndərməyə ünvan axtarırdılarsa, elə Rusiya prezidenti Vladimir Putinə yollayardılar. Bəlkə Putin öz millətindən olan qadına kömək edərdi. Nizami Quliyev kimdir ki, onu bu qədər himayə edən var?!"

V.Tarbayeva deyir ki, Bakı prokuroru ona müraciətini məktubla H.Abutalıbova yollayacağını vəd edib: "Hacıbala Abutalıbov Nizami Rayon Sosial Müdafiə Mərkəzində oturmur. Bunu hər kəs bilir. Köşkümün oğurlanmasından ötən 2 il ərzində mən çox qanunsuzluqlar və yalanlar görmüşəm. 2013-cü ildə Ticarət Departamentinin direktoru Ramiz Hacıyevə üzləşdiyim qanunsuzluqla bağlı müraciət etdim. Növbəti müraciətim zamanı açıq-aşkar dedi ki, demokratiyadır, kimi istəyirik aldadırıq, nə istəyirik edirik. Bu adamlar götürüb Azərbaycan tarixini vərəqləsinlər, görsünlər ki, Azərbaycanda verdikləri sözü qanları bahasına yerinə yetirən kişilər olub".

V.Tarbayeva baş prokurorun 1-ci müavini Rüstəm Usubova müraciət edərək onu qəbul etməsini xahiş edib: "Prezident İlham Əliyev deyir ki, o, xalqın yaşayışının yaxşılaşması üçün çalışır. Məmurlar isə bunun əksini düşünürlər. Elə bilirlər ki, xalq onların quludur. Mən Rüstəm Usubovun qəbuluna düşüb başıma gələnləri ona danışmaq istəyirəm. O, ötən dəfə məni dinlədi və verdiyi sözə də əməl etdi".

V.Tarbayeva N.Quliyev cəzasına çatana qədər mübarizə aparacağını bildirib.

Qeyd edək ki, 2012-ci il sentyabrın 4-dən 5-nə keçən gecə V.Tarbayevanın kirayə etdiyi köşk oğurlanıb. Zərəçəkən iddia edir ki, köşk özünü Bakı Şəhər İcra Hakimiyyətinin işçisi kimi təqdim edən Nizami Quliyevin göstərişinə əsasən oğurlanıb.

❑ E.MƏMMƏDƏLİYEV

# Müslüm Maqomayev haqqında roman yazılır

## Əli Əkbər: "Maqomayev daha çox rusdilli azərbaycanlıların sənətkarıdır..."

**Yazıçı Əli Əkbər hazırda Müslim Maqomayev haqqında bioqrafik-bədii əsər üzərində işləyir. Musavat.com xəbər verir ki, bu haqda yazıçının rəsmi Alekper Aliyev adlı facebook səhifəsində xəbər yayılıb.**



Müslüm Maqomayev

Diqqət çəkən məqam isə, yazıçının oxucularına müraciəti olub. Rusdilli oxuculara müraciət edən Əli Əkbər, azərbaycandillilərdən bu işdə bir dəstək gözləmədiyini qeyd edib. Əməkdaşlıq xahişi ilə müraciət yayan yazıçı qəzetimizə danışıb: "Artıq iki ildir ki, Müslüm Maqomayevin yaradıcılığı ilə dərindən maraqlanıram. Onun ifa etdiyi əsərlərin demək olar ki, hamısını dəfələrlə dinləmişəm. Yazdığı kitabları oxumuşam. Verdiyi bütün müsahibələri ilə tanışam. Eyni zamanda haqqında deyilən, yazılan nə varsa araşdırmışam. Yəni Maqomayev haqqında roman qələmə almaq üçün nə bilmək lazımdırsa, hər şeyi bildiyimə inanıram. Əlbəttə, İrvinq Stounun Van Qoq haqda yazdığı "Həyat yanğısı" romanı da mənim üçün ciddi təkan oldu. Bu romanı, bioqrafik janrda yazılmış ən uğurlu əsər hesab edirəm".

Əməkdaşlıq üçün edilən müraciətdə "azərbaycandillilər" və "rusdillilər" kimi diskriminasiyanın nə üçün edilməsinə də aydınlıq gətirən yazıçı bildirib ki, Maqomayev daha çox rusdilli azərbaycanlıların sənətkarıdır: "Bu faktdır və bu faktı görməzlikdən gəlmək olmaz, bunu diskriminasiya adlandırmaq isə heç olmaz. Tarix boyu belə olub - sənətkarların arxasında hər zaman incəsənətə, mədəniyyətə təəssübü olan imkanlı şəxslər dayanıb. Ötən ay İsveçrədə nəşr olunan romanımın işıq üzü görməsini də mən bu cür insanlara, xeyirxah dostlarıma borcluyam. Onların sayəsində tərcümə mümkün oldu. Amma bu dəfə mövzu Maqomayevdir və ilk dəfə qərar verdim ki, belə bir cəhd edim, oxucularıma üz tutum. "Rusdilli" ifadəsi də bu kontekstdə işlədilib. Maqomayev haqqında romanın yazılması Moskvaya səfərləri, görüşlər keçirməyi, tərcümə fəaliyyətlərini nəzərdə tutur. Nəşriyyat sarıdan problemim yoxdur - xoşbəxtlikdən həm Rusiya, həm Avropada məni məmnuniyyətlə nəşr edəcək nəşriyyatlar var. Amma əsər ərsəyə gələnə və naşirlərə təqdim olunana qədər, mənə dəstək olacaq insanlara ehtiyacım var. Bu səbəbdən belə bir müraciət edildi və maraqlanan hər kəsə alekper.aliyev@gmail.com ailto:alekper.aliyev@gmail.com ünvanına yazmaqları təklif olundu".

Əli Əkbərin verdiyi məlumata görə, romanın plan və strukturu, hətta qaralama formasında bir neçə hissəsi tam hazırdır. Romanda Müslüm Maqomayevin həyatının Bakı, Moskva, Avropa və ABŞ səhifələri; məhəbbətləri, dostluqları, əsərləri və bəstəkarlarla iş birliyi əksini tapacaq. Roman rus dilində qələmə alınır. Sinxron olaraq alman və Azərbaycan dillərinə tərcümə ediləcək və eyni zamanda Rusiya, İsveçrə və Azərbaycanda nəşr olunacaq.

❑ Musavat.com

# "Sovetski"də söküntü fırıldaqları

## Həm sakinlər narazıdır, həm də söküntü işlərini aparan komissiya...

**Yasamal Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini, RİH nəzdində yaradılmış Köçürmə Komissiyanın sədri Səməd İslamovun şikayəti evi sökülərək "Sovetski" sakinlərinin bəzilərinin qanunsuz olaraq evlərdə yeni tikinti işləri aparmasıdır. İsmayılov deyir ki, sakinlər bunu etməklə evlərinin kvadratını artırmağa və dövlətdən əlavə pul almağa çalışırlar.**

İcra başçısının müavininin sözlərinə görə, son günlər məhəllədə onlarla qanunsuz tikilinin qarşısı alınıb. Virtualaz.org-un verdiyi xəbərə görə, "Sovetski" sakinləri də də söküntü komissiyasının sədrinin dediklərini təsdiqləyir. Onlar deyir ki, bəzi qonşular doğrudan da gecə vaxtlarında qanunsuz tikinti işləri aparırlar.



Lakin söküntü komissiyası evlərin fotoşəkillərini əvvəlcədən çəkdiyindən yeni tikililəri müəyyən etməkdə çətinlik çəkmir. Ancaq sakinlərin də əsaslı şikayətləri var. Onların narazılığı söküntü işlərinin gedişindəndir. Söküntü işləri hazırda məhəllənin müxtəlif yerlərində həyata keçirilir.

"Sovetski" məhəlləsində olarkən şahidi olduğumuz mənzərə heç də ürəkaçan deyildi. Onlarla ailənin yaşadığı bir neçə birmərtəbəli binada sakinlərin bir qismi verilən kompensasiyanı alaraq mənzillərini tərk ediblər və onların mənzilləri, yəni binaların bir hissəsi sökülüb...

Lakin binaların digər sakinləri isə hələ də bu yarıuçuq evlərdə yaşayır. Boşalan evlər isə xarabalığa çevrilib. Sakinlər deyir ki, bu xarabalıqlarda gecələr narkomanlar məskən salır. Onlar bu cür ala-yarımçıq söküntü işlərindən şikayətçidir. Çünki bir neçə ailənin yaşadığı binanın bir hissəsi uçurulduqda digər mənzillərə də zərər dəyir. Bəzi hallarda isə evləri yararsız hala salır.

Sakinlər qorxularından evlərini boş qoymamağa çalışırlar. Səbəb isə söküntü işləri aparanların bundan istifadə etməsidir. Evin boş olduğunu, orada yaşayanın olmadığını düşünən söküntü komissiyası bu evləri də sökürlər. Deyilənlərə görə, belə hallar dəfələrlə müşahidə olunub.

Elə "Sovetski"nin Bəşir Səfəroğlu küçəsi ev 32A ünvanında tək yaşayan Qüreyşə adlı qadının da başına belə iş gəlib. Qonşularının dediyinə görə, tənha yaşayan qadın işdə olarkən evi əşyaları da içində ola-ola uçurulub. Söküntü komissiyası isə sonradan ev sahibinə deyib ki, onlar evin boş olduğunu düşünüblər.

Qonşular deyir ki, Qüreyşə xanım başqa çarəsinin olmadığını görərək komissiya ilə anlaşıb və hesabına köçürülən pulu alıb. İndi başqa yerdə özünə ev tikdirir.

Hazırda sökülən evlərin kanalizasiya sistemləri dağılıb, boş evlər zibilxana kimi istifadə olunur, məhəllələr üfunət iyindən keçilməz olub. Bakının ən qədim və məşhur məhəlləsində antisanitariya baş alıb gedir.

Qonşuların şikayəti həm də söküntü işlərinin məhəllə-məhəllə aparılmamasına görədir. Hazırda "Sovetski"də yaşayan sakinlərin istəyi boşalan evlərinin tez sökülməməsidir. Lakin söküntü komissiyası razılıq əldə edilən evləri elə həmin gün sökür. Sakinlər deyir ki, razılaşma əldə edilən kimi onlara evlərindən çıxmaları üçün təzyiq edilir. Elə Xutorda, Basində edildiyi kimi. Orada da söküntü işləri aparılarkən köçməyə razılaşmayan sakinlərin qonşuluğundakı evlərin hamısı sökülmüş, bütün kommunal xətlər sıradan çıxmışdı. Yaşayış vəziyyətlərinin çətinləşdiyini görən sakinlər də məcburən evlərini tərk etmişdilər...

Hazırda "Sovetski"dən köçənlərin əksəriyyəti evlərinin kvadratmetri nisbətən çox olanlardır. Narazı olanlar isə 10-15 kvadratmetrlik evə sahib olanlardır. Onlar evlərinin kvadratmetrinə 1500 manat verilməsi ilə razılaşmırlar. Çünki onlar alacaqları 15-20 min manata mənzil ala bilməyəcəklərini deyirlər.

Mənzilinin ölçüsü az olan, qonşuları köçdüyü üçün xarabalıq içərisində yaşayan Gülcahan Rzayeva da heç olmasa evinin əvəzində birotaqlı mənzil istəyir. Evinin ölçüsünün 18 kvadratmetr olduğunu deyən G.Rzayeva ümid edir ki, tezliklə onun problemini həll edən tapılacaq...








YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014

# Binədə həbslərə gətirən aksiyadan sonra problemlər dəyişməz qalıb

## Bəzi yollar yarımçıq təmir edilsə də, əsas narazılıq hələ də aradan qaldırılmayıb…

**Bakının Binə qəsəbəsində yolların bərbad vəziyyətinə görə keçirdikləri etiraz aksiyası polislə toqquşma ilə sonuclanmış, bir neçə nəfər həbs edilmişdi. Aksiyanın ardınca bəzi yollar asfaltlanmağa başlanıb. Nəqliyyat Nazirliyi yalnız aksiya keçirilən ərazini düzəltməyə başlasa da, bu problemin qismən həlli 4 nəfərə cinayət işi açılması, 11 nəfərə inzibati həbs verilməsi hesabına başa gəldi.**

Üstəlik, Binənin bərbad halda olan yollarının heç də hər tərəfi asfaltlanmır. Sakinlər aksiyadan sonra yenə də eyni zülmü çəkirlər. Nə marşrutlar bu yollardan keçir, nə də taksi sürücüləri bu yola girməyə razı olurlar. Binə camaatı aksiya keçirilən mərkəzi yoldan başqa heç bir yerin təmir olunmadığını söyləyirlər.

Ara yolların, məhəllələrin təmir edilmədiyini deyən qəsəbə sakinləri nazirlikdən gileylənirlər. Onların dediyinə görə, hələ də ara məhəllələr acınacaqlı vəziyyətdədir; palçıq dizə çıxıb, kələ-kötür, çala-çuxur yollardan keçmək əzabı bitməyib.

Narazılar Binə yollarının tamamilə asfaltlanmasını istəyirlər. Binəli Vasif Hüseynov: "Bizim nə siyasi tələblərimiz olub, nə hökumətdən pul istəmişik. Mən anlamıram nə vaxtdan yolları düzəltməyi tələb eləmək cinayətdir, qanunsuzluqdur? Qardaş, özləri gəlib araya girdilər, təxribat yaratdılar, uşaqları basıb maşına apardılar. Biz dövlətin yolları düzəltməyini istəyirik, bunlar üstümüzə hücum çəkib döyürlər. Kimə neyləmişik? Həmin polisin də, məmurun da keçib getdiyi yollar da pis gündədir. Gəlib özləri də gördülər ki, yol nə vəziyyətdədir və bizim tələbimiz haqlıdır. Ancaq üstümüzə tökülürlər ki, bəs siz yolun asfaltlanmasını tələb etməyin".

Daha bir Binə sakini Kamil İbadov danışır ki, polisə qarşı müqavimət olmayıb: "Guya burda kimsə qiyama qalxıb. Ay Ziya Məmmədov, biz deyirik gəl yolumuzu düzəlt.

Səndən pul istəmirik, yediyin pulları bizimlə bölüş demirik. Baxın bu yollara da. Burdan necə keçmək olar? Nə maşın girə bilir, nə avtobus keçir. Bunun məktəbə gedəni var, qocası, xəstəsi var. Hər gün biz bu yolu keçəndə həyatımıza nifrət edirik. Nə çətin işdir ki, bu yolu düzəltmək? Qarğış yiyəsi olublar. Qışda lap zülm olur. Bakının heç yerində belə bərbad yol yoxdur. Ona görə camaat bezib etiraz etməyə çıxdı".

Bir nüansı da deyək ki, Binədə etirazlar "Yeni Müsavat"ın bu problemi yazmasından sonra başladı. Qəsəbədə yolların bərbad vəziyyətdə olduğunu çəkib işıqlandırmışdıq. Ondan bir neçə gün sonra qəsəbədə mitinq oldu. İndi sakinlər deyirlər ki, camaatın "gözünə kül üfürmək" üçün aksiya keçirilən yer asfaltlanır.





Amma əhalinin əziyyət çəkdiyi yollar elə olduğu kimi qalıb. Hərçənd prezidentin Bakıətrafı kənd və qəsəbələrində yolların təmir edilməsinə dair sərəncamı var. Bu sərəncam nə Nəqliyyat Nazirliyi, nə "Azəryolservis" ASC, nə Xəzər rayon rəhbərliyinin yadına düşür.

Sakinlər danışırlar ki, qəsəbənin "Sovxoz" adlanan ərazisində yolların düzəldilməsi gözlənilirdi: "Bizim əsas tələbimiz "Sovxoz" ərazisində yamaq-yamaq olan yolları düzəltməkdir. Maşınlar çala-çuxura düşməkdən xarab olub. Piyadaların bu yolu keçməsi mümkün deyil. Yerli sakinlərdən biri Nahid deyir ki, prezident Binədə məktəbin açılışına gəlmişdi: "Prezident məktəbə gələnə qədər yeni yol çəkdilər, yolun sovxoza aparan hissəsinə isə bir metr asfalt da çəkmədilər. İndi də mitinq olan yerdən dəmiryol xəttinə qədər yolun yarısını düzəldiblər. Guya kimi aldadırlar? O da darısqal yoldu, tıxaclar yaranır. Köhnə dağılmış yol da elə qalıb".

Sakinlər mövcud vəziyyətin nə vaxta qədər davam edəcəyini bilmirlər. Onların sözlərinə görə, kütləvi həbslərin səbəbi camaatı qorxutmağa hesablanıb. Bununla belə, binəlilər növbəti aksiyaların olacağını da istisna etmirlər. Natiq adlı sakin bildirir ki, onlara qarşı belə sərt davranış təəccüblüdür: "Biz axı nə etmişik? Yol düzəltsinlər deyirik, polis camaatı həbs edir. Heç Bakıda mitinqlər keçirilən-də belə aksiyanı dağıtmırlar. Ondan sonra fikirləşdik ki, yollar hamısı düzələr. Baxın görün, nə vəziyyətdir".

Xatırladaq ki, Binə-Hövsan avtomobil yolunu bağlamağa cəhd göstərənlərdən 4 nəfər barəsində cinayət işi qaldırılıb. 11 nəfər barəsində isə inzibati həbs tədbiri seçilib. Daxili İşlər Nazirliyinin rəsmi məlumatında bildirilir ki, noyabrın 8-də 160-170 Binə sakini yolu bağlamağa cəhd göstərib: "Bu cəhdin qarşısı alınarkən onlardan bir qrupu polisin haqlı tələblərinə tabe olmayaraq daş atıblar.

Nəticədə Post-Patrul Xidməti Bölüyünün əməkdaşları, polis serjantları Xankişi Quliyevə, Elvin Ramazanova, polis kiçik serjantları Samir Bayramova və Zöhrab Hacıyevə xəsarət yetiriblər. "Fiat-Doblo" markalı iki xidməti avtomobilə ziyan vurulub".

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

---

*Təbrik*



**Tutub yerin-göyün ətəklərindən,**
**Yerlərə, göylərə boylanan nəvəm.**
**Xeyir-dua alıb böyüklərindən,**
**Bir ömrün yoluna yollanan nəvəm.**

**Fatiməni 1 yaşı tamam olması münasibətilə babası İslam müəllim, nənəsi Gülşən xanım, əmisi, atası və anası təbrik edirlər. Ona uzun ömür, cansağlığı və xoşbəxt illər arzulayırlar.**

---

# Yeni məktəblər korrupsiyaya yol açıb

## Ağdamda 1 məktəbdə 3 direktor, 6 gözətçi işləyir!..

**Ağdam qaçqınlarına tikilən yeni məktəb binaları korrupsiyaya yol açıb. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, yeni binalara kiçik köçkün məktəbləri köçürülür. Köçürülmədən sonra məktəblərin rəhbərliyi birləşdirilməli olsa da, bu baş vermir.**

İddia olunur ki, Ağdam Rayon Təhsil Şöbəsinin müdiri Elmira Şükürova kiçik məktəb direktorlarından və texniki heyətdən öz vəzifələrində qalmaları üçün "şirinlik" alır. Nəticədə 300-400 nəfərlik bir məktəbdə 3 direktor və 6 gözətçi işləyir.

Bərdə rayonunda ağdamlı köçkünlər üçün tikilmiş qəsəbədə 1 saylı məktəbin içərisində 3 və 11 saylı kiçik məktəblər yerləşdirilib. Mingəçevirdə tikilmiş qəsəbədə 52 saylı məktəbin içərisində 51 saylı və 48 saylı, Agdam rayonunda yeni tikilmiş Yeni İmamqulubəyli qəsəbəsində 135 saylı məktəbdə 92 və 87 saylı məktəblər yerləşdirilib. Bundan başqa, Ağdamda yeni tikilmiş qəsəbəyə bitişik olan İmamqulu qəsəbəsində tam orta məktəb olduğu halda, bu il həmin qəsəbənin mədəniyyət klubuna 5 saylı məktəb köçürülüb.

Beləliklə təxminən 1 km radiusda 5 məktəb fəaliyyət göstərir.

**P.S.** Ağdam Təhsil Şöbəsinin müdirini dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

---

**Başsağlığı**

**Müsavat Partiyası Nizami Rayon təşkilatı Nüsrət Əzimova həyat yoldaşı Rəhilə Əzimovanın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

---

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

---

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

---

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

---

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
Sözləri əzbərləmədən deyil onları istifadə edərək öyrənmək!
Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
Əla tələffüz və güvənlə danışmaq
Real ingiliscə söhbətlər
BONUS English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!
*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 281 (5990) 17 noyabr 2014

**“Mən bu günlərdə psixoloq qapısını döyməli olacam. Səbəb düşdüyüm yeni xəstəlik - alış-veriş xəstəliyidir. Hansısa həftə özümə yeni paltar almayanda narahat oluram, daha öncə aldıqlarımı geyinmək belə istəmirəm. Dəlicəsinə pul xərcləyirəm və artıq kredit kartımdakı limitə yaxınlaşmaq üzrəyəm”...**

# “Doktor, mağazanın qapısını bağla...”

## Alış-veriş xəstəliyi qadınların baş bəlasına çevrilib; psixoloqlar həyəcan təbili çalır, mağazalar isə durumdan məmnundur

Bu sözlərin müəllifi - 31 yaşlı Lalə Cavadova böyük bir gözəllik mərkəzində assistent vəzifəsində çalışır. Dediyinə görə, son aylar geyim mağazalarının ən sevilən müştərisinə çevrilib və bu, onu ailəsində heç də sevimli etmir. Səbəb o qədər də çox olmayan məvacibinin yarıdan çoxunu dəlicəsinə geyimə xərcləməsidir: “Özümdən asılı deyil. Hər dəfə mağazaya gedəndə ancaq göz alış-verişi edəcəyimlə bağlı özümə söz versəm də, az keçmədən görürəm kassadayam, əlimdə də minimum bir dənə yeni geyim. Və maraqlıdır ki, bu gün aldığım geyim sabah gözümdən düşür. Səhər şkafı açanda onu əynimə belə geyinmək istəmirəm. Belə başa düşürəm ki, bu da alkoqolizm, ya da narkomanlıq kimi bir xəstəlikdir. İnsan iradəsindən asılı olan bir məsələdir”.

Türkiyənin “Milliyet” qəzetində bununla bağlı ilginc araşdırma yayımlanıb. Məqaləyə görə, alış-veriş vaxtilə insanların öz ehtiyaclarını ödəməsi olduğu halda, hazırda bəzi emosional ehtiyaclarını ödəmələri üçündür. Ona görə də bu işin sentimental bir çərçivəsi var. Yəni, insan almaqdan daha çox almanın yaratdığı həzzi yaşamaq istəyir. Araşdırmalar üzə çıxarır ki, alış-veriş bir çox hallarda hirs və əsəbdən yox, o an üçün hiss etdiyin ağrını azaltmaq ehtiyacından yaranır. Üzüntü duyan insan bir qayda olaraq hislərinə nəzarət edə bilmir. Çünki üzüntü yaşayan insanlar adətən kədərlərinin qaynağını başqaları ilə, ya da şansla açıqlamağa daha meyilli olurlar. Bu səbəbdən də alış-veriş də bu itirilən nəzarət hissini yenidən bərpa etmək məqsədi daşıyır.

Beyin funksiyası baxımından nəzərə alanda isə alış-veriş zamanı seratonin - xoşbəxtlik hormonunun da miqdarı artır. Maraqlıdır ki, həyatımızda bir çox əməlləri əslində bu seratonin təsiri yaradır. Məsələn, gün işığı, idman, ya da masaj. Amma eyni zamanda qazanmaq, sahib olmaq da buna bənzər təsir göstərir. Depressiya zamanı insanlar daha çox itki hissini yaşayır və alış-veriş o itkini sanki geri qaytarır. Bu səbəblə də bir çox insan, xüsusən də qadınlar darıxanda, ya da depressiyaya düşəndə alış-verişə yönlənirlər.

**Alış-veriş edən adam özünü dəyərli hiss edir, amma...**

Sözügedən xəstəliyin daşıyıcıları böyük əksəriyyətdə qadınlardır. Onların bu xəstəliyi daşımaları cəmiyyətdə normal qəbul olunur. Bu, təxminən kişilərin birdən artıq qadınla eyni vaxtda münasibət qurmasına bənzəyir. Sonuncu variantda “kişidir, edə bilər” deyilirsə, qadınlara da eyni anlayış göstərilir. Alimlər onu da müəyyənləşdirib ki, bu xəstəliyə düşməyin də xüsusi səbəbləri var. Bunlardan biri sahib olma ehtirasıdır. Bu xəstəliyin daşıyıcıları “pulum var, ya yox. Ehtiyacım var, yoxsa yox” kimi suallar ətrafında düşünmürlər. Onlar gördükləri, bəyəndikləri hər şeyi satın alırlar. Özlərinə yeni bir şey almayanda isə insanlar özlərini pis hiss edir, sıxıntı keçirir, hətta depressiyaya düşürlər.

Xəstəliyi yaradan ikinci səbəb isə insanda yaranan dəyərsizlik hissidir. Daha dəqiq ifadə etsək, dəyərsizlik, yalnızlıq, acıq, yasaqlanma kimi neqativ duyğular da alış-veriş xəstəliyinə yol aça bilər. Məhz bu səbəbdən bəzi insanlar alış-veriş edərək, özlərini dəyərli hiss edirlər. İnsan satın aldıqlarının ona dəyər qatacağına, güclülük hissi verəcəyinə inanır. Ancaq istədiyi şeyləri aldığı zaman ilk andakı həzz xaricində xəyal etdiyi hissi yaxalaya bilməyəndə dəyərsizlik hissi bu dəfə daha ağır şəkildə geri qayıdır. Belə ki, övladı ilə hörmət-izzət səviyyəsində münasibət qura bilməyən, amma maddi durumu yüksək olan valideynlər öz əskikliklərini aldıqları saysız-hesabsız hədiyyələrlə öldürməyə çalışır. Bu da həmin uşağın gələcəkdə potensial alış-veriş xəstəsi olmasına gətirib çıxarır. Uşaqlar da hər istədiyinə sahib olmaq istəyirlər. Və bunun qarşısını almaq mümkün olmur. Evində bir oyuncaq mağazasındakı qədər oyuncağı olan uşaq üçün onlar yox, mağaza rəflərindəki oyuncaqlar daha cazibədar və maraqlıdır. Halbuki o oyuncaq rəfdən götürülüb, uşağa alındığı andan etibarən bütün cazibəsini, marağını itirmiş olur. Bu da xəstəliyin ən parlaq nümunəsidir.

**Əsas məsələ bunun xəstəlik olduğunu qəbul etməkdir**

Amma şübhəsiz ki, hər dərdin bir dərmanı var. Həkimlər müəyyənləşdirir ki, öncə bu davranışın altında yatan səbəblər həll edilməlidir. Müalicə üçün ilk addımı heç şübhəsiz ki, bunun xəstəlik kimi qəbul edilməsidir. Əgər şəxs bunun xəstəlik yox, normal həyat tərzi, xobbi, zövq olduğunu iddia edirsə, müalicədən əlini üzsün. Qəbul edən şəxs isə psixoloqa müraciət edə bilər. Sonuncunu özünə rəva bilməyənlər isə praktik məsləhətlərə baş vursun. Bunlardan birincisi bayıra çıxanda kredit kartlarını götürməmək və ya pulqabına az pul qoymaq ola bilər. Bundan başqa, həyatın başqa sahələrində vaxt keçirmək də çıxış yolu ola bilər. Yemək, tikiş, rəsm... kursları ilə maraqlanmaq həm də zövqün kosmetik dəyişikliyi sayıla bilər. Psixoloqlar alış-veriş xəstələrinə məsləhət görür ki, normadan artıq bazarlıq etdikləri zaman yaşadıqları suçluluq duyğusunu yaddan çıxarmasınlar. Çünki bu da onları narahat edir. Sözügedən duyğunun yaranmasına isə maddi problemlər səbəb olur: sən nə qədər məntiqsiz şəkildə alver edirsənsə, o qədər də büdcənə ziyan vurursan.

Psixoterapiya sübut edib ki, əslində alış-veriş etdikdən sonra insanın içində yaranan boşluq dolmur. Bu, müvəqqəti və aldadıcı bir xoşbəxtlik duyğusudur. Əslində bu insanların özlərini yaxşı hiss etmələri üçün iradəyə yox, sözlərə ehtiyacları var. Doğrudur, bu insanlar öz ehtiyaclarını maddi olaraq qarşılaya bilirlər. Amma sonradan çox yemək yeyib, bundan utanan insanlar kimi hiss edirlər özlərini. Çünki heç aldıqları şeylərdən də istifadə etmirlər. Onlar şkafda qalır.

**Mağazalara qəsdən iri ayna qoyurlar ki, insan orda özünə baxıb kompleksə girsin...**

Bəs məsləhətlər nədir? Bu tip xəstələr üçün psixoloqların göstərdikləri yollar aşağıdakılardır:

1.Bəyəndiyiniz bir malı görəndə almayın. Bir az gözləyin və ona həqiqətən ehtiyacınız olub-olmadığını düşünün. Və ya mağaza işçilərindən bəyəndiyiniz malı sizin üçün ayırıb saxlamalarını xahiş edin. Əgər bir neçə gün sonra o malı hələ də almaq istəyirsinizsə, o zaman alın.

2. Özünüzə hər ay bir alış-veriş büdcəsi hazırlayın və büdcəni əsla zorlamayın, aşmayın.

3. İki həftə içində etdiyiniz bütün alış-veriş xərclərini bir kənara yazın. Bu, sizin alış-verişə nə qədər çox pul xərclədiyinizi görmənizə səbəb olacaq.

4. Kredit kartınızın (əgər varsa) limitini aşağı salın.

Psixoloqlar düşünür ki, deyilən məsləhətlərə əməl edənlər tez bir zamanda sözügedən xəstəliyin pəncələrindən də qurtula biləcək. Psixoloqlar onu da araşdırıb ki, iri alış-veriş mərkəzləri müştərilərin daha çox cəlb edilməsi üçün xüsusi hiylələr tətbiq edirlər və bu zaman mütəxəssis yardımından istifadə edirlər. Sonuncular elmi erqonomiya adlı sahəni təmsil edirlər və insanların alış-veriş zamanı necə düşündüyü, necə reaksiya verdiyi barədə dinamikalar üzərində işləyir.

İlk təsbit: İnsanların çoxu solaxay olmadıqları üçün alış-veriş mərkəzlərinə girərkən öncə sağ tərəfə yönəlirlər. Buna görə də böyük mağazaların əksəriyyəti sağ tərəfdə yerləşdirilir.

2. Soyunma kabinələrini qəsdən mağazanın sonunda yerləşdirirlər ki, ora çatana qədər müştəri gözünə dəyən bir neçə qiyafəni də geyinmək üçün götürsün.

3. Market arabaları qəsdən böyük hazırlanır ki, insan hər dəfə ona baxdıqca guya az alver etməsi ilə bağlı təəssürata qapılsın.

4. Mağazalarda iri aynaları həm də ona görə qoyurlar ki, alış-veriş etmək istəməyən insan belə orada özünə və ətrafındakı geyim-gecimli insanlara baxıb kompleksə düşsün, nəticədə isə özünə paltar alsın.

5. Reklam kampaniyalarındakı “fürsəti qaçırmayın”, “70 faiz” endirim kimi çağırışlar da insanı dərhal nəsə almağa təşviq edir.

**Satıcı “o cür qadınlar mağazaya tək gəlirlər” deyir**

Böyük geyim mağazalarından birində satıcı işləyən Afət Muradova deyir ki, onlar bu cür müştərilərlə tez-tez qarşılaşırlar. Müsahibimizin sözlərinə görə, həmin qadınlar tez-tez səhərlər, işə getməzdən əvvəl mağazaya dəyir və mağazanı öz evlərinin şkafı kimi hiss edirlər: “Bəzən 50 paltar dəyişirlər. Hər biri haqda da satıcıların fikrini soruşurlar. Axırda birini alırlar. Amma növbəti gəlişlərində biz onların əynində heç də həmin aldıqlarını görmürük”.

Müsahibimiz deyir ki, satıcının əsas vəzifəsi mal satdırmaq olduğu üçün onlar həmin qadınlarla dost kimi davranır, alacaqları geyim barədə ancaq müsbət fikirlər söyləyirlər: “Bizim mağazada kameralar var və satış müdirimiz onu ciddi şəkildə izləyir. Biz heç bir müştəriyə "bu, sizə yaraşmadı" deyə bilmərik, buna görə cərimələnərik. Biz müştərilərimizə bütün variantları təqdim edirik, onlar arasından birini seçirlər. Bizim vəzifəmiz çoxlu mal satdırmaqdır. Ona görə də həmin qadınlardan razıyıq. O cür müştərilər mağazaya bir qayda olaraq həyat yoldaşları ilə gəlmirlər. Çünki ərləri onları bu addımdan çəkindirməyə çalışır. Onlar isə belə münasibət görəndə çox aqressivləşirlər”.

Tarixdəki ən məşhur alış-veriş xəstələri sırasında Mariya Antuanetta, Jaklin Kennedi, Şahzadə Diana və Meri Todd Linkolnun adı xüsusilə vurğulanır. Amerika prezidenti Con Kennedinin həyat yoldaşı olan Jaklin və Şahzadə Çarlzın həyat yoldaşı olan Diana paltar, ayaqqabı, antik əşya və sənət əsəri alveri asılısı sayılırdı. Keçmiş Amerika prezidenti Avraam Linkolnun həyat yoldaşı Meri Toddun isə əlcək xəstəsi olduğu deyilirdi.



**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 281 (5990) 17 noyabr 2014

# Yuxuda ikən yeyib kökəlir



İngiltərənin Çeşir qraflığındakı Uorrinqton şəhərində yaşayan Lesli Kusak hər gecə yuxusunda 2500 kalorilik yemək yeyir. Nadir qida pozuntusu xəstəliyi olan NSRED (Nocturnal Sleep-Related Eating Disorder) sindromu xəstəsi olan 55 yaşlı qadın hər gecə yuxuya gedəndən sonra gecənin bir aləmində durur, evin birinci mərtəbəsindəki mətbəxə enir, önlüyünü taxır, meyvə və tərəvəz yeyir, yumurta qırır, ən müxtəlif xörəklər bişirir. Amma 55 yaşlı qadın oyananda nə etdiyini əsla xatırlaya bilmir. 3 övlad anası olan Kusak gecə nə bişirib yediyini yalnız səhər saatlarında mətbəxi təmizləyəndə anlayır. Marketdə çalışan və təqaüdə çıxan Kusakın yeganə dərdi gecələr yuxulu-yuxulu dolaşması, yemək bişirib yeməsi deyil. Yuxulu olduğu üçün o, gecələr dəfələrlə vazelin, yucu toz və boya kimi zəhərli maddələri də bişirərək yeyib. NSRED sindromu ilk dəfə 1955-ci ildə aşkarlanıb. Bu sindromun daşıyıcısı olan insanlar gecələr yuxulu olduqları halda yemək yeyirlər.

## Bir mənzili 373 nəfərə satdı



İstanbulun Adapazar adlı bölgəsində bir evi bir neçə nəfərə sataraq saxtakarlıq edən kooperativ şirkətinin sahibi Nedim Ateşen üst-üstə 963 il həbs cəzası və 1.5 milyon dollar məbləğində cəzalandırılıb. İş adamı 2 il həbsdə qalandan sonra 150 min dollar məbləğində pul cəzası ödəyərək azadlığa çıxıb. Məlum olub ki, bu adam 300 nəfərlik kompleksdə 963 nəfərə ev satmaqla bağlı razılaşıb və potensial müştərilərin hər birindən xeyli miqdarda pul alıb. Məhkəmə zamanı saxtakar iş adamı söz verib ki, zərərçəkən vətəndaşların pullarını özlərinə qaytaracaq.

## Xərçəngəm dedi, hamını aldatdı...

Amerikada 34 yaşlı Castin adlı bir mağaza satıcısı yaxın qohum və iş yoldaşlarını 1 il boyunca aldadıb. Castin xərçəng xəstəliyinə tutulduğunu deyərək, onların xeyli miqdarda pulunu mənimsəyib. Rusiya mətbuatının xəbərinə görə, xəstə adı ilə Castin qohumlarından 94 min dollar pul alıb, iş yoldaşları günlərlə onu işdə əvəz edib. O isə həmin müddətdə qohumlarının verdiyi pullarla əylənib, səyahətə çıxıb. Castin hər dəfə çıxdığı səyahəti "kimyaterapiya", "müalicə kursu" adı ilə təqdim edib. Satıcı hazırda həbs olunub və onu ciddi cəza gözləyir.

## Qarşılıqsız sevgi ürək çatışmazlığı yaradır




Qarşılıqsız sevgi ilə birgə yaşanan kədər həmin insanlarda gələcəkdə ürək çatışmazlığı kimi ciddi problemlər yol aça bilər. İngilislər tərəfindən bu xəstəlik "Broken heart" (qırıq qəlb) adlanır. İnsan stress, kədər və həyatında mühüm bir dəyişiklik yaşadığında ürəyində bəzi dəyişikliklər olur. Bununla yanaşı, insanda göbələk infeksiyasına bənzəyən əlamətlər, halsızlıq, yüngül qızdırma, yatağa bağlı olmaq kimi problemlər ortaya çıxır. "Qırıq qəlb" xəstəliyinin daha çox həssas insanlarda rastlandığını bildirən həkimlər, bu xəstəliyin əsl səbəbinin tam məlum olmadığını deyiblər. Əsasən gənc insanlarda rast gəlinir və xoşagəlməz, üzücü nəticələrə səbəb olur. Bu cür xəstələr ilk olaraq döş qəfəsində ağrılar, halsızlıq, ayaqlarda şişmə kimi əlamətlərdən şikayət edərlər. "Qırıq qəlb" xəstəliyinin tam olaraq bir müalicəsi yoxdur. Adi bir dərman müalicəsi ilə bu xəstənin şikayətlərini azaltmaq olar. Ancaq ən əsas müalicə, insanı üzən şeyi ortadan qaldırması, xəstənin öz bədəninə sağalması üçün ümid verməsidir. Ya sevgisinə qovuşmalıdır, ya da qarşılıqlı sevgi yaşamalıdır.

## Amerikanlar işləmək istəmirlər



Son bir ildə Amerikada işləmək istəyən insanların sayında azalma müşahidə olunub. Bu, son 34 ilin ən aşağı göstəricisi kimi qeydə alınıb. Elə həmin səbəbdən də 4 milyon işçiyə ehtiyac duyan Amerikada bəzi vəzifələr boş qalıb. İqtisadi böhrandan çıxışın ən önəmli sübutu kimi açılan yeni iş yerlərində isə amerikalılar işləmək istəmir. Araşdırmalar ölkədə xalqın get-gedə tənbəlləşdiyini ortaya çıxarıb. "Express Employment Professionals" təşkilatının araşdırmasının nəticələrinə görə, amerikalılar artıq iş axtarmağı bir kənara qoyub. Hər gün daha çox insan sosial güzəştlər üçün müvafiq qurumlara müraciət edir.

## Vegeterianlar 10 il çox yaşayırlar



Heyvan mənşəli qidalar çox qəbul edən insanlar həyatlarının 10 ilini itirirlər. Rusiya mətbuatının xəbərinə görə, Harvard Universitetinin araşdırmaları bunu deməyə əsas verir. Vegeterianlarla ət yeyənlər arasındakı fərq siqaret çəkənlərlə çəkməyənlər arasındakı fərq qədərdir. Bu nəticələrə gəlincəyə qədər Harvard Universitetinin alimləri 15 il ərzində araşdırma aparıblar. Məlum olub ki, bir yumurtanın tərkibindəki xolesterin insan ömrünü bir siqaretin azaltdığı qədər azaldır. Bir gündə qəbul olunan yulaf sıyığı isə insan ömrünü idman qədər uzadır.

## Qoroskop (17 noyabr)




QOÇ - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

BUĞA - Ümumi çalarlarına görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Uzaq səfərə çıxmağa, qonaq getməyə dəyər.

ƏKİZLƏR - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Zamanı geri qaytarıb səhvinizi düzəltməkdənsə, real hədəflərə doğru irəliləyin.

XƏRÇƏNG - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq getmək də olar.

ŞİR - İxtiyarınızda olan bu təqvimdə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

QIZ - Kənardan kömək olmasa, hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

TƏRƏZİ - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

ƏQRƏB - Bürcünüzün ən aktiv dövrü olduğundan göstərilən müddətdə uğurlu anlarınız çox olacaq. Odur ki, gün ərzində cənfəşanlığınızı daha da artırmalısınız. Axşama yaxın sürprizlər mümkündür.

OXATAN - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

OĞLAQ - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam qonaq getmək maraqlı olacaq.

SUTÖKƏN - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbir nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

BALIQLAR - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Səfərə çıxmaq istəyirsinizsə, bu planı saat 12-yə qədər reallaşdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çox düşünənlərin yaddaşı zəif olur



İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanların yaddaşı zəif olur. Bu adamlar digərləri ilə müqayisədə daha tez depressiyaya məruz qalırlar. Aparılan təcrübələr zamanı elm adamları insanların hansısa bir mövzuda qərar verərkən nə qədər düşündüyü ilə bağlı beyinin hansı hissəsinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin düşüncə ilə bağlı hissəsi sayılan ön hissədə daha çox hüceyrələr var. Qərarları və həyat haqda dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrində hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100